ISSN 2789-4606

**QƏRBİ KASPİ UNİVERSİTETİ**

# ELMİ XƏBƏRLƏR

**Humanitar elmlər seriyası**

**SAY 4 – 2019**

**WESTERN CASPIAN UNIVERSITY**

# SCIENTIFIC BULLETIN

**The Series of Humanitarian Sciences**

**№ 4 - 2019**

**BAKI – 2019**

## Redaksiya heyəti

**BaĢ redaktor:** Hüseynqulu Bağırov, "Western Caspian" Universitetinin fəxri prezidenti, t.ü.f.d., professor

**Məsul katib:** Gülnarə Seyidova, fil.ü.f.d.

1. Adilə Əsədova, fil.ü.f.d., dosent
2. Afaq Həsənova, r.ü.f.d., dosent
3. Andris Leitas, "Western Caspian" Universitetinin rektoru
4. Azad Məmmədov – fil.ü.e.d.
5. Colin Love - "Western Caspian" Universitetinin fəxri professoru (Böyük Britaniya)
6. Elçin Əliyev, sən.ü.e.d., professor
7. Elmira Hacıyeva, h.ü.f.d., dosent
8. Elnarə Cəfərova, b.ü.f.d.
9. Ədalət Kərimov, r.e.d., professor
10. Fikrət Sadıxov, "Western Caspian" Universitetinin fəxri professoru
11. Fuad Məmmədov – t.ü.e.d., professor
12. Günel Bahəddinova, a.ü.f.d., dosent
13. Könül Hilal, i.ü.f.d
14. Maurus Roller – fil.ü.f.d.
15. Münəvvər Abdullayeva, f.ü.f.d., dosent
16. Nərgiz Axundova - AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
17. Pərviz Qurbanov, i.ü.f.d., professor
18. Randall Barker – "Western Caspian" Universitetinin fəxri professoru (Amerika Birləşmiş Ştatları)
19. Rauf Həsənov, t.ü.f.d.
20. Samir Həmidov, s.e.ü.f.d., dosent
21. Svetlana Quliyeva, r.ü.f.d., dosent
22. Şahin Xəlilli – fil.ü.e.d., professor
23. Ülviyyə Allazova - fil.ü.f.d.
24. William Fierman - professor (Amerika Birləşmiş Ştatları)

## *Redaksiyadan*

***Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı 2017-ci ildən oxucularla görüşə davamlı yeniliklərlə gəlməkdədir. Bu da jurnalın qarşısına qoyduğu inkişaf hədəfi ilə bağlıdır.***

***Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.***

***Diqqətinizə çatdırmaq istəyirik ki, cari ildən "Elmi xəbərlər" jurnalına göndərilən məqalələr redaksiyanın peşəkar ekspert heyətinə resenziyaya göndəriləcək, yalnız elmi-tədqiqat tutumlu əsərlərin dərc olunması mümkün olacaq.***

***Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalının redaksiya heyətinin məqsədi yerli və xarici tədqiqatçılar, alimlər tərəfindən aparılan fundamental və tətbiqi araşdırmaları, pedaqoji, metodoloji və metodiki məsələləri əhatə edən, elm və təhsilin inkişafına xidmət göstərən elmi tutumlu yazıları geniş oxucu auditoriyasına çatdırmaqdır.***

***Həmçinin, "Elmi xəbərlər" jurnalı digər universitet və institutların dissertant və elmi işçilərinin elmi əsərlərini dərc etməyə açıqdır.***

***Ümid edirik ki, "Elmi xəbərlər" jurnalı ictimai və humanitar sahələrdə həyata keçirilən elmi tədqiqatların yayılmasında, məqalələrin geniş oxucu kütləsinə çatmasında bir növ vasitəçi rolunu oynayacaq. "Elmi xəbərlər" jurnalının redaksiya heyəti mütəxəssisləri, elm adamlarını, o cümlədən, gənc tədqiqatçıları əməkdaşlığa və jurnalda elmi məqalələrlə çıxış etməyə dəvət edir.***

***From the editorial office!***

***In 2017 the journal "Scientific News" of "Western Caspian" University, is looking forward to welcoming its readers with great innovations.***

***The journal "Scientific News" was included in the publication list, which was approved by the Higher Attestation Commission under the President of the Azerbaijan Republic.***

***The journal's main objective is to inform a wide range of readers about research conducted by local and foreign scientists in the fields of fundamental and applied science - pedagogy, psychology, methodology and another reserch, included in the development of science and education.***

***We hope that "Scientific News" journal will play the role of an intermediary for a wide readership through the dissemination of scientific research in the social and humanitarian fields.***

***Editorial experts for the journal "Scientific News", scientists, especially young researchers are invited to cooperate with the journal. We want to note that our journal is open to cooperation with scientists and researchers from other universities.***

***We would like to draw your attention to the fact that in the current year all the articles of the "Scientific News" journal will be sent for consideration to professional experts, and only works of scientific and research potential will be published.***

# MÜNDƏRĠCAT

## PSİXOLOGİYA

1. Elnarə İbrahim qızı Şəfiyeva, Sevinc Ağavəli qızı Allahyarova
*Somatik problemi olan qadınların əhval-ruhiyyəsinin motivasiya-tələbatlar sferasına təsiri* ....................7
2. Anagül Məhəmmədnəbi qızı Osmanova
*Yeniyetmələrin valideynləri ilə qarşılıqlı münasibəti və ailədə vəziyyəti* ..... 24
3. Ləman Rafiq qızı Novruzlu
*Ailədə ana-uşaq münasibətlərinin sosial-psixoloji xüsusiyyətləri* ............... 32
4. Günay Kamran qızı Bağırova-Babazadə
*Yeniyetməlik yaş dövründə şəxsiyyətin formalaşmasında ailənin rolu*........ 42
5. Nigar Mikayıl qızı Vahabzadə
*Müasir dövrdə sosial şəbəkələrin şəxsiyyətin cəmiyyətdə yadlaşma probleminə təsiri*.................... 48
6. Natəvan Yadulla qızı Kərəmova
*İmtahan stresinin yeniyetmələrin psixoloji vəziyyətinə təsirinin tədqiqi* ...... 54
7. Gülgün Ramazan qızı Mirzəyeva
*Ailə böhranlarının etimologiyası və diaqnostikası*.................................... 66

## DİZAYN

8. Janna Nikalay qızı Andreyeva, Lidiya Andrey qızı Safronova
*Bakı buxtasında Xəzər dənizi sahilinin ekoloji dizaynı* ...............................74

## SİYASƏT

9. Anar Əkrəm oğlu ŞÜKÜROV
*Müasir dövrdə dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin əsas xüsusiyyətləri* ....................82
10. Ramid Söhbət oğlu HÜSEYNOV, Asif Akat oğlu ASLANLI
*Milli təhlükəsizliyin təmin olunması sahəsində Azərbaycanın Rusiya və NATO ilə əməkdaşlığı*.................... 89
11. Südabə Əhliman qızı Yusifova
*ABŞ-ın yaxın şərq neftinə tam nəzarət və siyasi mövqeyini gücləndirmək siyasəti* .................... 99
12. İlahə Məhərrəm qızı Məmmədova
*1970-ci illərdə yaxın şərq ölkələri ilə mədəni əlaqələrin inkişafinda Heydər Əliyevin rolu* .................... 106

## ƏDƏBİYYAT

13. Lalə Tofiq qızı Həsənova
*Müasir bədii-sənədli nəsr nümunələrində intermediallıq: "Ədəbiyyat və musiqi".* .................... 113
14. İlhamə Muxtar qızı Ağazadə
*Qorqudşünas alim-Bəhlul Abdulla*....................*120*

## CONTENTS

### PSYCHOLOGY

1. Elnara Ibrahim Shafiyeva, Sevinc Agavali Allahyarova
*The impact of mood on the motivational needs of women with somatic problems* ........ 7
2. Anagul Mehemmednebi Osmanova
*Teenagers' relationships with parents and their position in the family* ........ 24
3. Leman Rafiq Novruzlu
*Social and psychological characteristics of mother-child relations in family…* ........ 32
4. Gunay Kamran Bagirova-Babazade
*The role of the family in the development of personality during adolescence*........ *42*
5. Nigar Micael Vahabzade
*The impact of social networks on the alienation of identity in society in modern times.*........*48*
6. Natevan Yadulla Karamova
*Psychological changes occured in teens during examinations*........*54*
7. Gulgun Ramazan Mirzayeva
*Etymology and diagnosis of family crises*........ *66*

### FINE ARTS

8. Janna Nikalay Andreyeva, Lidiya Andrey Safronova
*Ecological design of the coast of the Caspian Sea at the Baku Bay*........ *74*

### POLITICS

9. Anar Ekrem Shukurov
Main features of current public relations in state administration… ........ 82
10. Ramid Sohbet Huseynov, Asif Akat Aslanlı
*Azerbaijan Russia and NATO cooperation in the field of ensuring national security*........*89*
11. Sudabe Akhliman Yusifova
*US policy to improve final oil and political policy*........*99*
12. Ilaha Meherrem Memmedova
*Heydar Aliyev's contribution to the development of cultural relations with the countries of the middle east in the 1970s.*........ *106*

### LITERATURE

13. Lale Tofiq Hasanova
*Intermediality of modern art-documentary prose: "Literature and music"*.. *113*
14. Ilhama Muxtar Ağazadeh
*Korkutcritics scholar - Bahlul Abdulla* ........ *120*

## PSĠXOLOGĠYA

**UOT 6107.01**

# SOMATĠK PROBLEMĠ OLAN QADINLARIN ƏHVAL-RUHĠYYƏSĠNĠN MOTĠVASĠYA-TƏLƏBATLAR SFERASINA TƏSĠRĠ

**Elnarə Ġbrahim qızı ġƏFĠYEVA**
*Psixologiya elmləri doktoru, professor*

**Sevinc Ağavəli qızı ALLAHYAROVA**
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*shafiyeva@mail.ru*

## XÜLASƏ

Məqalədə somatik problemləri olan qadınların əhval-ruhiyyəsinin motivasiya - tələbatlar sisteminə təsiri öyrənilmişdir. Eksperimental-psixoloji tədqiqat zamanı xüsusi batareya metodikalar vasitəsilə ginekoloji xəstəliklərdən əziyyət çəkən qadınların motivasiya-tələbatlar sisteminin xüsusiyyətləri müəyyən edilmiş, ginekoloji xəstələrdə depressiyanın, şəxsiyyətlərarası münasibətlər, cinsi həyatdan məmnunluq və öz bədəni haqqında təsəvvürləri araşdırılmış, bu göstəricilər arasında asılılıq müəyyən edilmişdir. Bunun üçün Sosio-demoqrafik cədvəl; Hierarchy of Needs Scale; The Situational Motivation Scale; Beck Depression İnventory; Body İmage Scale; Dyadic Adjustment Scale və Golombok-Rust Inventory of Sexual Satisfaction kimi testlərindən istifadə olunmuşdur. Müəyyən edilmişdir ki, ginekoloji xəstəliklərin ağırlıq dərəcəsindən asılı olaraq qadınlarda əhval-ruhiyyədə olan dəyişikliklər həm daxili, həm də xarici motivasiyanı aşağı salır; tələbatlar daha az ödənilir; ginekoloji xəstəliklər qadınlarda depressiyaya səbəb olur; xəstəliklər şəxsiyyətlərarası münasibətlərə təsir edir və nəticədə qadınlar öz bədənlərini mənfi qavrayır, cinsi həyatdan məmnun qalmırlar, gündəlik həyatda yaşadıqları konfliktlər artır.

**Açar sözlər:** ginekoloji xəstəliklər, depressiya, uğursuzluq, tələbatlar, əhval-ruhiyyə, motivasiya

# ВОЗДЕЙСТВИЕ НАСТРОЕНИЯ НА МОТИВАЦИОННО-ПОТРЕБНОСТНУЮ СФЕРУ ЖЕНЩИН С СОМАТИЧЕСКИМИ ПРОБЛЕМАМИ

## РЕЗЮМЕ

В статье рассматривается воздействие настроения на мотивационно-потребностную систему женщин с соматическими проблемами. Во время экспериментально-психологического исследования была проведена батарея методик, с помощью которых была выявлена взаимосвязь между системой потребностей и мотивации, депрессией, межличностными отношениями и сексуальной удовлетворенностью. С целью изучения данной проблемы была составлена социо-демографическая таблица и проведены следующие методики: Hierarchy of Needs Scale; The Situational Motivation Scale; Beck Depression İnventory; Body İmage Scale; Dyadic Adjustment Scale и Golombok-Rust Inventory of Sexual Satisfaction. В ходе исследования было выявлено, что у женщин с гинекологическими проблемами в зависимости от тяжести заболевания происходит снижение как внутренней так и внешней мотивации; неудовлетворение потребностей; гинекологические заболевания способствуют возникновению депрессии; заболевание действует на межличностные отношения и способствует возникновению конфликтов; негативное восприятие своего тела и неудовлетворенность половой жизнью.

**Ключевые слова:** гинекологические заболевания, депрессия, неудачность, потребности, настроение, мотивация

# THE IMPACT OF MOOD ON THE MOTIVATIONAL NEEDS OF WOMEN WITH SOMATIC PROBLEMS

## ABSTRACT

This article discusses the impact of mood on the motivational need system of women with somatic problems. During an experimental psychological study, a battery of techniques was carried out. They were used to identify the relationship between the system of needs and motivation, including depression, interpersoal relationships and sexual satisfaction. In order to study this problem, a socio-demographic table was drawn up and a battery of techniques was conducted according to: Hierarchy of Needs Scale; the Situational Motivation Scale; Beck Depression İnventory; Body İmage Scale; Dyadic Adjustment Scale and Golombok-Rust Inventory of Sexual Satisfaction. The study revealed that women with gynecological problems, depending on the severity of the disease, were decreasing both internal and external motivation; unmet needs. Gynecological diseases contribute to depression and affect interpersonal

relationships and contribute to the occurrence of conflicts; resulting in negative perception of their bodies and dissatisfaction with their sex life.

**Keywords:** gynecological diseases, depression, failure, needs, mood, motivation

Son dövrlər klinik psixologiyanın tətbiqi və dövrümüz üçün aktuallıq kəsb edən somatik problemlərdən biri də ginekoloji xəstəliklərin yaratdığı psixoloji problemlərin öyrənilməsi və onların psixokorreksiyası sahəsində müəyyən işlərin aparılmasına yol açmaqdır.

Məlumdur ki, xəstəlik xəstənin ətraf mühitə, özünə olan münasibətini dəyişir və cəmiyyətdə onun yerinin aşağı enməsi ilə nəticələnir. Xəstə sağlam adamdan daxili orqanların işində və əhval-ruhiyyədə keyfiyyətcə dəyişikliklərin olması ilə fərqlənir. Bu zaman maraqların, motorikanın, nitqin, gələcəyə aid planların, adi həyat ritminin və emosional sferanın dəyişməsi baş verir. Ginekoloji xəstəliklər zamanı psixi fəaliyyətin dəyişməsi psixonevroloji simptomlarla müşayiət olunur. Ginekoloji xəstəliklər zamanı psixi amillərin təzahürü onların ətraf aləmə münaqişəli münasibətlərində və çətin sosial uyğunlaşmalarında özünü göstərir [2, s.62]. Ginekoloji xəstəliklər zamanı psixi amil patofizioloji dəyişikliklərlə müşayiət olunur. Bu zaman ginekoloji xəstələrdə depressiya, affektiv hallar, qorxular, yuxu və iştaha pozuntusu, özünü və ətrafdakıları təhrif olunmuş qavrama, gələcəyə yönəlmiş məqsədlərin olmaması, ölüm haqqında düşüncələrin artması və s. müşahidə olunur [1, s.9]. Ginekoloji xəstəliyin təbiətindən asılı olaraq şəxsdə müxtəlif psixoloji hallara və pozuntulara rast gəlinir. İlk öncə onu qeyd etmək lazımdır ki, ginekoloji xəstəliklər zamanı xəstələrin öyrənilməsi cinsi sistemin funksiyalarını yerinə yetirməsi ilə qiymətləndirilir. Bura mensturasiya pozulmaları, doğum, cinsi və sekretor problemlər daxildir ki, onlardan asılı olaraq da qadınlarda bir çox psixoloji problemlər yaranır. Beləki, bu səbəblər qadınların həyat fəaliyyətinə təsir edir, cinsi və ailədaxili münasibətlərdə, eyni zamanda hamiləlikdə fəsadlar, ümumilikdə, reproduktiv funksiyada pozulmalar yaradır. Qeyd edilən problemlər qadınların emosional sferasına, motivasiya və tələbatlar sistemində dəyişikliklər yaradır.

Ginekoloji xəstəliklər insanlarda öz məqsədlərinə çatmama qorxusu yaradır ki, bu da ruh düşkünlüyü, uzaq gələcəyə məqsədlərin olmaması, ailədaxili münasibətlərin keyfiyyətcə dəyişməsi və s. məsələlərdə əks olunur. Beləliklə, əsas məqsəd ancaq həyatı davam etdirmək, ağrılardan azad olmaq, xəstəlik əlamətlərini azaltmaq, daha münasib müalicə üsulu tapmaq olur. Bu xəstələrdə digər məqsəd sağlam insan imicinin saxlanılması, genis sosial mühitdə fəaliyyət göstərmək bacarığının davam etdirilməsi, mövcud qarşılıqlı münasibətləri qoruyub saxlamaq və ya gələcəkdə kiminləsə romantik münasibətlər qurmaq bacarığının inkişaf etidirmək və s. olur.

Ginekoloji xəstəliklər zamanı qadınlarda depressiya və əhval-ruhiyyədə gedən dəyişikliklər fonunda motivasiya əksikliyi yaranır. Motivasiya əksikliyi-

nin ilkin səbəblərindən biri depressiyadır. Depressiyanın əsas əlamətlərindən biri anhedoniya – fəaliyyətə qarşı marağın olmamasıdır. Buna görə də, depressiyanın müalicə edilməsi motivasiyanın yaranmasında uğurlu addımdır. Ginekoloji problemləri olan qadınlarda depressiya komorbid əlamət kimi özünü göstərir.

Motivasiya əksikliyinin digər səbəbi uğursuzluq qorxusudur. Əsasən Asiya ölkələrində insanlar perfeksionist ustanovkalarla böyüdülür. Ginekoloji problemləri olan qadınlar xəstəliklərinin həll edilməz, çətin həll edilən olduğunu düşündükdə uğursuzluq qorxusu yaşayırlar. Bu uğursuzluq göstərir ki, onlar qüsurlu insanlardır. Uğursuzluq qorxusu fəaliyyətə cəlb olunma həvəsini də öldürür və motivasiyanı aşağı salır. Uğursuzluqdan qorxan heç bir insan nəaliyyət əldə edə bilmir.

Ağır ginekoloji problemlər qadınların bioloji və fizioloji ehtiyaclarına təsir edir. Belə ki, pasiyentlərin bu ağır problemi nəzarətdə saxlaması üçün köməyə ehtiyacı olur. Bu problem təşviş hissinə, distress və özünə nəzarəti itirmək qorxusuna, gündəlik həyat rutminin və sabitliyin dəyişməsinə, residivin baş vermə qorxusuna səbəb olur. Pasiyent və onun ailə üzvləri nəzarət hissinin qazanılması, psixoloji sabitlik və ümidin inkişaf etdirilməsi, gələcəyə olan pozitiv baxış və etibarın yaranmasında köməyə ehtiyac duyurlar. Problem pasiyentin şəxsiyyətlərarası münasibətlərinin, seksual münasibətlərinin, gündəlik sosial və iş fəaliyyətinin dəyişməsinə və sosial izolyasiya hissinin yaranmasına səbəb olur. Bunun nəticəsində tənhalıq, dostların itirilməsi müşahidə olunur. Onların xəstəlik haqqında informasiyaya, məsləhətə, prosessin nizama salınmasına, bədənlərində olan dəyişikliklə bağlı özünə inamın bərpası və özünü qiymətləndirmənin yüksəldilməsinə ehtiyacı olur. Bu pasiyentlərdə birbaşa deyil eyni zamanda dolayi yolla özünü aktuallaşdırma tələbatı da olur ki, bu da psixi sağlamlığın bərpası məsələsində vacib proseslərdən biridir.

Tədqiqatımızın məqsədi ginekoloji xəstələrin əhval-ruhiyyədə gedən dəyişikliklər fonunda tələbatlar sisteminin və motivasiyasının müəyyən edilməsi, onlarda depressiyanın, şəxsiyyətlərarası münasibətlər, cinsi həyatdan məmnunluq, öz bədəni haqqında təsəvvürlərin araşdırılması və aralarında asılılığın müəyyən edilməsi idi.

Tədqiqatda 2 nömrəli qadın məsləhətxanasına və Respublika klinik xəstəxananın hamiləlik patalogiyası şöbəsinə müraciət edən 94 nəfər 18-60 yaş arası (Orta yaş: 47,78 ±9,8) ginekoloji xəstəlikdən müalicə olunan pasientlər iştirak etmişdir. Tədqiqatın bütün etik prinsipləri gözlənilmişdir. Hər bir pasiyentə tədqiqatın məqsədi haqqında informasiya verilmiş və onların tədqiqatın istənilən mərhələsində iştirak etməkdən imtina etmək imkanının olduğu izah edilmişdir. Beləliklə, tədqiqata cəlb edilənlər iştirak haqqında məlumatlı razılıq vermişdilər.

Tədqiqat zamanı Azərbaycanda ginekoloji problemləri olan qadınların motivasiya və tələbatlar sistemi qiymətləndirildi. Həmçinin,

1) Azərbaycanda yaşayan ginekoloji problemləri olan qadınlarda depressiyanın aktuallığı və şəxsiyyətlərarası münasibətlər sferası araşdırıldı.

2) Azərbaycanda ginekoloji problemləri olan qadınların öz bədəni haqqında təsəvvürləri və bunun cinsi həyata təsiri tədqiq edildi.

3) Motivasiya-tələbatlar sistemi və depressiya, şəxsiyyətlərarası münasibətlər, bədəninə münasibət, cinsi məmnunluq arasında asılılıq qiymətləndirildi.

Tədqiqatın gedişində aşağıdakı metodikalardan istifadə olundu:

1. Sosio-demoqrafik cədvəl;
2. Tələbatlar İerarxiyası Cədvəli (Hierarchy of Needs Scale);
3. Situasiya Motivasiya Cədvəli (The Situational Motivation Scale (SIMS);
4. Bekin Depressiya Cədvəli (Beck Depression İnventory (BDİ));
5. Bədən Təsəvvürü Cədvəli (Body İmage Scale (BİS));
6. İkili Tənzim Cədvəli (Dyadic Adjustment Scale (DAS);
7. Golombok-Rust Cinsi Məmnunluq Cədvəli (Golombok-Rust Inventory of Sexual Satisfaction (GRİSS)).

Metodikalar azərbaycan dilinə standartlaşdırılmışdır. Pasientləri qeyd etmək və tədqiq etmək üçün xüsusi formalardan istifadə edilmiş və onların seçilməsinə başlanılmışdır. Yarana biləcək problemləri müəyyən etmək və sual doğura biləcək məsələləri aydınlaşdırmaq məqsədilə pilot tədqiqat keçirilmişdir.

Tədqiqatın məqsədinə uyğun olaraq pasiyentlərin sosial-demoqrafik göstəricilərini qeyd edən cədvəl hazırlanmışdır. Cədvəldə pasiyentlərin təhsili, sosial statusu, ailə vəziyyəti, diaqnozu, xəstəlik müddəti, evlilik müddəti və yaşı qeydə alınmışdır.

Xəstələrin seçilməsi prosesi zamanı aşağıdakı meyarlar əsas götürülmüşdür:

1. Pasiyentlər ən azı 1 ay müddətində ginekoloji problemləri olmalıdır;
2. Pasiyentlərdə digər somatik xəstəliklər qeydə alınmamalıdır.
3. Pasiyent sualları adekvat cavablandıra bilməlidir;
4. Yaş həddi 18-60 təşkil etməlidir;
5. Bu xəstələrin vəziyyəti alkoqol və digər psixiaktiv maddələrin qəbulu ilə əlaqəli olmamalıdır.

Tədqiqata cəlb edilən pasiyentlər ağır və yüngül ginekoloji problemləri olan qadınlardır. Onların 11,7 %-i ilkin təhsil, 70,3 %-i orta təhsil, 9,6 %-i texnikum, 8,5 %-i universitet təhsili almışdır. Sosial vəziyyətinə görə 37,6 %-i aşağı, 42,3 %-i orta, 8,46 %-i isə yüksək gəlirlidir. Ailə vəziyyətinə görə 84 %-i evli, 16 %-i isə subaydır. Pasiyentlərin 44,7 %-i yüngül, 65,3 %-i isə ağır ginekoloji problemlərdən müalicə olunur. Tədqiqata cəlb edilən xəstələr xəstəliyin müddətinə görə 3 qrupa bölünmüşdür. 67 % pasiyent bir ilə qədər, 27,6 % faiz pasiyent 5 ilə qədər ginekoloji problemlərin müxtəlif səviyyələrindən müalicə olunmuşdur. 5,3% pasiyentin isə 5 ildən daha uzun müddətə ginekoloji problemləri olmuşdur.

**Ginekoloji problemləri olan qadınlarda tələbatların ierarxiyası və motivasiya tədqiqi**

Biz Tələbatlar İerarxiyası Cədvəli vasitəsilə ağır və yüngül ginekoloji problemləri olan pasiyentlərdə tələbatlar sistemini qiymətləndirdik. Bioloji tələbatlar üzrə orta bal yüngül ginekoloji xəstələrdə (YGX) (M=3,81, SD(0,66), p=0,250, df=92, t=1,960) ağır ginekoloji xəstələrdə (AGX) isə (M=3,50 SD=0,65 p=0,250, df=92, t=1,960), təhlükəsizliyə olan tələbat (YGX M=3,85, SD=0,53, AGX M=3,75, SD=0,50, p=0,563, df=92, t=0,869), aid olma və sevgiyə tələbat (YGX M=3,66, SD=0,53, AGX M=3,42 SD=0,76, p=0,431, df=92, t=0,331), ehtiyacların qiymətləndirilməsi (YGX M=3,54, SD=0,98, AGX M=3, 47 p=0,175, df=92, t=1,615), koqnitiv tələbatlar (YGX M=3,70, SD=0,67, AGX M=3,48, SD=0,50, p=0,261, df=92, t=1,615), estetik tələbatlar (YGX M=3,56, SD=0,75, AGX M=3,34, SD=0,55, p=0,139, df=92, t=1,425), özünü aktuallaşdırma (YGX M=3,05, SD=0,39, AGX M=2,95, SD=0,39, p=1,150, df=92, t=0,254), üstünlüyə olan tələbat (YGX M=3,53, SD=0,62, AGX M=3,54, SD=0,54, df=-0,096, df=92, t=0,924) göstəriciləri qeyd etdiyimiz kimi nəticələr göstərmişdir.

*Cədvəl 1*

Tələbatlar ierarxiyası şkalası

| Göstəricilər | Yüngül ginekoloji problemlər | Ağır ginekoloji problemlər | p | df | t |
|---|---|---|---|---|---|
| | M(SD) | | | | |
| Tələbatlar ierarxiyası | | | | | |
| Bioloji tələbatlar | 3,81 (0,66) | 3,50 (0,65) | 0,250 | 92 | 1,960 |
| Təhlükəsizliyə olan tələbat | 3,85 (0,53) | 3,75 (0,50) | 0,563 | 92 | 0,869 |
| Aid olma və sevgiyə olan tələbat | 3,66 (1,11) | 3,42 (0,76) | 0,431 | 92 | 1,098 |
| Ehtiyacların qiymətləndirilməsi | 3,54 (0,98) | 3,47 (0,76) | 0,175 | 92 | 0,331 |
| Koqnitiv tələbatlar | 3,70 (0,67) | 3,48 (0,50) | 0,261 | 92 | 1,615 |
| Estetik tələbatlar | 3, 56 (0,75) | 3,34 (0,55) | 0,139 | 92 | 1,425 |
| Özünü aktuallaşdırmaya tələbatı | 3,05 (0,39) | 2,95 (0,39) | 1,150 | 78 | 0,254 |
| Üstünlüyə olan tələbat | 3,53 (0,62) | 3,54 (0,54) | -0,096 | 78 | 0,924 |

Daxili və xarici motivasiya. Tədqiqatın nəticələrinə görə göstəricilər aşağıdakı kimidir: daxili motivasiya YGX M=3,6 SD=0,59, AGX M=3,5

SD=0,60, t=0,750, df=92, p=0,454, müəyyən olunmuş tənzimləmə YGX M=3,9 SD=0,30, AGX M=3,7 SD=0,53, t=2,340, df=92, p=0,022, xarici motivasiya YGX M=3,28, SD=0,68, AGX M=3,13 SD=0,76, t=0,930 df=92, p=0,354, motivasiya əksikliyi YGX M=3,29 SD=0,57, AGX M=4,10 SD=0,65, t=0,821, df=92, p=0,344.

*Cədvəl 2*

Situasiya Motivasiya şkalası

| Göstəricilər | Yüngül ginekoloji xəstəliklər | Ağır ginekoloji xəstəliklər | t | df | p |
|---|---|---|---|---|---|
| | M(SD) | | | | |
| Situasiya Motivasiya şkalası | | | | | |
| İntrinsik (daxili motivasiya) | 3,6 (0,59) | 3,5 (0,60) | 0,750 | 92 | 0,454 |
| Müəyyən olunmuş tənzimləmə | 3,9 (0,30) | 3,7 (0,53) | 2,340 | 92 | 0,022 |
| Xarici motivasiya | 3,28 (0,68) | 3,13 (0,76) | 0,930 | 92 | 0,354 |
| Motivasiya əksikliyi | 3,29 (0,57) | 4,10 (0,65) | 0,821 | 92 | 0,344 |

Tədqiqat nəticəsində müəyyən olundu ki, ağır ginekoloji xəstəlikdən əziyyət çəkən pasiyentlərdə tələbatlar sistemi daha az ödənilir. Belə ki yüngül ginekoloji problemləri olan pasiyentlər tələbatlar ierarxiyası daha yaxşıdır. Onlar ağır ginekoloji problemləri olan pasiyentlərdən fərqli olaraq özlərini cəmiyyətdə daha uğurlu şəkildə aktuallaşdıra bilirlər.

Cədvəlinin göstəricilərinə görə yüngül ginekoloji problemləri olan qadınlar daha yüksək motivasiyaya sahibdirlər. Bizim tədqiqatımızın nəticələrinə görə müxtəlif ginekoloji problemləri olan qadınlarda motivasiya səviyyəsi müxtəlifdir. Belə ki, yüngül ginekoloji problemləri olan qadınlarda daxili və xarici motivasiya daha yüksəkdir. Ağır ginekoloji problemləri olan qadınlarda isə yüksək həddə motivasiya əksikliyi vardır.

Ümumilikdə isə, hər iki qrupda 3 balla 4 bal arasında nəticələrin toplanması ginekoloji problemlərin pasiyentlərdə motivasiya azlığı probleminə səbəb olduğunu göstərir.

*Ginekoloji problemləri olan qadınlarda cinsi məmnunluq hissinin araşdırılması.*

Biz tədqiqatımızda pasiyentləri aldıqları müalicənin müddətinə görə 3 qrupa böldük. Golonbok-Rust Cinsi Məmnunluq Cədvəlinin nəticələrinə görə orqazm problemləri 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=4.31±3.3, KWT=1,31, p=0,273), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss= 2.33±2.30), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə

(X±Ss=3.59±3.21), o cümlədən vaginizm 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=6,49±2,83, KWT=0,179, p=0,836), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=7.16±2.48), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=6.44±2.59), həssaslığın olmaması 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=4.90±3.60, KWT=0,878, p=0,419), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=3.16±2.22), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=5.29±3.46), məmnunluq hissinin olmaması 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=3.54±3.07, KWT=0,330, p=0,720), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=3.83±3.18), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=4.11±2.97), ünsiyyətdən qaçma 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=3.78±3.11, KWT=7,190, p=0,027), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=1.16±2.85), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss= 2.37±2.57), tezlik 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=4.37±1.96, KWT=0,036, p=0965), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=4.50±1.76), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss= 4.48±1.62)dir.

*Cədvəl 3*

Golombok-Rust cinsi məmnunluq şkalası (GRİSS)

| GRİSS | N | X±Ss | KWT | p |
|---|---|---|---|---|
| Orqazm problemləri: | | | | |
| 1 il | 61 | 4.31±3.3 | 1.31 | 0.273 |
| 1-5 il | 6 | 2.33±2.30 | | |
| 5 il və daha çox | 27 | 3.59±3.21 | | |
| Vaginizm: | | | | |
| 1 il | 61 | 6.49±2.83 | | |
| 1-5 il | 6 | 7.16±2.48 | 0.179 | 0.836 |
| 5 il və daha çox | 27 | 6.44±2.59 | | |
| Həssaslığın olmaması: | | | | |
| 1 il | 61 | 4.90±3.60 | | |
| 1-5 il | 6 | 3.16±2.22 | 0.878 | 0.419 |
| 5 il və daha çox | 27 | 5.29±3.46 | | |
| Əks cinslə münasibətdən qaçma: | | | | |
| 1 il | 61 | 4.13±3.16 | | |
| 1-5 il | 6 | 3.50±3.98 | 0.671 | 0.514 |
| 5 il və daha çox | 27 | 3.18±3.45 | | |
| Məmnunluq hissinin olmaması: | | | | |
| 1 il | 61 | 3.54±3.07 | | |
| 1-5 il | 6 | 3.83±3.18 | 0.330 | 0.720 |
| 5 il və daha çox | 27 | 4.11±2.97 | | |
| Ünsiyyətdən qaçma: | | | | |
| 1 il | 61 | 3.78±3.11 | | |
| 1-5 il | 6 | 1.16±2.85 | 7.190 | 0.027 |
| 5 il və daha çox | 27 | 2.37±2.57 | | |
| Tezlik: | | | | |
| 1 il | 61 | 4.37±1.96 | | |
| 1-5 il | 6 | 4.50±1.76 | 0.036 | 0.965 |
| 5 il və daha çox | 27 | 4.48±1.62 | | |

*Cədvəl 4*

Golombok-Rust cinsi məmnunluq şkalası (GRİSS)

| GRİSS | N | X±Ss | t | p |
|---|---|---|---|---|
| Orqazm problemləri: | | | | |
| YGX | 42 | 3.33±2.93 | 1.768 | 0.080 |
| AGX | 52 | 4.50±3.36 | | |
| Vaginizm: | | | | |
| YGX | 42 | 5.80±2.13 | 2.328 | 0.022 |
| AGX | 52 | 7.09±3.02 | | |
| Həssaslığın olmaması: | | | | |
| YGX | 42 | 4.92±3.18 | 0.059 | 0.953 |
| AGX | 52 | 4.88±3.86 | | |
| Əks cinslə münasibətdən qaçma: | | | | |
| YGX | 42 | 2.88±2.98 | 2.331 | 0.022 |
| AGX | 52 | 4.57±3.87 | | |
| Məmnunluq hissinin olmaması: | | | | |
| YGX | 42 | 3.09±2.67 | 1.828 | 0.071 |
| AGX | 52 | 4.23±3.22 | | |
| Ünsiyyətdən qaçma: | | | | |
| YGX | 42 | 2.52±2.98 | 2.006 | 0.048 |
| AGX | 52 | 3.76±2.99 | | |
| Tezlik: | | | | |
| YGX | 42 | 3.97±1.52 | 2.109 | 0.038 |
| AGX | 52 | 4.76±2.01 | | |

*Ginekoloji problemləri olan qadınlarda ikili münasibətlərin tədqiqi*

Ginekoloji problemləri olan qadınların həyat yoldaşı ilə şəxsiyyətlərarası münasibətlərini qiymətləndirdik. Cütlük arasında orta bal: razılaşma 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=11,18±10.96, KWT=0,067, p=935), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=9,66±2,16), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=11,07±7,04), birlik 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=12,40±4,66, KWT=7,50, p=0,023), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=16.33±1.96), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=14.51±5.47), hisslərini ifadə 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=3.39±2.10, KWT=0,019, p=0,981), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=3,50±1,04), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=3,33±1,94), məmnunluq 1 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=26,16±4,11, KWT=6,62, p=0,036), 1-5 il müddətində müalicə alan pasiyentlərdə (X±Ss=26,59±5,15), 5 ildən çox müddətdə müalicə alan pasiyentlərdə (X±Ss=24.00±4.78)-dir.

*Cədvəl 5*

İkili Tənzim Şkalası (DAS)

| DAS | N | X±Ss | KWT | p |
|---|---|---|---|---|
| Razılaşma | | | | |
| 1 il | 61 | 11.18±10.96 | 0.067 | 0.935 |
| 1-5 il | 6 | 9.66±2.16 | | |
| 5 il və daha çox | 27 | 11.07±7.04 | | |
| Birlik | | | | |
| 1 il | 61 | 12.40±4.66 | 7.50 | 0.023 |
| 1-5 il | 6 | 16.33±1.96 | | |
| 5 il və daha çox | 27 | 14.51±5.47 | | |
| Hisslərini ifadə | | | | |
| 1 il | 61 | 3.39±2.10 | 0.019 | 0.981 |
| 1-5 il | 6 | 3.50±1.04 | | |
| 5 il və daha çox | 27 | 3.33±1.94 | | |
| Məmnunluq | | | 6.62 | 0.036 |
| 1 il | 61 | 26.59±5.15 | | |
| 1-5 il | 6 | 26.16±4.11 | | |
| 5 il və daha çox | 27 | 24.00±4.78 | | |
| Ümumi bal | | | 0.135 | 0.874 |
| 1 il | 61 | 53.57±12.68 | | |
| 1-5 il | 6 | 55.66±6.25 | | |
| 5 il və daha çox | 27 | 52.92±10.21 | | |

*Cədvəl 6*

İkili Tənzim Şkalası (DAS)

| DAS | N | X±Ss | t | p |
|---|---|---|---|---|
| Razılaşma | | | | |
| YGX | 42 | 10.07±7.68 | 0.892 | 0.375 |
| AGX | 52 | 11.84±10.89 | | |
| Birlik | | | | |
| YGX | 42 | 13.45±4.79 | 0.329 | 0.743 |
| AGX | 52 | 13.11±5.05 | | |
| Hisslərini ifadə | | | | |
| YGX | 42 | 2.90±1.32 | 2.128 | 0.036 |
| AGX | 52 | 3.76±2.34 | | |
| Məmnunluq | | | | |
| YGX | 42 | 25.30±5.55 | 0.874 | 0.385 |
| AGX | 52 | 26.23±4.66 | | |
| Ümumi bal | | | | |
| YGX | 42 | 51.73±9.31 | 1.341 | 0.183 |
| AGX | 52 | 54.96±13.13 | | |

Depressiya və bədən təsəvvürünün tədqiqi

Azərbaycanda yaşayan ginekoloji problemləri olan qadınlarda depressiya və öz bədəninə münasibəti də qiymətləndirdik. Tədqiqat nəticəsində ağır ginekoloji problemləri olan qadınlarda (X±SS=10.38±6.57, t=2,783, p=0,007), yüngül ginekoloji problemləri olan qadınlarda isə (14.85±8.99, t=2,783, p=0,007) nəticəsi alınmışdır. Tədqiqat zamanı statistik dürüstlük ödənilir (P<0,05).

*Cədvəl 7*

Bekin Depressiya Reytinq cədvəli

| BDS | N | X±SS | t | p |
|---|---|---|---|---|
| Əlavə qrup | 42 | 14.85±8.99 | 2.783 | 0.007 |
| Əsas qrup | 52 | 10.38±6.57 | | |

Bədən təsəvvürü şkalasının nəticələrinə görə əsas qrupda X±SS=87.28±18.55, əlavə qrupda isə X±SS=85.36±21.61, t=0.456, p=0.650 nəticələr alınmışdır.

*Cədvəl 8*

Bədən Təsəvvürü Cədvəli (BİS)

| BİS | N | X±SS | t | p |
|---|---|---|---|---|
| Əsas qrup | 42 | 87.28±18.55 | 0.456 | 0.650 |
| Əlavə qrup | 52 | 85.36±21.61 | | |

Tədqiqatda araşdırılan cədvəllər arasında asılılıqlar müəyyən edilmişdir. İlk öncə sosio-demoqrafik göstəricilərlə digər cədvəllər arasında asılılığı müəyyən etməyə çalışdıq. Hesablamalarda orta qiymət Kruskall Wallis testinə görə hesablanmışdır. Asılılıq reqresiya analizi vasitəsilə aparılmışdır. Tədqiqatın bu bölməsində ilk öncə tələbatlar ilə motivasiya arasında korrelyasiya müəyyən edilmişdir.

Bioloji tələbatlar ilə daxili motivasiya (R=0,281, P=0,066), müəyyən olunmuş tənzimləmə (R=0,350, P =0,065), xarici motivasiya (R=0,355 P=0,060) arasında pozitiv; motivasiya əksikliyi ilə (R= -0,307, P=0,053) neqativ korrelyasiya mövcuddur.

Təhlükəsizliyə olan tələbatla daxili motivasiya (R=0,385, P=0,053), müəyyən olunmuş tənzimləmə (R=0,375, P=0,050), xarici motivasiya (R=0,360, P=0,059) arasında pozitiv; motivasiya əksikliyi (R= -0,390, P=0,030) ilə neqativ korrelyasiya mövcuddur.

Aid olma və sevgiyə olan tələbatla daxili motivasiya (R=0,366, P=0,111), müəyyən olunmuş tənzimləmə (R= 0,342, P= 0,076), xarici motivasiya (R= 0,328, P=0,068) arasında pozitiv, motivasiya əksikliyi (R=0,313, P=0,076) ilə neqativ korrelyasiya mövcuddur.

Ehtiyacların qiymətləndirilməsi ilə daxili motivasiya (R=3,54, P=0,098), müəyyən olunmuş tənzimləmə (R=0,347, P=0,076), xarici motivasiya (R=0,329, P=0,057) arasında pozitiv, motivasiya əksikliyi (R=0,410, P=0,065) ilə neqativ korrelyasiya mövcuddur.

Koqnitiv tələbatlar ilə daxili motivasiya (R=0,370, P=0,067), müəyyən olunmuş tənzimləmə (R=0,348, P=0,050), xarici motivasiya (R=0,381, P=0,065) arasında pozitiv, motivasiya əksikliyi (R= -0,450, P=0,045) ilə neqativ korrelyasiya mövcuddur.

Estetik tələbatlar ilə daxili motivasiya (R=0,356, P=0,075), müəyyən olunmuş tənzimləmə (R=0,334, P=0,055), xarici motivasiya (R=0,385, P=0,054) arasında pozitiv, motivasiya əksikliyi (R=-0,37, P=0,050) ilə neqativ korrelyasiya mövcuddur.

Özünü aktuallaşdırmaya tələbatı ilə daxili motivasiya (R=0,305, P=0,039), müəyyən olunmuş tənzimləmə (R=0,295, P= 0,039), xarici motivasiya (R= 0,466, P=0,111) arasında pozitiv, motivasiya əksikliyi (R= -0,345, P=0,056) ilə neqativ korrelyasiya mövcuddur.

Üstünlüyə olan tələbat ilə daxili motivasiya (R=0,353, P=0,062), müəyyən olunmuş tənzimləmə (R=0,354, P=0,054), xarici motivasiya (R=0,456, P= 0,065) arasında pozitiv, motivasiya əksikliyi (R= -0,360, P=0,057) ilə neqativ korrelyasiya mövcuddur.

Depressiya ilə bioloji tələbatlar (R= -0,383, P=0,055), təhlükəsizliyə olan tələbat (R= -0,496, P=0,042), aid olma və sevgiyə olan tələbat (R=-0,576, P=0,000), ehtiyacların qiymətləndirilməsi (R= -0,555, P=0,028), koqnitiv tələbatlar (R=-0,555, P=0,033), estetik tələbatlar (R= -0,456, P=0,066), özünü aktuallaşdırmaya tələbatı (R=-0,600, P= 0,0250, üstünlüyə olan tələbat (R= -0,464, P=0,051) arasında neqativ korrelyasiya mövcuddur.

Depressiya ilə İntrinsik (daxili motivasiya) (R= -0,455, P=0,052), müəyyən olunmuş tənzimləmə (R=-0,468, P=0,053), xarici motivasiya (R= -0,444, P=0,040), motivasiya əksikliyi (R= -0,466, P=0,022) arasında neqativ korrelyasiya mövcuddur.

*Cədvəl 9*

| Korrelyasiya | İntrinsik (daxili motivasiya) | Müəyyən olunmuş tənzimləmə | Xarici motivasiya | Motivasiya əksikliyi | Depressiya |
|---|---|---|---|---|---|
| Bioloji tələbatlar | R 0,281 P 0,066 | R 0,350 P 0,065 | R 0,355 P 0,060 | R -0,307 P 0,053 | R -0,383 P 0,055 |
| Təhlükəsizliyə olan tələbat | R 0,385 P 0,053 | R 0,375 P 0,050 | R 0,360 P 0,059 | R -0,390 P 0,030 | R -0,496 P 0,042 |
| Aid olma və sevgiyə olan tələbat | R 0,366 P 0,111 | R 0,342 P 0,076 | R 0,328 P 0,068 | R 0,313 P 0,076 | R -0,576 P 0,000 |
| Ehtiyacların qiymətlən-dirilməsi | R 3,54 P 0,098 | R 0,347 P 0,076 | R 0,329 P 0,057 | R 0,410 P 0,065 | R -0,555 P 0,028 |
| Koqnitiv tələbatlar | R 0,370 P 0,067 | R 0,348 P 0,050 | R 0,381 P 0,065 | R -0,450 P 0,045 | R -0,555 P 0,033 |
| Estetik tələbatlar | R 0,3,56 P 0,075 | R 0,334 P 0,055 | R 0,385 P 0,054 | R -0,377 P 0,050 | R -0,456 P 0,066 |
| Özünü aktuallaş-dırma tələbatı | R 0,305 P 0,039 | R 0,295 P 0,039 | R 0,466 P 0,111 | R -0,345 P 0, 056 | R -0,600 P 0,025 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Üstünlüyə olan tələbat | R<br>0,353<br>P<br>0,062 | R<br>0,354<br>P<br>0,054 | R<br>0,456<br>P<br>0,065 | R<br>-0,360<br>P<br>0,057 | R<br>-0,464<br>P<br>0,051 |
| Depressiya | R<br>-0,455<br>P<br>0,052 | R<br>-0,468<br>P<br>0,053 | R<br>-0,444<br>P<br>0,040 | R<br>-0,466<br>P<br>0,022 | |

Sosio-demoqrafik göstəricilərlə digər cədvəllər arasında asılılığı müəyyən etmək üçün reqressiya analizi aparılmışdır. Pasiyentlərin yaşı ilə GRİSS "ünsiyyətdən qaçma" (P=0,049, R=0,204) və GRİSS "nadir ünsiyyətə daxil olma" (P=0,003, R= 0,302) göstəriciləri arasında pozitiv korrelyasiya vardır. Digər pozitiv korrelyasiya orta yaşla DAS "hisslərini ifadə" (P=0,033, R=0,220) arasında hesablanmışdır.

Cədvəllər üzrə eyni zamanda BDS (Bekin Depressiya Cədvəli) balları ilə BİS (Bədən təsəvvürü Cədvəli) balları arasında pozitiv korrelyasiya mövcuddur. (P=0,001, R=0,336).

GRİSS "həssaslığın olmaması" alt şkalası ilə DASS "razılaşma" alt başlığı arasında pozitiv (P=0,040, R=0,281), DAS "məmnunluq" alt şkalası ilə isə neqativ korrelyasiya mövcuddur (P=0,013, R= -0,257).

BİS (Bədən Təsəvvürü Cədvəli) ilə GRİSS "ünsiyyət" alt başlığı (P=0,032 R=0,221), "vaginizm" (P=0,018 R=0,221) arasında və DAS "razılaşma" ilə (P=0,036, R=0,216) total bal arasında P=0,031, R=0,223), pozitiv korrelyasiya mövcuddur.

DAS "birlik" balı ilə GRİSS "əks cinslə münasibətdən qaçma" (p= 0,017, r= -0,230), "məmnunluq hissinin olmaması" (P=0,002, R= -0,313) və "orqazm problemləri" (P=0,026 R= -0,230) arasında neqativ korrelyasiya mövcuddur.

DAS "hisslərin ifadəsi" alt cədvəli ilə GRİSS "həssaslığın olmaması" (P=0,000, R=0,398), "əks cinsdən münasibətdən qaçma" (P=0,000, R=0,378), "məmnunluq hissinin olmaması" (P=0,000, R=0,459), "ünsiyyət" (P=0,018, R=0,243), "tezlik" (P=0,000, R=0,438), orqazm problemləri (P=0,019, R=0,241) arasında pozitiv korrelyasiya mövcuddur.

DASS "razılaşma" ilə GRİSS "əks cinslə münasibətdən qaçma" (P=0,001, R=0,327) məmnunluq hissinin olmaması (P=0,001, R=0,327) ünsiyyətdən qaçma (P=0,002, R=0,313), tezlik (P=0,006, R=0,306) arasında pozitiv korrelyasiya mövcuddur.

*Cədvəl 10*

| Korrelyasiya | BDS ümumi bal | BİS ümumi bal | DAS razılaşma | DAS məmnunluq | DAS hisslərin ifadəsi | DAS birlik | DAS total |
|---|---|---|---|---|---|---|---|
| BİS Umumi bal | P 0,001 R 0,336 | | P 0,036 R 0,216 | | | | P 0,031 R 0,223 |
| GRİSS Unsiyyətdən qaçma | | P 0,032 R 0,221 | P 0,002, R 0,313 | | P 0,018, R 0,243, | | |
| GRİSS Vaginizm | | P 0,018 R 0,221 | | | | | |
| GRİSS Əks cinslə münasibətdən qaçma | | | P 0,001, R 0,327 | | P 0,000, R 0,378 | P 0,017 R -0,230 | |
| GRİSS məmnunluq hissinin olmaması | | | P 0,001, R 0,327 | | P 0,000, R 0,459 | P 0,002, R -0,313 | |
| GRİSS orqazm problemləri | | | | | P 0,019, R 0,241 | P 0,026 R -0,230 | |
| GRİSS həssaslığın olmamamsı | | | P 0,040, R 0,281 | P 0,013, R -0,257 | P 0,000, R 0,398 | | |
| GRISS tezlik | | | P 0,006, R 0,306 | | P 0,000, R 0,438 | | |

Tədqiqatın bu hissəsində ginekoloji problemləri olan qadınlarda depressiya göstəriciləri, bədən təsəvvürü ilə bağlı olan problemlər, həyat yoldaşı ilə bağlı olan problemlər və seksual münasibətlərdə məmnunluq hissi ölçülmüşdür.

Qadına hansısa ginekoloji diaqnozun qoyulması onda əks təsirə və psixoloji narahatlığa səbəb olaraq həyat keyfiyyətinə təsir edir. Cərrahi müdaxilənin istənilən növ təşkil edilməsi müxtəlif qorxulara və həyəcanlara səbəb olur. Əgər ginekoloji problem fiziki itki kimi qəbul edilirsə, depressiyanın səviyyəsi daha yüksək olur. Onlar gələcəyə olan ümidlərində ümidsiz münasibət göstərirlər. Qadın cinsiyyət orqanlarının reproduktiv fəaliyyəti, seksuallıq, doğum, analıq, qadınlar üçün böyük əhəmiyyət kəsb edir [8, s.18; 15, s. 259–267].

Cazibədarlıq fizioloji, psixoloji və sosial faktorlardan asılıdır. Müalicə prosesində stress şəxsiyyətlərarası münasibətlərdə problemlərə o cümlədən həyat yoldaşı ilə münasibətlərdə gərginliklərə səbəb olur. Cinsi məmnunluq hissi qadınlar tərəfindən təmin olunmur [3, s.8]. Adətən bu rol qadınlar üçün passivdir və kişilər üçün önəm daşıyır.

Bir çox qadınlar düşünür ki, ginekoloji problemin olması onları həyat yoldaşlarının onlara olan münasibətinə təsir edir. Bu problemlərdən sonra onlar həyat yoldaşlarının gözlərində cazibədarlıqlarını itirirlər [14, s.15 ].

Azərbaycanda keçirilən sorğu zamanı müəyyən olunmuşdur ki, orqazm problemləri, 1 il müddətində, vaginizm 1-5 il, həssaslığın olmaması 5 ildən daha çox müddətə, əks cinslə münasibətdən qaçma 1 il müddətinə, ginekoloji problemlər yaşayan qadınlarda daha yüksəkdir, məmnunluq hissinin olmaması 5 ildən daha çox müddətə, ünsiyyətdən qaçma 1 il müddətində, tezlik 1-5 il müddətində müalicə alan qadınlarda daha yüksək olmuşdur.

Tədqiqat iştirakçılarında ağır ginekoloji problemləri olan pasiyentlərdə orqazm problemləri, vaginizm, əks cinslə münasibətdən qaçma məmnunluq hissinin olmaması, ünsiyyətdən qaçma, nadir ünsiyyət üzrə daha yüksək nəticələr əldə edilmişdir.

DAS şkalası üzrə də razılıq, birlik, hisslərini ifadə, məmnunluq üzrə ağır ginekoloji problemlər zamanı daha çox bal toplamışdır.

Depressiya və bədən təsəvvürü üzrə də ağır ginekoloji problemləri olan pasiyentlər daha yüksək nəticələr toplamışdır ki, bu da onu göstərir ki, ginekoloji problemin ağırlıq dərəcəsi yüksək olduqca depressiya göstəricisi və bədən təsəvvürü haqqında mənfi fikirlər artır [12, s.7; 13, s.75].

Korrelyasiya analizi göstərdi ki, motivasiya-tələbatlar ierarxiyası və depressiya arasında da asılılıq mövcuddur. Beləki, depressiya yüksək olduqca insan həm daxili, həm də xarici motivasiyası aşağı olur, eyni zamanda tələbatlar ierarxiyası da zəif olur. Motivasiya ilə tələbatlar ierarxiyası arasında isə pozitiv korrelyasiya mövcuddur. Bir göstəricinin artması digərinin də artmasına səbəb olur. Cədvəllərin demək olar ki, bütün alt başlıqları üzrə asılılıq nəticələrinin alınması tədqiqatın əhəmiyyətliliyini vurğulayır və göstərilən problemlərin üzərində işlənilməni tələb edir.

Beləliklə, ginekoloji problemləri olan qadınlarda motivasiya-tələbatlar sisteminin səciyyəsinin araşdırılması əhəmiyyətliliyi ilə fərqlənir. Tədqiqat daxilində eyni zamanda ginekoloji problemləri olan qadınlarda cinsi-məmnunluq hissi araşdırılmış, ikili münasibətlər, depresiya və bədən təsəvvürü tədqiq edilmişdir. Tədqiqatın belə geniş müstəvidə aparılması nəticəsində maraqlı nəticələr əldə olundu. Belə ki,

1. Ginekoloji xəstəliklər qadınların əhval-ruhiyyəsinin dəyişməsi motivasiya sisteminə təsir edir. Ginekoloji xəstəliklərin ağırlıq dərəcəsindən asılı olaraq qadınlarda həm daxili, həmdə xarici motivasiya enir. Yüngül ginekoloji problemləri olan qadınlarda ağır ginekoloji problemləri olan qadınlara münasibətdə motivasiya daha yüksəkdir. Bunun əksinə olaraq, ağır ginekoloji xəstəliklər zamanı motivasiya əksikliyi daha yükək olur.
2. Ginekoloji xəstəliklər zamanı qadınlarda tələbatlar daha az ödənilir. Yüngül ginekoloji problemləri olan qadınlarda bioloji tələbatlar, təhlükəsizliyə olan tələbat, aid olma və sevgiyə olan tələbat, koqnitiv tələbat-

lar, özünü aktuallaşdırma tələbatı ağır ginekoloji problemləri olan qadınlarla müqayisədə daha yaxşı ödənilmişdir.

3.Ginekoloji xəstəliklər qadınlarda depressiyaya səbəb olur. Xəstəlik səviyyəsi ağırlaşdıqca depressiyanın ifadə səviyyəsi artır.

4.Ginekoloji xəstəliklər şəxsiyyətlərarası münasibətlərdə təsir edir və bunun nəticəsində daha çox konfliktlər yaşanılır.

5.Ginekoloji xəstəliyi olan qadınlar öz bədənlərini mənfi qavrayır və cinsi həyatdan məmnun qalmırlar.

6.Motivasiya, tələbatlar sistemi və depressiya, şəxsiyyətlərarası münasibətlər, bədəninə münasibət, cinsi məmnunluq arasında korrelyasiya mövcuddur.

**Nəticə.**

Azərbaycanda yaşayan ginekoloji problemləri olan qadınların böyük bir hissəsinin psixi sağlamlıq problemləri və bu zaman harada və necə yardımın göstərilməsi haqqında informasiyası olmur. Ginekoloji problemləri olan qadınlarla profilaktika işinin aparılması üçün psixi sağlamlıq problemləri olan zaman necə yardım göstərmək lazım olduğu araşdırılmalıdır. Bunun üçün onlarla vaxtında maarrifləndirmə işləri aparılmalıdır. Qadınlara stress menecment proqramı keçirilməli, əhval-ruhiyyənin dəyişməsi, psixi pozuntular, psixoloji problemlər, şəxsiyyətlərarası münasibətlərdə olan problemlər, cinsi problemlər vaxtında aşkar və müayinə edilməli, onların hansı xidmətlərə ehtiyacı olduğu araşdırılmalı, psixi sağlamlıq mərkəzinə müraciət etmə imkanları haqqında informasiya verilməlidir.

**Ədəbiyyat:**


1. Xəstəliklərin Beynəlxalq təsnifatı 10-cu buraxılış.

2.Şəfiyeva E. Somatik xəstəliklərin klinikasının psixoloji problemləri. Bakı, 2013, səh. 194

3.Dragisic K.G., Milad MP (2004). Sexual functioning and patient expectations of sexual functioning after hysterectomy. Am J Obstet Gynecol, 190, 1416-8.

4.Gütl P., Greimel E.R., Roth R., et al (2002). Womens sexual behaviour, body image and satisfaction with surgical outcomes after hysterectomy: a comparison of vaginal and abdominal surgery. J Psychosom Obstet Gynaecol, 23, 51-9.

5.Kantar B., Sevil U. (2004). Examination of women’s level of depression and hopelessness after hysterectomy. *Jinekoloji ve Obstetrik Dergisi*, 18, 17-24.

6.Kızıltepe A. (2006). The comparison of women with total hysterectomy to women without in the same age group regarding sexual disorders. Family Physician Thesis, Istanbul. Kim S.N., Chang S.B. (1998).

Predicting quality of life in women having hysterectomies. *Korean J. Womens Hlth Nurs,* 4, 231-44.
7. Koh H J, Kim HY (2004). Sexual satisfaction and spouse support in middle-aged women with hysterectomy. *J. Korean Society Maternal Child Hlth,* 8, 65-76.
8. Kuppermann M., Summitt R.L., Varner R.E. (2005). Sexual functioning after total compared with supracervical hysterectomy: a randomized trial. *Obstet Gynecol*, 105, 1309-18.
9. Nobre PJ, Pinto-Gouveia J (2008). Cognitive and emotional predictors of female sexual dysfunctions: preliminary findings. *J Sex Marital Therapy*, 34, 325-42.
10. Ogel K., Sağduyu A, Özmen E, et al (1999). Mental Disorders in Genaral Medicine, İstanbul \ ZASD
11. Ozkan S. (1993). Psychiatric Medicine: Consultation – Liaison Psychiatry. Preparations for Roche Inc. İstanbul.
12. Secord P.F., Jourard SM (1953). The appraisal of body-cathexis: body-cathexis and the self. *J Consult Psychol*, 17, 343-7.
13. Sertöz Ö.Ö., Mete HE, Noyan A, et al (2004). Effects of surgery type on body ımage, sexuality, self-esteem, and marital adjustment: a controlled study. *Turkish J Psychiatry*, 15, 264-75.
14. Sertöz Ö.Ö., Doganavsargil O, Elbi H (2009). Body image and self-esteem in somatizing patients. *Psychiatry Clin Neurosci*, 508-15.
15. Tutschek B., Pilu G. (2009) Virtual reality ultrasound imaging of the normal and abnormal fetal central nervous system. *Ultrasound Obstet Gynecol* ; 34: 259–267.

**UOT 159.922.7/.8**

# YENĠYETMƏLƏRĠN VALĠDEYNLƏRĠ ĠLƏ QARġILIQLI MÜNASĠBƏTĠ VƏ AĠLƏDƏ VƏZĠYYƏTĠ

**Anagül Məhəmmədnəbi qızı OSMANOVA**

*Qərbi Kaspi Universiteti*
*İctimai elmlər fakultəsi*
*anagulh5@gmail.com*

## XÜLASƏ

Məqalədə yeniyetmələr və valideynlərarası qarşılıqlı münasibətlər zəminində yeniyetmələrdə formalaşan valideyn rolu haqqında təsəvvürlər araşdırılır. Əsas diqqət yeniyetmə yaş dövrünün xarakterik xüsusiyyətlərinə, onların valideynləri ilə qarşılıqlı münasibətlərindəki çətinlik və problemlərə yetirilir. Yeniyetməlik dövrünün əsas xüsusiyyəti yetkinliyə cəhd hesab edilir. Yetkinliyə cəhd kimi valideynin himayə və nəzarətindən qaçmaq, müstəqil olmağa meyl kimi xüsusiyyətləri əsas götürülür. Yeniyetmə yetkin olmaq istəyir və eyni zamanda dərk edir ki, özünü hələ yetkin kimi sübut etməyib. Formalaşmağa başlayan dəyərlər sisteminə səbəb olan fizioloji, emosional, psixoloji, sosial faktorlar izah olunur və diqqət mərkəzində durur. Yeniyetmələrin valideynləri ilə qarşılıqlı münasibətlərindəki problemlər daima aktual olmuş və olmaqdadır.

**Açar sözlər:** yeniyetmə, valideyn, ailə, münasibətlər, ziddiyyət, yeniyetməlik dövrü, yaş eqosentrizmi, emansipasiya, yeniyetmə və valideyn münaqişələri

# ВЗАИМООТНОШЕНИЯ ПОДРОСТКОВ С РОДИТЕЛЯМИ И ИХ ПОЛОЖЕНИЕ В СЕМЬЕ

## РЕЗЮМЕ

В статье рассматривается образ родительской роли у подростков, формировавшийся в результате взаимотошений между подростками и родителями. Главное внимание уделяется характерным особенностям переходного возраста, трудностям и проблемам во взаимоотношении с родителями. Главной особенностью переходного возраста считается попытка стать взрослым. Попыткой стать взрослым считается избежание родительского покровительства и контроля, а так же желание быть самостоятельным. Подросток хочет стать взрослым, но и в то же время не может самоутвердиться. Физиологические, эмоциональные, психологические и социальные факторы, которые способствуют началу формирующим системам

ценностей, рассматриваются и сохраняются в центре обсуждения. Проблемы во взаимоотношениях родителей с подростками были и остаются актуальными.

**Ключевые слова:** подросток, родители, семья, отношения, противоречие, переходной возраст, возрастной эгоцентризм, эмансипация, разногласия между подростками и родителями

## TEENAGERS' RELATIONSHIPS WITH PARENTS AND THEIR POSITION IN THE FAMILY

## ABSTRACT

This article concerns the image of the parental role in adolescents, which is formed as a result of mutual relationships between adolescents and parents. The main point is the characteristic features of their age, difficulties and problems in their relationship with parents. The main feature of the coming age is considered as an attempt to reach maturity. An attempt to become an adult is regarded as avoiding parental protection and control, as well as the desire to be independent. The teenager wants to become an adult, but at the same time he(she) can not assert himself(herself). The physiological, emotional, psychological and social factors contributing to the formative value systems are considered and maintained at the center of discussion. Relationship problems between parents and adolescents remain relevant.

**Keywords:** teenager, parent, family, relationships, contradiction, coming of age, age-based egocentrism, emancipation, conflicts between teenagers and parents

Yeniyetməlik dövrünü bir çox müəlliflər "keçid dövrü", "çətin dövr", "dönüş dövrü" və ya "böhran dövrü" də adlandırırlar. Sözsüz ki, bu adlar çoxluğunun yaranması tamamilə təbii xarakter daşıyır: uşaq öz həyatının bir mərhələsindən digərinə, uşaqlıqdan yaşlılığa keçir.

Psixoloji ədəbiyyatlarda yaş böhranı axınına əsasən iki yol təsvir olunub. Birincisi, daha geniş yayılmış – müstəqillik böhranıdır. Höcətçilik, inadkarlıq, tərslik, hər şeyə neqativ münasibət, özbaşınalıq, mülkiyyətə qısqanclıq bu istiqamətə görə yeniyetmələrin əsas keyfiyyətləri kimi nəzərdən keçirilir. Bu tələbat yeniyetmədə onun stolunun üstündəkilərə başqalarının toxunmasına, otağa hər kəsin girməsinə razı olmamaqda, bir sözlə, onun qəlbindəkilərlə maraqlanmamaq istəyidir. İkincisi isə əksinə, həddindən artıq başqalarına qulaq asmaq, yaşlılardan, güclülərdən asılılıq, köhnə maraq və əxlaq formalarına, tənəzzülə aludə olmaq, həvəs göstərməkdir.

Ə.Ə.Əlizadəyə görə, yeniyetməlik yaş dövründə özünəməxsus "əxlaq məcəlləsi" əmələ gəlir. Bu məcəllə onların yoldaşlıq münasibətlərini tənzim etdiyindən onu "yoldaşlıq məcəlləsi" adlandırırlar [2, s. 474]. Yeniyetmənin təsəv-

vüründə yaşlı adam elə varlıqdır ki, o, müstəqil düşünür, hərəkət edir, müxtəlif nəzarət və qadağalardan azaddır. Artıq özünü uşaq hesab etməyən yeniyetmə belə arzu edir ki, ona da artıq yaşlılara olduğu kimi münasibət göstərilsin [1, s. 311].

Yeniyetməlik dövrünün ən vacib tələbatlarından biri valideyn nəzarəti və himayəsindən, qoyulmuş qanun və qaydalardan azad olmaqdır [3]. Yeniyetmə, hər şeydən əvvəl, özünü bir şəxsiyyət kimi dərk etməyə başlayır. Xüsusilə şəxsi ləyaqət hissi qabarıq təzahür edir. Artıq əvvəlki tək ona qarşı uşaq kimi yanaşma tərzinə, addımbaşı qəyyumluğa, himayədarlığa dözmür. Həddini aşan qayğıkeşlik, addımbaşı ciddi nəzarət və idarəetmə cəhdləri və yaxud məhdudiyyət yeniyetməni daha çox əzir.

Yeniyetmə və valideynin qarşılıqlı münasibətləri hər zaman böyük maraq doğurmuşdur. Yeniyetmə şəxsiyyətə çevrilmə və özünümüəyyənetmə dövrünə - həyatının ən çətin dövrünə keçir. Bu dövr yeniyetmələrin valideynləri üçün də asan deyil - ailə münasibətlərində dəyişikliklər artır.

Mühüm insanların və böyüklərlə qarşılıqlı münasibətin dəyişməsi – yeniyetməlik dövrünün ən əsas xüsusiyyətlərindən biridir. Yeniyetməlik düşüncələrinin daimi mövzusu - «Biz və böyüklər» olur. Əlbəttə ki, uşaqlarda da yaşla əlaqədar "Biz" anlayışı mövcuddur. Ancaq uşaq iki dünya (uşaq və böyük) arasında fərqliliyi və onlar arasında münasibətin qeyri - bərabərliyini sözsüz şəkildə qəbul edir. Yeniyetmə haradasa "ortada" dayanır və bu aralıq hal özünüdərketmə ilə birlikdə onun psixikasında bir çox xüsusiyyətlərini əhatə edir. Psixoloqlar hesab edirlər ki, yeniyetməlik dövrünün başlıca yeni elementi yaşlılıq hissidir. Yeniyetmə yetkin olmağa iddia edir və eyni anda bilir ki, onun iddiaları heç də hər sferada öz təsdiq və etimadını doğrulda bilməyib.

Uşağa ən böyük təsir göstərən onun ailəsidir. Uşağın həyat tərzini ailə şəraiti, məşğuliyyət növü, maddi səviyyə və valideynlərin təhsil səviyyəsi müəyyən mənada öncədən müəyyən edir. Valideyninin uşağa verdiyi tərbiyədən başqa ailədaxili mühit də öz növbəsində uşağa təsir göstərir. Bütün bu təsirlər yaş ötdükcə öz nəticəsini verməyə başlayır.

Yeniyetmələrlə ən yaxşı qarşılıqlı münasibət adətən valideynlər demokratik tərbiyə üsulu tətbiq etdikdə yaranır. Sərbəstlik, aktivlik, təşəbbüskarlıq və sosial məsuliyyət qabiliyyətlərinin inkişafına təkan verən tərbiyə üsuludur.

Avtoritar, liberal kimi tərbiyə üsulu qatı münasibətlərin yaranmasına, sonda isə münasibətlərdə pis nəticələrə gətirib çıxarır [3].

Yeniyetmə və valideynin qarşılıqlı münasibətini anlamaq üçün bu münasibətlərin funksiyaları və bu münasibətlərlə bağlı təəssüratların necə dəyişdiyini bilmək vacibdir.

Ana və ata uşağın gözündə bir neçə "keyfiyyətdə" çıxış edir:

- emosional səmimilik və dəstək mənbəyi – bunlar olmasa uşaq özünü aciz və köməksiz hiss edər;
- hökmran, ixtiyar, cəza və mükafatlara rəhbərlik edən;

- nümunəvi, müdrik və ən müsbət insani keyfiyyətlərin cəmi;
- etibarlı yaxın dost və məsləhətçi.

Bu keyfiyyətlərin nisbəti və hər birinin psixoloji önəmi yaş ötdükcə dəyişir. Yeniyetməlik – uşağın valideyndən emansipasiyası dövrüdür. Bu dövr çətin və çoxmeyarlıdır. Emansipasiya emosional (yeniyetmə öz emosional bağlılıqlarını yenidən formalaşdırır) və ya davranışla bağlı (yeniyetmə valideynlərin ciddi nəzarətinə etiraz edir) və ya normativ (valideynlərinin norma və dəyərlərini qəbul etmir) ola bilər.

Yeniyetməlik dövründə valideynlərlə ünsiyyət daha çox formal və məişət xarakteri daşıyır. Yeniyetmə öz valideyni ilə arasındakı baryeri görür və bundan problem yaşayır, lakin bu yöndə nə edəcəyini bilmir.

Yeniyetmələr öz növbələrində yaş eqosentrizminə əsasən valideynlərinə qarşı diqqətsiz olurlar. Öz daxili aləmində başı qarışan yeniyetmələr valideynlərində çox zaman neqativ keyfiyyətlərini qabardırlar. Valideynlər də böyümüş övladlarından istilik və anlayış gözləyir və övladlarının onlarda insani zəifliklərini aşkarlayacağından qorxurlar [6].

Yeniyetməlik dövrü – bütün ailə üzvlərinin sosial, şəxsi və ailəvi yetkinliyinin sınaqdan keçirildiyi bir dövrdür. Bu dövr böhran və münaqişələrlə müşayiət olunur. Bu dövrdə bütün gizli qalan fikirlər üzə çıxır. Yeniyetmələrdə baş verən əsas problem – valideynlərlə qarşılıqlı ünsiyyət problemidir. Yeniyetməlik dövründə fərd uşaqlıqdan, qarşılıqlı etibar, hörmət və daim artan bərabərliyə əsaslanan münasibətlərə keçid alır. Əksər ailələrdə bu proses çətin davam edir və ədəbsiz davranış kimi qiymətləndirilir.

Valideynlərdən ayrılma və qarşı durma ailədə gözlənilməz bir hal yaradır. Yeniyetmə kobud və sərt ola bilər, eləcə də valideyn və digər böyükləri tənqid edə bilər. Əvvəl yaxınlar uşaqda bir çox şeyə fikir vermir və özlərini nüfuzlu və qüsursuz olduğunu düşünürdülər ancaq indi isə özlərini nüfuzdan düşmüş hiss edirlər. Bu ona görə baş verir ki, yeniyetmənin gözündə valideynlər hələ də emosional səmimiyyət mənbəyi olaraq qalır və bu səmimiyyət olmayanda onlar özlərini komfortda hiss etmirlər. Valideynlər həm cəza və mükafatı tətbiq edən, həm özündə nümunəvi və ən yüksək insani keyfiyyətləri birləşdirən, həm də etibarlı sirdaş olaraq qalırlar. Lakin getdikcə bu funksiyalar yerini dəyişdirir.

Hətta xoşbəxt ailələrdə belə yuxarı sinifdə oxuyan uşaqlarla ünsiyyətdə müəyyən çətinliklər yaranır. Çətinliyin bir səbəbi də budur ki, valideynlər yeniyetmə övladla olan ünsiyyətinin, balaca uşaqla olan ünsiyyətindən fərqlənməli olduğunu çox vaxt başa düşmürlər. Valideynlər övladlarına nəyə isə icazə vermək, nəyi qadağan etmək gərəkdiyini heç də həmişə bilmirlər. Bunlar olduqca böyük konfliktlər doğura bilər.

Vəziyyətdən asılı olaraq bütün ailələri beş qrupa bölmək olar:

1. Çox yaxın və dostluq münasibətlərin olduğu ailələr. Bu mühit ailənin bütün üzvləri üçün əlverişlidir, çünki valideynlər övladlarının həyatlarına elə təsir edirlər ki, bu yeniyetmə övladlarda aqressiya yaratmır. Belə ailələrdə vali-

deynlər müasir musiqi, dəb və s. kimi məsələlərdə övladlarının fikirlərini dinləyir və hörmətlə qarşılayırlar. Yeniyetmələr isə nisbətən daha mühüm mövzularda valideynlərin fikirlərini nəzərə alırlar. Bu cür ailələrdə yeniyetmələr əsasən mehriban, sərbəst və aktiv olur.

2. Səmimi mühitin hökm sürdüyü ailələr. Valideynlər övladlarının inkişafını müşahidə edir, onların həyatı ilə maraqlanır və mədəni imkanları daxilində övladlarına təsir göstərməyə çalışırlar. Bu ailələrdə də münaqişələr baş verir, lakin onlar açıq və tez bir zamanda həll olunur. Burada yeniyetmə valideyndən heç nə gizlətmir, etibar edir. Böyük və kiçik arasında müəyyən sərhədlər qorunur. Uşaqlar çox vaxt nəzakətli, güzəştəgedən və sözəbaxan böyüyürlər.

3. Valideynlərin uşaqların dərs və məişəti ilə kifayət qədər maraqlanıb, lakin bununla kifayətlənən böyük qrup ailələr. Bu cür yeniyetmələrin həyat üçün lazım olan hər şeyləri var: geyim, audio və video texnika və s. Bu cür ailələrdə böyüyən uşaqların özlərinin ayrı otaqları var, lakin oradakı bahalı mebel sərt qayda ilə yerləşdirilib və onun yerini dəyişmək mümkün deyil. "Otağı dağıtmaq" da həmçinin qadağandır. Valideynlər uşaqların maraqlarına məhəl qoymur, bu isə onlar arasında müəyyən sədd yaradır. Valideyn və övladlar arasında münaqişə aşkar görünür. Maddi təminat yuxarı sinif şagirdlərinin istəklərini heç də hər zaman ödəmir.

4. Yeniyetmənin izlənildiyi, ona etibar edilmədiyi və şiddət göstərildiyi ailələr. Bu ailələrdə böyüyən övlad və valideyn arasında tez - tez münaqişə baş verir. Bəzən münaqişə gizli xarakter daşıyır və dövri olaraq üzə çıxır. Bu cür ailələrin yeniyetmələrində valideynlərə qarşı ədavət, ümumilikdə böyüklərə qarşı güvənsizlik, yaşıdlar və ətrafla ünsiyyətdə çətinlik yaranır.

5. Belə ailələrdə vəziyyət daha gərgindir. Valideyn və övlad arasında münasibətlər anomal xarakter daşıyır. Abu - hava kritik və antisosialdır; valideynlərdən biri və ya hər ikisi zərərli vərdişlərdən asılılıqdan əziyyət çəkirlər. Bu cür valideynlərin göstərdiyi təsir zərərlidir; belə ailələrdəki yeniyetmələrin bir çox deviant davranışları müşahidə olunur.

Bölgüdən belə nəticə çıxarmaq olar ki, yeniyetmənin ailədəki mövqeyi bir çox hallarda ailədə hökm sürən mühitdən, abu - havadan asılıdır. Əgər yeniyetmə valideynin sevgisini hiss edirsə, zəhləsini tökməyəcək dərəcədə ona qarşı diqqətlidirsə, onda bu kritik dönəm də böyük ehtimalla problemsiz ötüşəcək. Əgər, yeniyetmə laqeydlik və lazımsızlıq hiss edirsə, onda başqa insanlara qarşı soyuqqanlı və aqressiv münasibət göstərəcək. Gərginlik o zaman yaranır ki, yeniyetmənin müstəqil olmaq istəyi ilə valideynin övladını uşaqlıqdakı kimi sözəbaxan və üzüyola, asılı görmək istəyi arasında bir ziddiyyət baş verir. Yeniyetməlik dövründə valideyn və yeniyetmə arasında yaş fərqinə görə "nəsillərin" münaqişəsi ciddiləşir [3].

Yeniyetmələr və böyüklər müasir musiqi, kino, dəb, ixtisas seçimi və eyni zamanda dost seçimində də fikir ayrılıqları yaşayırlar. Bu da təsadüfi hal deyil.

Fərqli şəraitlərdə böyümüş valideynlər yeniyetmə övladlarının qayğıları və ehtiyacları ilə məşğuldur.

Yeniyetmələr isə hesab edirlər ki, "böyüklər" – həyatın marağını itirmiş insanlardır. Valideynlərin zövqü onları qıcıqlandırır. Nəticədə ünsiyyət və hörmət itməyə başlayır. Barrikadalar qurulur və inqilabi, üsyankar addımlar atılır.

Bu dövrdə yeniyetmə və valideyn arasında münasibət daha da gərginləşir. Vəziyyətin gərginliyinə bir tərəfdən iqtisadi və valideyndən digər asılılıq formaları, digər tərəfdən də müstəqil olmaq istəyi və müstəqilliyə doğru artan tələbat səbəb yaradır. Yeniyetmə valideynlərlə münasibətdə olduqca çətin situasiyaya düşür: bir yandan o, "şəxsiyyətini formalaşdırır", digər yandan isə - yeni vəziyyəti ilə bağlı "ana – ata ilə yeni münasibətlər qurur". Valideyn və övlad arasında qarşılıqlı münasibətdə bu ziddiyyət məhz yeniyetməlik dövrü üçün xarakterikdir.

Yeniyetmə və valideyn münaqişələri bir çox amillərdən asılıdır. Birincisi, bu şərait ailənin iqtisadi vəziyyəti, ailədə hökm sürən psixoloji mühit, valideynin tərbiyə üsulu, təhsil səviyyəsi, sosial statusu və fəaliyyət növü ilə əlaqədardır. İkincisi isə oğlan və qızların həmin dövrə kimi formalaşmış fərdi xüsusiyyətləri.

Sərbəst davranış həmçinin nisbi xarakter daşıyır. Əslində yeniyetmələr tam azadlıq istəmirlər, çünki tez verilmiş tam azadlıq yeniyetmələr üçün ailədən zorla uzaqlaşdırma kimi qavranılır. Azad seçim etmə haqqına sahib olmaq, müstəqilliklərini hiss etdirmək, yetkin insanlarla mübahisə etmək və öz söz və davranışlarına görə məsuliyyət daşımaq istəyən yeniyetməyə hər zaman tam azadlıq heç də lazım olmur. Tam azadlıq verilən yeniyetmələrdə təlaş hissi yaranır, çünki bu azadlıqdan necə istifadə edəcəyini bilmirlər [7].

Bir çox hallarda yeniyetmə və valideynin maraqlarının özünəməxsus assimetrikliyi səbəbindən yeniyetmələr və valideynlər arasında ünsiyyət çətinliyi yaranır. Valideynlər övladlarının həyatlarının bütün sferaları ilə maraqlanırlar, halbuki yeniyetmələr yaş eqosentrizminin nəticəsi olaraq valideynlərin ailə həyatının kənarında duran aspektləri ilə az maraqlanırlar.

Dost və yoldaş seçimi, məktəb yığıncaqları və görüşlərdə iştirak, yeniyetmənin dərsləri, yatma vaxtı, kök salmış etiqadlar, geyim və saç düzümü seçimi, ev işlərinin zərurəti - münaqişənin ən çox rastlanıldığı səbəblərdir. Yeniyetmənin infantil davranışı, valideynə qarşı hörmətsizliyi, bacı və qardaş arasında mübahisələr, qohumlarla çətin münasibətlər, yeniyetmənin şəxsiyyət növünün valideynlərdən hər hansı biri ilə üst-üstə düşməməsi zamanı münaqişələri artırır. Lakin bu cür münaqişələrə baxmayaraq, yeniyetmələrin əksəriyyətinin ailədəki münasibətlərini səmimi, mülayim və xoş duyğular müşayiət edir [8].

İ.Y. Kulaginanın fikrincə, bir çox valideynlər övladlarının yeniyetməlik dövrünü böyük səbirsizliklə gözləyir. Bir qismində uşaqlıqdan yetkinliyə keçid hiss edilmir, digər qismində isə bu, əsl fəlakətə çevrilir. Bu yaxınlarda sakit və sözəbaxan uşaq qəfl "tikanlı", aqressiv olub hər kəslə münaqişəyə girir. Əksər

hallarda bu valideynlərdə qeyri tolerant münasibət doğurur. Valideynlərin səhvi odur ki, onlar yeniyetməni tabe etməyə çalışır, bu da yeniyetməni daha çox inadkar edir və böyüklərdən uzaqlaşdırır. Ən dəhşətlisi isə inkişafda olan insanı sındırır və onu bir "əl oyuncağına" və ya mənliyini tam şəkildə itirəcək qədər itaətkar edir [8].

Yeniyetmə sərbəstliyi əsasən böyüklərdən emansipasiya meyli, onların himayə və nəzarətindən azad olma ilə özünü biruzə verir. Valideynlərin sevgi və qayğısı, onların fikirlərini nəzərə alaraq, yeniyetmələr sərbəst olmaq və valideynləri ilə bərabər hüquqlara sahib olmaq istəyirlər. Hər iki tərəf üçün çətin olan bu dövrdə münasibətlərin necə qurulacağı ilk əvvəl ailədə formalaşmış tərbiyə üsulu və valideynlərin övladının uşaqlıqdan yaşlılığa doğru inkişafını qəbul etməsindən asılıdır. Ünsiyyətdə əsas çətinliklər və münaqişələr valideynin yeniyetmənin davranış, təhsil və dost seçiminə ciddi nəzarəti və qarışmasına görə yaranır. Yeniyetmənin inkişafı üçün ən xoşagəlməz hallar – avtoritar tərbiyə əsnasında qəddar və hərtərəfli nəzarət, həmçinin laqeyd tərbiyə əsnasında yeniyetmənin özbaşına - demək olar ki, yeniyetməyə nəzarətsiz yanaşma və nəzərə almamaq daxil edilir.

Demokratik valideynlər övladlarının davranışlarında həm sərbəstliyi, həm də disiplinliyi izləyir və balanslaşdırırlar. Belə valideynlər övladlarının həyatlarının bəzi sahələrində onlara müstəqil olmaq haqqı verir: övladının haqqlarını tapdamadan, eyni vaxtda öhdəliklərini icra etməyi tələb edirlər. Səmimi hisslər və məntiqli qayğı üzərində qurulmuş nəzarət adətən yeniyetməni çox da qıcıqlandırmır; yeniyetmə adətən "niyə bir şeyi etmək olmaz?", amma "digər şeyi etmək olar?" izahatını dərk etməyə çalışır. Bu cür münasibətlər daxilində şəxsiyyətin formalaşması rahat və münaqişəsiz baş verir.

Avtoritar valideynlər isə yeniyetmələrdən etirazsız tabeçilik tələb edir, öz qadağa və tapşırıqların səbəbini izah etməli olduğunu anlamırlar. Bu cür valideynlər övladlarının həyatında bütün sahələrinə nəzarət edir, özü də bunu çox zaman düzgün şəkildə etməyə bilərlər. Bu cür ailələrdə yeniyetmələr adətən özlərinə qapanır və valideynlərlə ünsiyyəti pozulur. Yeniyetmələrin bəziləri münaqişələrə girir, lakin avtoritar ailələrdən olan yeniyetmələr adətən ailə münasibətlərinin tərzinə uyğunlaşaraq özünəinamlarını itirərək daha az sərbəst olurlar.

Valideyn yeniyetmənin qarşısına onun doğrulda bilməyəcəyi yüksək gözləntilər qoyanda çətinliklər yaranır. Qeyri-adekvat gözləntilərə sahib valideynlərlə mənəvi yaxınlıq adətən yeniyetməlik dövründə itir. Yeniyetmə ona nəyin lazım olduğuna özü qərar vermək istəyir, etiraz edir və təbii olaraq ona yad olan tələbləri rədd edir. Buna baxmayaraq onun üzərinə yüksək mənəvi öhdəliklər qoyulursa, onda yeniyetmədə nevrotik böhran yarada bilər.

Münaqişə, valideyn yeniyetməyə eyni anda uşaq kimi davrandıqda və ondan həm uşaq kimi itaətkarlıq, həm də böyüklər kimi müstəqillik tələb edəndə baş verir. Nəticə etibarilə, bir-birinə zidd olan tərbiyə üsulu effekt vermir, əksinə ailə münasibətlərinə pis təsir göstərir. Yeniyetmə fikirlərinə, düşüncələrinə

hörmət göstərilməsini istəyir. Yeniyetməlik dövründə yaxın və şəxsi ünsiyyət olduqca böyük əhəmiyyət kəsb edir. Etibar, hörmət, anlayış və sevgi – bütün bunlar valideynlərlə münasibətdə yer almalıdır və belə davam etdikdə yeniyetməlik böhranı nisbətən rahatlıqla keçir.

Tərbiyəvi məqsədlərə çatmaqdan ötrü valideynlər müxtəlif təsir vasitələrindən istifadə edir: yeniyetməni mükafatlandırır və cəzalandırır, onun üçün düzgün nümunə, etalon olmağa çalışırlar. Məntiqli və düzgün mükafatlandırmalar sayəsində yeniyetmənin inkişafını sürətləndirmək və onu daha uğurlu şəxsiyyət kimi yetişdirmək olar. Lakin davamlı şəkildə qadağa və cəzalarla əksinə yeniyetmənin inkişafi zədələnər. Əgər cəza zərurəti yaranarsa, o zaman tərbiyəvi effektin gücləndirilməsi üçün cəzalar layiqli olmalıdır [3].

Valideyn və yeniyetmələr arasında münasibət problemləri sosial dünya şəklinin qurulması faktoru ilə yaranır və adətən ailənin yer aldığı ümumi vəziyyət ilə daha da qəlizləşir. Sosial inkişafın tempi gücləndikdə ailə adətən bu dinamik tempə çata bilmir. Bu cür şərtlərdə valideyn mövqeyi cəmiyyətin həyatı haqqında nəsillərarası norma və təsəvvürlər prosesini pozaraq tez bir şəkildə köhnəlmiş olur. Belə olan halda övladının uğur qazanmasını istəyən valideynin öz təcrübəsini ona ötürməsi kifayət etmir. Eyni zamanda sabah hansı dəyər və standartların daha aktual olacağını ehtimal etmək çox qəlizdir, özünün əməl etmədiyi və özünün həmişə qəbul edə biləcəyi dəyər və normativ modelləri uşağa ötürmək daha çətindir.

**Nəticə.**

Valideynlərə məxsus olan yeni - sosiallaşan dünya obrazının qeyri - dəqiqliyi və qeyri - müəyyənliyi təbii ki, yeniyetmədə bu dünya haqda adekvat təəssüratın formalaşmasını çətinləşdirir.

Şəxsiyyətin sosializasiyasında çox sayda institutlar iştirak edir, lakin bu prosesdə əsas yeri sözsüz ki, ailə tutur. Məhz ailədə fərdin ilkin sosializasiyası baş tutur, onun şəxsiyyət kimi formalaşmasının əsası qoyulur. Ailənin – valideynlərin sayəsində yeniyetmələrdə faydalı bacarıq və vərdişlər aşılanır. Beləliklə, yeniyetmələrin şəxsi və ictimai sahibliyə münasibəti yeniyetməlik dövründə formalaşır və möhkəmlənir.

**Ədəbiyyat:**

1. Qədirov.Ə.Ə.,Yaş psixologiyası. – Bakı, 2002, s. 386, səh 311
2. Seyidov.S.İ., Həmzəyev.M.Ə., Psixologiya. – Bakı, 2007, s. 499, s. 474
3. Кон И.С. Психология старшеклассника. - М., 1982.
4. Кулагина И.Ю., Колюцкий В.Н. Возрастная психология. - М., 2001.
5. Выготский Л.С. Проблема возраста. Собр. соч. в 6 т. М., 1984.
6. https://otherreferats.allbest.ru/psychology/00201678_0.html
7. http://sbe.balikesir.edu.tr/dergi/edergi/c19s36/10.pdf
8. http://dergipark.gov.tr/download/article-file/197970

**UOT 159.922.7/.8**

# AĠLƏDƏ ANA-UġAQ MÜNASĠBƏTLƏRĠNĠN SOSĠAL-PSĠXOLOJĠ XÜSUSĠYYƏTLƏRĠ

**Ləman Rafiq qızı NOVRUZLU**

*Qərbi Kaspi Universiteti*
*İctimai elmlər kafedrasının*
*lemannovruzlu60@gmail.com*

## XÜLASƏ

Analar və uşaqlar arasında olan əlaqəni öyrənmək hazırki mövzunun məqsədidir. Bu metod üçün 60 ana və 1-5 yaşlarında uşaqlar seçilmişdir. Bu seçilmişlərin münasibəti və anaların bağlılığı analiz üçün seçilmişlərin arasında istifadə olunan faktlar çoxmərhələli analizdir. Nəticələr göstərir ki, analar və uşaqlar arasında güclü bağlar var, bundan əlavə analiz göstərir ki, analar və uşaqlar arasındakı güclü əlaqə anaların isti münasibəti və sevincli təsiridir.

**Açar sözlər:** ailədə rol anlayışı, ata-ana-uşaq münasibətləri, uşaq bağlılığı, ana davranışı, ailədə konfliktlərin idarəsi, uğurlu ünsiyyət.

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОТНОШЕНИЙ МАТЕРИ И РЕБЕНКА В СЕМЬЕ

## РЕЗЮМЕ

Целью данного исследования было изучение взаимосвязи между привязанностью ребенка и факторами материнского поведения. 60 матерей и детей от 1-5 лет были отобраны на основе методики "Q-сортировка тенденций поведения в группе" и материнской депривации. Для анализа собранных данных были использованы прототипы и иерархический регрессионный анализ (многоступенчатый). Результаты показали, что есть значимые связи между привязанностью ребенка и факторами материнского поведения. Кроме того, анализ шкал показал, что есть значимые связи между привязанностью ребенка и чувствами тепла и радости в материнском поведении.

**Ключевые слова**: понятие семейной роли, отец-мать-ребенок отношения, привязанность ребенка, материнское поведение, управление конфликтами в семье, успешная коммуникация

# SOCIAL AND PSYCHOLOGICAL CHARACTERISTICS OF MOTHER-CHILD RELATIONS IN FAMILY


## ABSTRACT

The purpose of this research was to study the correlation between a child's secure attachment and factors of maternal behavior. Sixty mother-child clusters were randomly selected from the groups who had at least one child within the age range of 1-5. The data gathering instruments included two questionnaires: Attachment Q-Sort [AQS] and Maternal Behavior Rating Scale. Prototype and hierarchical regression analysis [stepwise] were used to analyze the collected data. Results showed that there are positive and significant relationships between secure attachment of a child and factors of maternal behavior. Also, the data from the subscales indicated that there are positive and significant relationships between the child's secure attachment with sensitivity, warmth and joy in the maternal behavior.


**Keywords:** family roles, father-mother-child relationships, child's attachment, maternal behavior, managment of conflicts in family, successful communication.

Cəmiyyətin təşəkkülü və inkişafı hər şeydən əvvəl ailədən başlayır. Ailənin bir sosial təşkilat kimi formalaşması cəmiyyətin dinamikliyini, hərtərəfli inkişafını təmin etmişdir. Ümumiyyətlə, ailənin sabitliyi, onun uzunömürlüyü ailənin hansı əsaslar üzərində qurulmasından çox asılı olur [3, s. 30]. Ailə qurmaq istəyi, ümumiyyətlə, ailə ittifaqının yaradılmasının motivasiya məsələləri həmişə cəmiyyətin diqqət mərkəzində olmuşdur. Başqa adamlarla sabit, harmonik ittifaqı necə qurmaq və bütün həyatı boyu bu ittifaqı necə qorumaq olar? Ailə münasibətləri bu şüurun həm morfoloji, həm də müasir səviyyələrini, həm fərdi, həm də kollektiv, ontogenetik, sosiogenetik və filogenetik əsaslarını daxil edən mürəkkəb fenomen, mürəkkəb psixi reallıqdır. Ailə münasibətlərinin formalaşması və gənclərin ailə ittifaqına daxil olması məsələlərinin araşdırılması tarixi çox qədimə gedib çıxır.

M.Fuko ailə münasibətlərinin formalaşmasına təsir göstərən və əhəmiyyətinə görə universal, intensivliyi və gücünə görə fərqlənən spesifik münasibətləri müəyyənləşdirir. Onun fikrincə ailə münasibətlərinin davamlılığı bir tərəfdən dimorfizmlə, digər tərəfdən nigahın ikili məqsədi – nəslin davamı və birgə mehriban ailə həyatı ilə şərtlənmişdir. Ailənin və nigahın universallığı təbiətə uyğun olaraq yaşamağı arzulayan hər bir insan varlığının borcu ilə eyni zamanda ətrafdakılar və bütövlükdə insanlıq üçün xeyirli olan həyat keçirməyə niyyətli olan fərdi fikirləri ilə bağlıdır. Matrimonial (evlənməyə aid olan) əlaqə universal qanuna malikdir. Aparılmış tədqiqatların təhlilindən çıxış edib ailə münasibətləri-

nin və gənc ailələrin sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsində aşağıdakı istiqamətləri ayırd etmək olar:

1. Evolyusionizm (təkamül) yanaşma;
2. Funksionalizm;
3. Biologizm;
4. Empirizm;
5. Sientizm;

Ailə münasibətlərinin tarixi planda tədqiqi 1861-ci ildə çapdan çıxmış "Analıq hüququ" əsərində öz əksini tapmışdır [4, s. 38].

Hər bir ailə müvəffəqiyyətli uşaqlar yetişdirmək istəyir. Bunun üçün uşaqlarını mümkün qədər yaxşı bir gələcəyə təmin etməyə çalışırlar. Onları yaxşı məktəblərdə öyrətmək istəyir. Bunun üçün ailə qurbanlarını uşaqlarının əlinə verir. Bununla birlikdə, sağlam uşaq şəxsiyyətin necə inkişaf edəcəyini öyrənəcək bir laqeyd məsələ var. Əslində həyatdakı hər şey uğurlu deyil. Əhəmiyyətli olan, uşağın olduğu dövrdən necə xilas olması və hansı şəxsiyyətin yaradılışıdır.

Uşaq ailəni əks etdirir. Ailənin şəxsiyyət quruluşu uşağın şəxsiyyətini formalaşdırır. Yəni, ailə öz ünsiyyət bacarıqlarını istifadə etmirsə, uşaq da ünsiyyət bacarıqlarını istifadə edə bilməz. Buna görə də, uşaq həm ailə, həm də sosial mühitlə münaqişə içindədir.

Beləliklə, ailə uşağı necə öyrədəcək və uşaqda necə sağlam bir şəxsiyyət yaradacaq?

Əlbəttə, hər bir valideyn uşağını ən yaxşı şəkildə böyütmək istəyir. Uşağına yaxşı niyyətlə yanaşmağa çalışır. Ancaq valideynlər yaxşı niyyətlərdən istifadə etsə də, yanlış üsullardan istifadə edə bilərlər. Burada ailənin verdiyi yaxşı bir təhsil, uşaqla sağlam ünsiyyət bacarıqlarının istifadəsinə bağlıdır. Uşaqla bu sağlam ünsiyyəti qurmaq üçün onu bilmək və onun əsas ehtiyaclarına hörmət etmək lazımdır.

Ana-uşaq münasibətlərində üç hal var:

1. Əgər uşağın ehtiyacları məhdudlaşsa, problemi var. Uşağın o ankı davranışı ana-atanın ehtiyacını qarşılamasına konkret bir şəkildə maneə yaratmadığı üçün problem ana-atanın deyil, problem uşağındır.

2. Uşağın ehtiyacları maneə törədir və onların davranışları valideynlərinin ehtiyaclarını ödəmək üçün konkret bir maneə yaratmır. Buna görə əlaqədə heç bir problem yoxdur

3. Uşağın ehtiyacları yerinə yetirilir, ancaq onun davranışı valideynlərinin ehtiyaclarını yerinə yetirməsinə mane olur. İndi problem ana atanındır.

Uşağın problemi olduqda valideynlər üçün effektiv dinləmənin ən yaxşı vaxtıdır. Əgər uşağın aktiv dinləmə ilə bağlı problemi varsa, ona problemlərini həll etməyə kömək edə bilər.

Həqiqi dinləmə və ya uyğun zaman və vəziyyəti istifadə etməməyin həddindən artıq istifadəsi funksionallığı təmin etmir. Buna görə də, əvvəlcədən bildirildiyi kimi, vaxt və şərtlər təmin edilməlidir.

Sağlam bir ailədə problemlərin həlli:

1. Dəyərlər və düşüncələr şişirtmədən irəli sürülməlidir.

2. Mövcud kontekstdə problemlərin həlli və köhnə qənaət işə daxil edilməməlidir.

3.Bəzi məsləhətlərdən istifadə edilməməlidir və davranışlar konkret şəkildə tərtib edilməlidir. İnsanlar öz duyğularını və düşüncələrini ifadə edə bilməlidirlər.

4. Mövzunun detalları və qeyri-müvafiq detallar ayrılmalıdır.

5. Problemlərin həlli üçün effektiv dinləmə istifadə edilməlidir.

6. Hakimiyyətin əvəzinə, hər iki tərəfin razılığa gələ biləcəyi bir həll yolu olmalıdır. "Mən haqlıyam, yanlış davranırsan" üslubunda davranmamalıdır.

Sağlam olmayan ailədə gizli qaydalar:

Sağlam olmayan ailənin qaydaları şüuraltıdır. O gizli və aşkar deyil. Heç kim bu qaydaları müzakirə edə bilməz. Sağlam olmayan ailəyə tətbiq olunan qaydalar aşağıdakılardır:

1) Nəzarət: uşaqlar öz hissləri və düşüncələrini ifadə edərkən həmişə qorxurlar. O, həmişə proqnozlaşdırmalıdır. Spontan davranış pis, bağışlanmazdır. Belə ailələrə sağlam etibar yoxdur.

2) Mükəmməllik: Hər bir işin, hər bir testdə mükəmməl olacağı gözlənilir. Mükəmməllik, öz həqiqətinin dəyərsiz olduğunu və öz düşüncə və qiymətləndirmənin əhəmiyyətsiz olduğunu göstərir. Bu mühitdə böyüyən uşağın əsas mənası ümidsizlikdir.

3) İttiham: Bu ittiham hadisələri qəbul etməyən bir nəticədir. Bu ittihamlar, hər şeyin nəzarət altında saxlanılmasının və hər şeyin mükəmməl olmalarının vacibliyini göstərir. Bu vəziyyət narahatlıq və utanc hissi yaradır.

4) Beş əsas azadlıqların inkar edilməsi: Sağlam olmayan ailədə insanların qavrayış, duyğu, düşüncə, davranış, arzu və məqsəd təbii olaraq rədd edilir. Mükəmməllik prinsipinə tabe olmaqla, siz başqalarının sizi gözlədiyiniz şəkildə qəbul etdiniz, düşündünüz, davranırsınız, arzu etdiniz və hədəf aldınız. Beləliklə, şəxs tamamilə xaricdən asılıdır, onun daxili dünyası ilə əlaqəsi pozulur, robot kimi yaşayır. Belə bir insan xoşbəxt ola bilməz.

5) Sözün qadağası: Sağlam olmayan bir ailənin uşaqları öz hisslərini və düşüncələrini ifadə etməyə icazə verilmir. Bu, uşaqlarda dəyərsizlik hisslərinə səbəb olur.

6) Narazılıq və nifrətin qorunması: Ailədən inciklik və nifrətin davam etməsi insanların bir-birlərini anlamasına və problemi həll etməyə mane olur.

7) Heç kimə güvənməmək. Sağlam olmayan ailədə yetişən hər kəs heç kimdən hörmət və əsl sevgi almadığı üçün ona kömək edə bilməyəcəyinə inanır. Kömək etmək istəyənlər "mütləq sənət düşüncəsinə sahibdir, maraq güdür"

deyə düşünür. Sağlam olmayan bir ailədə böyüyən insanlar özlərinə güvənməzlər.

Ailədaxili münasibətlərdə passiv dinləmə (sükut): digərinə danışmaq imkanı verir. O dinləyənlərə: Sənin duyğularını eşitmək istəyirəm, hisslərini qəbul edirəm, bu, probleminizdən məsul olduğunuz kimi güclü mesajlar verir.

Qəbul etmənin reaksiyası: Sükut ünsiyyətə mane olmasına baxmayaraq uşağın qəbul edilmədiyi təəssüratını verir. Ona göstərmək məcburiyyətindəyik ki, biz hamımız onun qayğısına qalırıq.

Effektiv dinləmə: Aktiv dinləmədə, demək istədiyinin gerçək mənası başa düşülməlidir. Aktiv dinləmə, uşaqların duyğularının axmasına kömək edir. Uşaqlar öz hisslərini tapmaqda kömək edir. Aktiv dinləmə uşaqlara mənfi hisslərdən qorxmamağa kömək edir və valideynlər arasında səmimi dostluq yaradır. Aktiv dinləmə üçün: uşağın dediklərini eşitmək istəməlisiniz. Bu ona görə vaxt ayırmaq deməkdir. Vaxtınız yoxdursa, uşağınıza xəbər verin. Həqiqətən, mövcud problemə kömək etmək lazımdır. Əgər yoxsa, soruşana qədər gözləyin. Hisslərindən asılı olmayaraq, duyğuların nə qədər fərqli olduğuna baxmayaraq, duyğularını həqiqətən qəbul etməlisiniz. Uşağın duyğularına tam əmin olmalı, onlarla mübarizə aparmalı və problemlərini həll etməyi bacarmalıyıq. Bütün uşaqların müəllimləri, dostları, valideynləri, qardaşları və hətta özləri ilə problemləri ola bilər. Bu problemlər onlara stres yaşamağa səbəb ola bilər. Belə problemlərin həllinə kömək edilən uşaqlar daha inamlı və daha güclü olurlar [7].

Bir sıra psixoloqlar isə göstərirlər ki, böyüklərin, xüsusilə ananın qəyyumluğundan məhrum olmuş uşaqlarda adətən qorxu və nevroz əlamətləri daha yüksək səviyyəyə çatır. Z.Freyd sübut edirdi ki, anasından təcrid olunmuş uşaqda köməksizlik, qorxu hissi yaranır və ömrü boyu bu hiss onu izləyir. A.Cersfild isə özünün «Emosiyaların inkişafı» əsərində göstərir ki, ailədən kənarda böyüyən uşaqların şəxsiyyəti tam inkişaf etmir, onların emosiyaları zəngin olmur. Yeni yetməlik yaşı dövründə onların ətraf aləmlə əlaqələri kasıb, zəif şəkildə qurulur. Onlar anaları ilə olmalı olan münasibəti ətrafdakı adamlardan birinin timsalında tapır. Bu baş vermədikdə onlar sonrakı yaş dövrlərinə, onun tələblərinə adaptasiya olunmaqda çətinlik çəkirlər. Bir çox xarici ölkə psixoloqları göstərirlər ki, uşaqda «Mən» mahiyyəti etibarilə sosialdır. Uşaq doğulduqdan sonra onun şəxsiyyəti tədricən böyüklərin təsiri altında formalaşır. Yaxın böyüklərin mövqeyi, qiymətləndirməsi uşağın «emosional mühitini», «psixoloji mühitini» formalaşdırır və bu da uşağın özünütəsdiqi, özünüinkişafının əsasını qoyur. Bu problemlə bağlı M.İ.Lisina Deyvisin tədqiqatlarına istinad edərək belə qənaətə gəlir ki, məktəbəqədər yaş dövründə uşağın ana ilə təmasda olması mühüm rol oynayır. Amerika psixoloqu D.M.Bolduin hesab edirdi ki, uşaqların yalnız idrak proseslərinin inkişafı yox, həm də emosional və mənəvi inkişafı da öyrənilməlidir. D.M.Bolduinə görə uşağın şəxsiyyətinin formalaşması təcrid olunmuş şəkildə deyil, ictimai proseslərin fonunda öyrənilməlidir. Çünki sosial

mühit yalnız xarici şərait deyil, həm də uşaq şəxsiyyətinin inkişafının daxili amilidir. Burada da ailə münasibətlərinin xüsusi rolu qeyd olunur. Bolduin göstərir ki, təlim prosesində bütün şagirdlərə eyni davranış normaları, əxlaq qaydaları və biliklər öyrədilir. Fərdi fərqlər isə yalnız bu biliklərin mənimsənilməsində deyil, həm də cəmiyyətə adaptasiya olunmaqda meydana çıxır. K.Xorni isə uşağın psixi inkişafından bəhs edərkən valideynin uşağa qarşı soyuqluğu, hədsiz qəyyumluğu, ailədə ki gərgin mühiti, ailədəki ayrıseçkiliyi, eləcə də uşağın hədsiz əzizlənməsini mənfi hal kimi dəyərləndirirdi. Xorni mühitlə uşaq arasındakı münasibəti "köklü həyəcanlanma" adlandırırdı. O, bu cür həyəcanlanmanın iki növünü ayırırdı: fizioloji və psixoloji. "Fizioloji həyəcana o, uşağın yeməyə, komforta və s. olan tələbatını aid edir. Uşaq həyatının birinci həftəsində "qorxur ki", onu vaxtında yedirtməsinlər, bələməsinlər və s. Lakin vaxt keçdikcə ana uşağı yedizdirdikcə, bələdikcə uşaqda bu qorxu ötüb keçir. Əgər uşağın bu tələbatı vaxtlı-vaxtında ödənilməsə, onda həyəcan hissi artır və nevroza çevrilir" [ 1, s. 298].

Feinman və Luis (1983) belə hesab edirlər ki, uşağın ilkin yaşlarından etibarən ananın davranış forması uşaqın ətraf dünyaya münasibət və reaksiyasına təsir edir. Bu iki tədqiqatçı 10 aylıq uşaqları öyrənərkən eksperiment zamanı uşaqların analarından istədilər ki, uşağın yanında yad adamlara qarşı üç fərqli davranış tərzi nümayiş etdirsinlər:

1. Neytral davranış tərzi.
2. Şifahi əlaqə və müsbət hərəkət.
3. Ananın uşaqla yad adam haqqında danışması və yad adamı uşağa pozitiv formada təqdim etməsi.

Aparılmış tədqiqatın nəticələri göstərir ki, uşaqlar ən çox üçüncü vəziyyətdə yad adamla dostluq münasibəti yaradırdılar. Yəni ana uşağa yad adam haqqında müsbət sözlər dedikdə uşaq yad adama da müsbət yanaşırdı. İlk iki vəziyyətdə nümayiş etdirilən dostluq münasibəti zəif olmuşdu. "Ananın davranış tərzi"nin təsiri məktəbdən əvvəlki illərdə də davam edir və uşağın öz yaşıdlarına və müəllimlərinə münasibətinin formasına təsir edir. Beləliklə nəticə almaq olur ki, uşaqların böyüklər və həmyaşıdları ilə davranış tərzini formalaşdıran əsas determinant ana-uşaq arasındakı qarşılıqlı əlaqənin keyfiyyətidir. Ananın uşaqla əlaqəsi səmimi olmadığı təqdirdə (əsasən qız uşaqlarında) uşaqlar bağça müəllimlərinə daha yaxın olmağa çalışırlar. Ana uşaqla aqressiv əlaqə yaratdıqda uşaqda öz növbəsində digər uşaqlara qarşı aqressiv olur. Evdə pozitiv və səmimi əlaqə və münasibət müşahidə edən oğlan uşaqları bağçada da öz yaşıdları ilə səmimi və dostcasına münasibət yaradırlar [ 6, s. 99].

Valideynin davranış tərzi uşağın bağlılıq obrazı haqqında təsəvvürlərinin formalaşmasına da təsir edir. Koren Karikin (2000) fikrincə "valideynin qayğı tərzi" iki əhəmiyyətli sahəyə ciddi təsir edir:

1. Uşağın ana ilə əlaqəsinin əlverişliliyi.
2. Ananın uşağını emosional olaraq başa düşməsi.

İkinci cəhət ananın dünyanı və müxtəlif problemləri uşağın baxışından və nöqteyi-nəzərindən təhlil etməsinə kömək edir. Çox maraqlıdır ki, "valideynin qayğı tərzi" nəsildən nəslə ötürülür. Əlbəttə, bu müddəanı sübut etmək üçün kifayət dərəcədə tədqiqatlar aparılmayıb və bu haqda ciddi tədqiqatın aparılmasına ehtiyac var. Burada qeyd ediləsi digər bir məsələ valideynin kobud davranışının uşaqlarda bağlılığın inkişafına mənfi təsirləridir. Demək olar ki, valideynin kobud davranışı sadəcə uşaqda bağlılığın formasına deyil, həm də bu prosesin digər mərhələlərinə mənfi təsir edir və ehtimal edilir ki, valideynin kobud davranışı gələcəkdə nevrotik şəxsiyyətin formalaşmasına səbəb olsun. Ehtimal edilir ki, valideynin uşaqla kobud davranışı "travmadan sonrakı stress" təcrübə etmiş uşaqlarda bu patoloji əlamətin daha da güclənməsinə səbəb olur. İyuler və həmkarlarının (2000) həyata keçidiyi tədqiqatın nəticələrinə əsasən valideynin kobud davranışına məruz qalan uşaqların 76 faizində inamsız bağlılığın üç tipindən (çəkingən, ambivalent və daşqın-mütəşəkkillik) biri müşahidə edilmişdir. Güvənsiz bağlanılan daşqın-qarışıq uşaqlar ya mənfi "Mən" obrazına malik olmuşdular, ya da travmadan sonrakı stress əlamətinə görə yüksək bal toplamışdılar. Müxtəlif tədqiqatlardan əldə edilən nəticələrə görə neqativ "Mən" obrazına və travmadan sonrakı stress əlamətinə malik olan uşaqlar ümumən valideynin kobud davranışına məruz qalmış uşaqlardan ibarət olublar. Qeyd etmək lazımdır ki, digərlərinə nisbətən daha çox mənfi təsəvvürə malik olan uşaqlar bu kateqoriyaya daxil edilmir. Yəni digərlərinə nisbət mənfi təsəvvürə malik olmaqla valideynin kobud davranışı və travmadan sonrakı stress əlamətinin arasında heç bir əlaqə yoxdur. True (2001) valideynin davranış tərzi və onun uşaqlara təsiri haqqın da üç fərziyyə irəli sürmüşdür: 1. Uşağın güvən bağlılığı ana ilə uşaq arasındakı əlaqənin keyfiyyəti ilə əlaqədardır. 2.Güvən bağlanılan uşaqların anaları güvənsiz bağlanılan uşaqların analarına nisbətən uşağın istək və tələbatına daha həssas olurlar. 3. Daşqın-qarışıq bağlılıq ilə ananın mənfi və kobud davranışı arasında əlaqə mövcuddur. Mövcud statistik məlumata əsasən daşqın-qarışıq şəkildə bağlanılan uşaqların anaları uşaqlarla "qorxu hissi təlqin edən" davranışa malikdirlər. Ananın belə davranışı uşaqlarda güvənsiz bağlılığın formalaşma ehtimalını 3 dəfə artırır. Ananın uşaqla "açıq" yaxud "qapalı" əlaqəyə malik olması da bağlılığa təsir göstərən amildir. Güvən bağlanılan uşaqlar (xüsusilə oğlan uşaqları) daha çox ana ilə açıq əlaqənin olmasına meyllidirlər. Lakin güvənsiz bağlanılan daşqın-qarışıq uşaqlar (həm oğlan, həm qız uşaqları) ana ilə qapalı əlaqəyə malik olurlar [5, s. 347].

Hər bir sosial qurupda olduğu kimi, ailədə də psixoloji iqlim insanların həyat fəaliyyətinin mühüm bir sahəsini təşkil edir, ailə üzvlərinin gümrahlığı və fəallığı bilavasitə ondan asılı olur. Ailənin psixoloji iqlimi ərlə arvadın, valideynlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərinin xarakteri ilə müəyyən olunur və bilavasitə onları əks etdirir. Başqa sosial qruplar kimi, ailədə də psixoloji iqlimi dixotomik ölçülərdə (elverişli-əlverişsiz, sağlam- qeyri-sağlam) səciyyələndirirlər. Qarşılıqlı hörmət, qayğı, etibar, məsuliyyət və tələb-

karlıq-əlverişli psixoloji iqlimin əlamətləridir. Bu əlamətlərdən hər hansı birinin olması və ya əks əlamətə çevrilməsi, ailədə psixoloji iqlimin pisləşməsini, tədricən əlverişsiz psixoloji iqlimin yaranmasını göstərir. "Sağlam-qeyri-sağlam" dixotomik ölçü isə ailədə bərqərar olmuş psixoloji iqlimi mənəvi cəhətdən səciyyələndirir. Psixoloji iqlim dinamik xarakterə malikdir. Ər-arvad münasibətlərində hətta ötəri narazılıq yarandıqda psixoloji iqlim bu və ya digər dərəcədə dəyişir. Ailə üçün gözlənilməz olan hər hansı bir hadisə və ya şərait onun psixoloji iqliminə öz-özlüyündə deyil, məhz ər-arvad və ya valideyn-övlad münasibətlərinə təsir edir. Ailədə psixoloji iqlimin yaradılması müxtəlif şərtlərlə bağlıdır. Sosial-psixoloji uyuşma onların içərisində xüsusi yer tutur. Hər bir sosial qrupda psixoloji iqlim şəxsiyyətlərarası münasibətlərin xarakteri ilə müəyyən olunur. Ailədə də qarşılıqlı münasibətlərin geniş şəbəkəsi yaranır. Ailə inkişaf etdikcə, ər-arvadın münasibətləri də mürəkkəbləşir. İnsanın bir şəxsiyyət kimi psixoloji xüsusiyyətləri çoxdur. Ər-arvadın bir-birinə uyuşması üçün onların hamısı eyni dərəcədə əhəmiyyətli deyildir. Müxtəlif həyati faktların təhlili göstərir ki, bu uyuşma daha çox onların ideya-mənəvi sərvətləri, maraqları, temperament tipi, xarakter əlamətləri və s. ilə bağlıdır. Bunlara müvafıq olaraq uyuşmanın aşağıdakı növlərini fərqləndirirlər: 1. Sosial-ideoloji uyuşma. 2. Psixoloji uyuşma. 3. Psixofızioloji uyuşma. Sosial-ideoloji uyuşma öz kökünü ailənin ideya sərvətlərindən alır. Ailənin ideya sərvətləri dedikdə, onun üçün əhəmiyyətli olan ideyalar-sosial, mənəvi və estetik ideyalar nəzərdə tutulur. Bu ideyalar ailənin xeyir və şər, həqiqət və yalan, gözəllik və çirkinlik, ədalət və ədalətsizlik haqqındakı təsəvvürlərini əks etdirir. Onlar ailəni həyat təcrübəsi gedişində daha da təkmilləşdirir, yeni məna kəsb edirlər. Əgər ər-arvadın həyat mövqeyi, ən mühüm həyat hadisəsi barəsində baxışları, təsəvvürləri, qiymət meyarları bir-birinə uyğun gəlirsə, ailədə münaqişə şəraiti, əsasən, yaranmır. Psixoloji uyuşmada müxtəlif xüsusiyyətlərlə özünü göstərir. Ər-arvadın rol gözləmələri, maraqları və xarakter əlamətləri onların bir-birinə psixoloji uyuşmasında xüsusilə mühüm rol oynayır.

Ailə rolları müxtəlifdir. Buraya ən azı kişi və qadın, ər və arvad, ata və ana rolları daxildir. İnsanın həyata olan tələbləri öz əksini adətən onun maraqlarında tapır. Bu vaxt insanda xarici aləmə münasibət dəyişir, o, müvafıq cisim və hadisələrə xüsusi diqqət yetirməyə başlayır. Maraqlar insanın emosional aləmi ilə birbaşa bağlıdır, insanı maraqlandıran şeylər onun üçün şəxsi məna kəsb edir. Psixofızioloji uyuşma müxtəlif amillərlə şərtlənir. Onların içərisində ərlə arvadın temperament tipi xüsusi yer tutur. Xarakter temperamentlə bağlıdır. Xarakterin zahiri ifadə formaları və adətən insanın temperamenti ilə müəyyən olunur. Xarakter həyatda qazanılır, bilavasitə tərbiyənin məhsuludur. Temperament isə irsidir, insanın sinir sisteminin müəyyən xüsusiyyətləri onun davranış və rəftarında temperament əlamətləri kimi təzahür edir. Ailədaxili münasibətlərdə 2 altsistem mövcud olur: ər-arvad münasibətləri və valideyn-övlad münasibətləri. Bu iki altsistem arasında müəyyən qarşılıqlı münasibətlər mövcud

olur. Ailədə bir neçə uşaq böyüdükdə burada yeni alt sistem yaranır. Hər bir ailə öz hayatında problemlərlə üzləşir ki, bu da ailədə konfliktlərin yaranmasına səbəb olur. Konflikt müxtəlif tərəflərin, fikirlərin, maraqların toqquşması nəticəsində yaranır. L.A.Petrovskaya konfliktlərin aşağıdaki kateqoriyasını vermişdir: strukturu, dinamikası, funksiyaları, tipologiyası. Müasir psixologiyada konfliktləri qarşısını almaqdan çox, konflikti effektiv həll etmək daha üstündür. Konfliktlərdən qaçmaq ailədə əks fikirlərin daha da dərinləşməsinə gətirib çıxarır. Konflikt konstruktiv və destruktiv ola bilər. Konflikt ailədəki münasibətləri bərkidə və ya tamamilə məhv edə bilər. Valideyn-övlad münasibətlərinin emosional tərəfi uşağın uğurlu psixi inkişafını müəyyənləşdirir, onun dinamikasına təsir edir. Valideyn-övlad münasibətlərində bir neçə münasibət növünü qeyd etmək lazımdır: Uşağın şərtsiz emosional qəbul olunması (heç nəyə baxmayaraq sevgi və bağlılıq). Şərtsiz emosional qəbul olunma valideynin uşağın şəxsiyyətinin və davranışının differensasiyasını nəzərdə tutur. Valideyn tərəfindən uşağın müəyyən hərəkətlərinə görə mənfi qiymətləndirilməsi və töhməti, uşağın şəxsiyyətinin aşağı qiymətləndirilməsinə və ya emosional mənanın inkar edilməsinə gətirib çıxarmır. Emosional münasibətin bu növü uşaq şəxsiyyətinin inkişafı üçün çox əlverişlidir, məhz bu zaman uşaq təhlükəsizliyə, sevgiyə, qayğıya olan tələbatı ödənilir. Şərti emosional qəbul edilmə (uşağın davranışı, uğurları ilə şərtlənən sevgi). Bu halda uşaq valideynin sevgisini öz nailiyyəti, düzgün davranışı, tələblərin yerinəyetirilməsi ilə qazanmış olur. Sevgi elə belə verilmir, o əmək və zəhmətlə qazanılan mükafatdır. Bu cür hallarda valideyn sevgisindən məhrum olma cəzalandırılmanın bir növü kimi çıxış edir. Valideynin bu cür münasibəti uşaqda təlaşlığın və özünə inamsızlığın yaranmasına səbəb olur. Uşağa ambivalent emosional münasibət (pozitiv və neqativ hisslərin, sevgi və düşmənçiliyin uzlaşması). İndifferent münasibət (etinasızlıq, emosional soyuqluq, məsafə saxlama, aşağı empatiya). Bu cür münasibətin əsasında valideynin infantilliyi və şəxsi yetişkənliyin olmamasıdır. Gizli emosional rədd edilmə (etinasızlıq, uşağa neqativ emosional münasibət). Uşağın açıq emosional rədd edilməsi.

Valideyn tərbiyəsini aşağıdaki növləri də ayırd edilir: avtoritet, avtoritar, liberal, indifferent. Avtoritet üslubunu uşağın müstəqilliyini dəstəkləyən, demokratik ünsiyyət üslubunu reallaşdıran valideynlər dəstəkləyir. Avtoritet üslub uşağın aşağı emosional qəbul etmə və yüksək nəzarət ilə fərqlənir. Avtoritar valideynlərin ünsiyyət üslubu - əmr və tələb etmək, tələbatlar sistemi və qadağaları dəyişilməzdir. Liberal üslubun xüsusiyyətləri - isti emosional qəbul edilmə, nəzarətin aşağı səviyyəsi. Bu üslubda tələblər və qaydalar demək olar ki, mövcud deyil, rəhbərlik səviyyəsi aşağıdır. İndifferent üslub valideynlərin tərbiyə prosesinə az diqqəti, emosional soyuqluq, uşağa qarşı uzaqlıqla, nəzarətin aşağı səviyyəsi ilə səciyyələnir. Valideynin şəxsi ləyaqəti onlara nüfuz qazandırır. Bəzən ailədə süni əsaslar üzərində qurulan nüfuzlara da rast gəlmək olur. Bunlar qısa müddətlə olur və tez dağılır. Nə valideynin nüfuzundan, nə də

uşağın itaət etməsindən bir şey qalmır. Belə süni nüfuzun bir çox növləri vardır təzyiq nüfuzu, uzaqlıq nüfuzu, lovğalıq nüfuzu, pedantizm nüfuzu, boşboğazlıq nüfuzu, məhəbbət nüfuzu, ələ alma nüfuzu və s [2, s. 107].

**Nəticə.**

Beləliklə, ailədə həqiqi valideyn nüfuzu vətəndaşlıq fəaliyyətinə, vətəndaşlıq hissinə, uşağın hayatını öyrənə bilməsinə, ona yardım göstərməsinə və tərbiyə üçün məsuliyyət daşımasma və uşaq şəxsiyyətinin formalaşmasına müsbət təkan vermiş olur.

**Ədəbiyyat:**

1. Abbasov V. İ. İslamda uşaq tərbiyəsi // Azərbaycan məktəbi jurnalı, 2001, №2, s. 46-49
2. Eminov A. Şərq ailəsinin sirrləri. Bakı: Sabah, 1992,152 s.
3. Витакер К.Полночные размышления семейного терапевта. М., 1999, 189с.
4. СПБ-2001. с. 656
5. Etzion-carasso. A; oppenheim.D. (2000). Open mother-preschooler communication: relations with earlysecure attachment. Attach-Hum-Dev. Dec. 2[3]: 347-70. 11
6. Petrie-Allison. & Davidson, lain. F. W. K. (1995). Toward agroun ded theory of parent preschool involvement. Early child Development and care, vol. I I 1: 5-17. 22
7. http://www.mutluaile.org/aile-ici-iletisim/

**UOT 159.922.7/.8**

# YENĠYETMƏLĠK YAġ DÖVRÜNDƏ ġƏXSĠYYƏTĠN FORMALAġMASINDA AĠLƏNĠN ROLU

**Günay Kamran qızı BAĞIROVA-BABAZADƏ**

*Qərbi Kaspi Universiteti*
*İctimai və Siyasi elmlər fakültəsi*
*gunaybabazade4@gmail.com*

## XÜLASƏ

İnsan həyatının ən vacib mərhələlərindən biri olan yeniyetməlik bir çox problemlərin olduğu müddətdir. Bioloji, psixoloji dəyişmə və inkişaf nəticəsində meydana gələn problemlərə ailə, məktəb, dost əhatəsində baş verən problemlərin də əlavə olunması yeniyetməlik yaş dövrünün çətinləşməsinə şərait yaradır. Cəmiyyətdə sağlam münasibətin formalaşması və yeniyetməlik dövründə olan problemlərin aradan qalxması üçün ən birinci ailə olmaq şərti ilə cəmiyyətin dəstəyinin olması vacibdir. Bu məqalədə yeniyetməlik yaş dövrünün xüsusiyyətlərini nəzərə alaraq ailənin təsir mexanizmləri dəyərləndirilmişdir.

**Açar sözlər**: ailə, yeniyetmə, özünüqiymətləndirmə.

# THE ROLE OF THE FAMILY IN THE DEVELOPMENT OF PERSONALITY DURING THE ADOLESCENCE

## ABSTRACT

Adolescence is one of the significant periods of man's life, it is also an era when a young person may be faced with various problems. In addition to social problems encountered within family, school and friend circles, the already existing biological and psychological changes make adolescence a troublesome period. It is necessary to solve these problems with the help of families and society in a condition that will do minimum harm to the young person in order that a society of healthy relations may be formed, and adolescence problems may be limited during this period of time.

**Key words**: adolescence, family, self-assessment

# РОЛЬ СЕМЬИ В РАЗВИТИИ ЛИЧНОСТИ ВО ВРЕМЯ ПОДРОСТКОВОГО ВОЗРАСТА

## РЕЗЮМЕ

Одним из важнейших жизненных периодов человека является подростковый период. Именно в этом периоде появляются много проблем. В результате биологических, психологических изменений, а также развития личности, проблемы в контексте семьи, школы и друзей создают сложные условия в период подросткового возраста.

Для формирования здоровых отношений в обществе и преодоления проблем подросткового возраста, в первую очередь нужна поддержка семьи и окружающих людей.

В этой статье были оценены механизмы воздействия семьи с учетом особенностей подросткового возраста.

**Ключевые слова**: семья, подросток, самооценка.

Uşaqların inkişafında, şəxsiyyətinin formalaşmasında, ümumiyyətlə sağlam və xoşbəxt gələcəyində ailənin rolu danılmazdır. Çünki məhz ailə uşağın həmişə sevildiyi, güvəndiyi, kömək və dəstək yeridir. Uşaq ailə daxilində insani münasibətləri mənimsəyir və cəmiyyətin gələcək üzvü kimi formalaşır. Uşaqlıq illərində əldə etdiyi təcrübəni həyatı boyunca yadda saxlayır. Lakin bir çoxları bu qayğıdan kənar qalmaqları ilə yanaşı ailə daxilində şiddətə və zorakılığa məruz qalırlar. Ailədaxili şiddət günümüzün ən qlobal problemlərindəndir.

Ailədaxili şiddətin ən ağır fəsadları isə yetkinlik dövrünə təsadüf edir. Aqressivlik, tez hirslənmə, ani reaksiya bir çox hallarda valideynlərlə münaqişəyə səbəb olur. Depressiya, tənhalıq, dostlarla əlaqə qura bilməmək sonda cəmiyyətdən tam xaric olmasına gətirib çıxardır.Cəmiyyət həmişə çalışır ki, ailənin bünövrəsi sağlam təməl əsasında qurulsun. Həm də ailə münasibətlərin tənzimi üçün müxtəlif qanunvericilik aktlarından istifadə olunur. Bu aktlarda hər bir ailə üzvünün hüquq və vəzifələri də əks etdirilmişdir.

Ailədaxili münaqişələrin təzahür sahələrinə uşaqlar, ailə üzvləri, yaxın qohumlar və dostlar və cəmiyyət aid edilir. Hər bir normal ailə şəraitində boya-başa çatan uşaqlarda yüksək əxlaqi keyfiyyətlər, insanlara hörmətlə yanaşma, özündən kiçiklərə qayğı göstərmək və kömək etmək, yoldaşlarına qarşı rəftar və davranışlarında səmimiyyət hissinin yüksək olması təşəkkül edə bilir. Münaqişəli ailələrdə isə uşaqlarda insan münasibətlərinin mənfi hallarını nümayiş etdirirlər.

Müasir tədqiqatcıların fikrincə, yeniyetməlik yaş dövrü 3 mərhələdən ibarətdir: erkən yeniyetməlik dövrü (11-14 yaş), orta və böyük yeniyetməlik dövrü (15-dən 18 yaşa kimi) (Şerrod, Heyqreyn, Fyezman. 1993). Yeniyetməlik yaş dövrünə bu cür yanaşma həm ümumi psixoloji, sosioloji baxımdan, həm də

hüquqi baxımdan çox əhəmiyyətlidir. Yeniyetməlik dövrü mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin "uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir" müddəası çox böyük əhəmiyyət kəsb edir. A.N.Leontyevin yazdığı kimi, "psixi inkişafın müxtəlif mərhələsində onu əhatə edən insani münasibətlər aləmində uşağın əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişdirməyə səy göstərir. Uşağın həyat tərzi ilə, artıq onun bu həyat tərzini qabaqlamış imkanları arasında açıq ziddiyyət meydana çıxmağa başlayır. Buna müvafiq olaraq onun fəaliyyəti də yenidən qurulur. Bununla da onun psixi həyatının inkişafının yeni mərhələsinə keçid başa çatır".

Kiçik məktəblidən fərqli olaraq yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqda, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Nəticədə yeniyetmə özü üçün öz "mən"ini bir növ kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və sonrakı inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılara münasibətinə öz təsirini göstərir. Yeniyetmənin mənlik şüurunun formalaşması onun öz davranışını, mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır.

Yeniyetmənin tələbləri onun həyat təcrübəsi və ixtiyarında olan müstəqillik imkanları ilə müqayisədə xeyli irəli qaçır, yeniyetmə həyat tərzini heç də öz imkanlarına müvafiq deyil, onlardan xeyli geniş şəkildə qurmağa can atır. Buna görə də yaşlılar bir tərəfdən yeniyetmənin müstəqilliyə olan hədsiz meylini müəyyən qədər məhdudlaşdırmalı, digər tərəfdən isə onlarda yaşlılığa olan tələbatı durmadan inkişaf etdirməli, şagirdləri elə mürəkkəbləşən fəaliyyət növlərinə cəlb etməlidirlər ki, bu proses, onlarda çatışmayan müstəqillik, özünütənzimetmə və özünənəzarət vərdişlərini formalaşdıra bilsin.

Antropoloq R.Benedikt uşaqlıqdan yaşlılığa keçidin, daha doğrusu yeniyetməlik tipinə keçidin iki tipini göstərir.

1. Fasiləsiz keçid; Uşağın əvvəllər uşaqlıq dövründə öyrəndikləri ilə böyük rolunu həyata keçirmək üçün lazım olan davranış tərzləri və təsəvvürləri arasında uyğunsuzluğun, uçurumun olduğu keçid. Birinci növ keçiddə uşaq və yaşlıya verilən tələblər qismən uyğun gəlir, bu zaman uşaq böyüklərin davranışı və tələb normalarını tədricən mənimsəyir və böyük yaşlı statusunu yerinə yetirə bilir.
2. İkinci tipli keçiddə isə uşaq və böyüklərə verilən tələblərdə müəyyən uyğunsuzluq, ayrılıq, keçilməzlik olur. R.Benedikt və M.Mid bu keçid tələblərini sənaye cəhətdən yüksək inkişaf etmiş ölkələrə, cəmiyyətə aid edir və burada uşaqlıqdan yaşlılığa keçiddə müəyyən çətinliklərin oldu-

ğunu göstərir; nəticədə uşaq formal yetkinliyə malik olsa da o, yaşlı statusunu yerinə yetirə bilmir.

Yeniyetməlik yaş dövrünün bir sıra cəhətlərini başqalarından fərqli şəkildə izah edən nəzəriyyələrdən biri də sosial psixoanalizdir. Onun banisi Erik Eriksondur. Onun fikrincə, yeniyetmənin başlıca cəhəti onun özünü pozitiv eyniləşdirməsidir. Bu özünü identik cinayətkar davranışda göstərə bilər.

Bu dövrdə yeniyetmələr öz müstəqilliklərini qoruyub saxlamağa çalışmaqla refleksiya əsasında mənlik şüurlarını, «mən» obrazını, «real» və «ideal mənin» əlaqəsini formalaşdırır və inkişaf etdirirlər.

Bütün bunlarla yanaşı olaraq yeniyetmələrdə özünüqiymətləndirmə və özünəmünasibətin formalaşması baş verir. Mövcud psixoloji ədəbiyyatda yeniyetmələrin özünü-qiymətləndirmələrinin aşağıdakı tipləri qeyd olunur:

1. Uşağın «özünüqiymətləndirməsi» ananın verdiyi qiymətin birbaşa təkrarı kimi özünü göstərir. Adətən uşaqlar özlərində birinci növbədə valideynlərinin onlar haqqında qeyd etdikləri kefiyyətləri görürlər. Əgər valideynlər tərəfindən neqativ surət təlqin olunur və uşaq bu nöqteyi nəzəri qəbul edirsə, onda özünün yararsızlıq, pislik hissinə üstün gəlməsinə qarşı davamlı neqativ münasibət formalaşır. Uşağın ailədən kənar sosial təmas dairəsinin məhdudluğu valideyninin güclü nüfuzu sayəsində verdiyi qiymət onun üçün yeganə daxili özünüqiymətləndirməsinə çevrilir. Bu cür özünüqiymətləndirmənin ciddi qüsuru ondan ibarətdir ki, (əgər pozitiv xarakter daşısa belə) ciddi qüsurlarla nəticələnə bilir. Bu zaman uşağın özünə qarşı stabil pozitiv münasibətini təmin edə biləcək daxili şəxsi kriteriyaların yaranmasına mane olur.

2. Ziddiyyətli komponentlərdən ibarət olan qarışıq özünüqiymətləndirmə. Bu bir tərəfdən müvəffəqiyyətli sosial qarşılıqlı təsir təcrübəsi sayəsində yeniyetmədə formalaşan özünün «mən» obrazı, ikinci tərəfdən, valideynin uşağı necə qiymətləndirməsi ilə bağlı formalaşır. Bu zaman «mən» obrazı ziddiyətli xarakter daşıyır.

3. Yeniyetmə valideynlərinin onun haqqında dediklərini xatırlayır, lakin ona başqa qiymət verir. O, tərsliyi xaraktersizlik kimi qəbul etmir. Belə ki, bu yaşda olan yeniyetmə üçün böyüklərin onu bəyənməsi vacibdir. Lakin eyni zamanda onlara qulaq asmaq öz müstəqilliyini, «mən»ini itirməsini bildirir. Həmin konflikti valideynlərin tələblərinə cavab verməyin mümkünsüzlüyü və öz «mən»ini saxlaması kimi hiss etməsi yeniyetmənin özünü «pis», lakin güclü kimi qiymətləndirməsinə gətirib çıxarır.

4. Yeniyetmə valideynlərinin fikrinə qarşı mübarizə aparır, lakin bununla belə özünü həmin sərvətlər çərçivəsində qiymətləndirir. Bu kimi hallarda yeniyetmə özünüqiymətləndirmə zamanı valideynlərinin real qiymətini deyil, ideal gözləmələrini nəzərdə tutur.

5. Yeniyetmə özünüqiymətləndirmə zamanı valideynlərinin onun haqqında neqativ fikirlərini qəbul edir, eyni zamanda bildirir ki, o elə bu cür də

olmaq istəyir. Valideynlərin tələblərinin bu cür rədd edilməsi ailədə olduqca gərgin münasibətlərin yaranmasına gətirib çıxarır.

6. Yeniyetmə valideynlərinin neqativ qiymətini görmür, hiss etmir. Gözlənilən qiymət özünüqiymətləndirmədən xeyli yüksək olur. Halbuki valideynlərin real qiyməti neqativ xarakter daşıyır. Valideynləri tərəfindən real şəkildə rədd olunduğunu qəbul etməyən yeniyetmə öz mənlik şüurunda valideyn münasibətlərini, əgər o, valideynlərinin sevimlisi olsaydı onların münasibətlərinin necə ola biləcəyi formasında dəyişdirir [2].

Rus pedaqoqu, həkim, uşaq xarakterinin tədqiqi sahəsində mütəxəssis P.F.Lesqaft uşaqlara münasibətdə valideynlərin ailədə uşağın davranışına təsir göstərən altı mövqeyini ayırmışdır.

1. Əgər valideynlər uşaqlara diqqət yetirmir, onları alçaldır, onların ehtiyaclarına etinasız yanaşır, onlarla hesablaşmır, onların təlim-tərbiyəsinə cüzi də olsa, əhəmiyyət vermirlərsə, bu cür ailələrdə uşaqlar ikiüzlü və yalançı böyüyürlər, onlarda çox vaxt yüksək olmayan intelektual səviyyə və ya əqlin inkişafdan qalması müşahidə olunur.
2. Əgər valideynlər daim uşaqlarını tərifləyir, əzizləyir, onları kamillik nümunəsi hesab edirlərsə, uşaqlar eqoist və səthi böyüyürlər. Həddsiz heyranlıq mövqeyi uşaqda son dərəcə güclü özünəəminlik, öz şəxsiyyəti haqqında yüksək fikir yaradır.
3. Sakitlik, xoşbəxtlik və harmoniyanın hökm sürdüyü, valideynlər arasında münasibətlərin həqiqi məhəbbət və ehtiram əsasında qurulduğu ailələrdə, yetkinlik yaşına çatmış uşaqlar yumşaqürəkliliyi və dərin təfəkkürü ilə seçilirlər. Onlar daim öyrənməyə, biliklərə yiyələnməyə can atırlar.
4. Valideynlər daim uşaqdan narazı qalanda, onu məzəmmət və töhmətləndirəndə, hər məsələdə təqsirkar biləndə, uşaq bu cür münasibətə cavab olaraq qaba hərəkət etməyə, itaətsizlik göstərməyə başlayır, qəlbinin dərinliyində həmişə qəzəb və inciklik yaşayır, o, əsəbi və emosional baxımdan səbatsız böyüyür.
5. Valideynlər uşağı hədsiz əzizləyir və qoruyur, hər istəyini yerinə yetirir, yaşını nəzərə almadan onunla körpə kimi rəftar edir, sərbəstliyinə əngəl törədirsə (məsələn, hətta çəkməsini sərbəst geyməyə imkan vermirlərsə), bununla da onlar onun əqli və fiziki fəallığını məhdudlaşdırırlar. Uşaqlar tənbəl, sosial baxımdan yetişməmiş, real həyatın üzünə baxmaq qabiliyyəti olmayan şəxs kimi böyüyürlər.
6. Maliyyə çətinlikləri uşaqlara münasibətdə valideynlərin mövqeyinə, məhəbbətlərinin ifadəsinə təsir göstərmirsə, uşaqlar zəhmətkeş, emosional baxımdan sakit, təvazökar böyüyürlər. Lakin aşağı həyat səviyyəsi ailə münasibətlərinə təsir göstərirsə, məhəbbət, valideyn qayğısı həmin evi tərk edirsə, uşaqlar özlərini bədbəxt, atılmış hiss edir, gələcəyə bədbin, ümidsiz və kədərlə baxırlar [3].

Uşaqların psixoloji inkişafı, mənəvi təşəkkül tapması, davranış nümunələri, sosial qaydalar, əlaqələr, prinsiplər – bütün bunlar ailə münasibətlərinin strukturuna əsaslanır. Cəmiyyətin firavanlığı, onun tərəqqisi və ya durğunluğu ata və anaların tutduqları mövqesindən, onların sözündən, əməlindən, qayğı və diqqətindən asılıdır. Görünür, valideynlərdən, xüsusən də analardan öz müqəddəs vəzifələrini reallaşdırmaq və üzərilərinə qoyulmuş həmin məsuliyyəti tam dərk etmələri tələb olunur. Törətdiyi əməldən, işlətdiyi sözdən, ünsiyyət etdiyi insandan, həll etdiyi problemdən asılı olmayaraq, öz müqəddəs vəzifələrini yadda saxlamaq onlar üçün vacibdir. Bu yola düşmüş insan səbr, mərhəmət, yenilməzliyi özünə yol tədarükü etməli, öz gücünü və biliyini durmadan artırmalıdır.

**Nəticə.**

Uşaqlıqdan böyüklüyə keçiddə bir sıra ziddiyyətli məqamlar ortaya çıxır. Bu yaş dövründə uşaqlıq özünün sonunu yaşayır və böyüklük hissi təzahür etməyə başlayır. Yetkinliyə keçid özünü müxtəlif tərəflərdən göstərir. Burada anatomik fizioloji, intellektual və mənəvi inkişafın özünəməxsus dəyişilməsi baş verir. Bütün bunlarla yanaşı, məktəblinin fəaliyyət növündə və həyat şəraitində də ciddi dəyişikliklər özünü göstərir və bu dəyişikliklər psixikanın yenidən qurulmasına və insanlara münasibətin yeni formalarının meydana çıxmasına şərait yaradır. Nəzərdən qaçırmaq olmaz ki, yeniyetməlik yaşı insanın ontogenetik inkişafının ən mürəkkəb dövrüdür. Həmin yaş dövrü bir tərəfdən keçid dövrü, yəni uşaqlıq yaşından gənclik yaşına keçidi bildirir. Bu zaman orqanizmdə bir sıra bioloji və psixofizioloji dəyişikliklər baş verir, bununla bərabər, yeniyetmənin özünüdərk və özünüqiymətləndirmə prosesi daha da intensivləşir. Həmin prosesdə bir sıra zidiyyətlər özünü biruzə verir. Belə ziddiyyətlər içərisində yeniyetmənin nisbətən sürətlə gedən fiziki inkişafı ilə, yəni bədən üzvlərinin qeyri-mütənasib inkişafı ilə onun özünə münasibəti və özü haqqında təsəvvürləri arasındakı uyğunsuzluq mühüm yer tutur.

**Ədəbiyyat:**

1. Qədirov Ə.Ə. Yaş psixologiyası, Bakı, 2003.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
3. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, 2005.
4. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası. Bakı, 1986.
5. Bayramov Ə.S. Gənclərin özünütərbiyəsi haqqında. Bakı, 1961.
6. Şəfiyev Ü. Konfliktologiya: siyasi-sosioloji təhsil. Bakı, 2002.

**UOT 159.9**

# MÜASĠR DÖVRDƏ SOSĠAL ġƏBƏKƏLƏRĠN ġƏXSĠYYƏTĠN CƏMĠYYƏTDƏ YADLAġMA PROBLEMĠNƏ TƏSĠRĠ

**Nigar Mikayıl qızı VAHABZADƏ**

*Qərbi Kaspi Universiteti*
*İctimai və Siyasi elmlər fakültəsi*
*nigar.vahab@gmail.com*

## XÜLASƏ

Yadlaşma anlayışı həyatımızın hər sahəsində müəyyən bir təsirə malikdir. Ali təhsili olmayan, küçədəki insanların belə bir çox sosial problemdən bəhs edərkən adını tam olaraq bilməsələr belə, əslində yadlaşmadan bəhs etdiklərini müşahidə etmək olar. Xüsusilə kommunikasiya texnologiyalarının inkişafı və iqtisadi rifah səviyyəsinin yüksəldilməsi ilə ictimai həyatla əlaqəli nəsillər arası düşüncə tərzləri olduqca fərqlidir. Bu vəziyyət yadlaşma anlayışı ilə bağlı dərin təhlil etməyi olduqca önəmli bir hala gətirir. Bu məqalədə günümüzdə daha da geniş yayılan sosial şəbəkələrin şəxsiyyətin cəmiyyət arasında yadlaşması probleminə təsiri araşdırılır. Sosial şəbəkələrin zaman və məkan anlayışını sıxışdırıb çıxarması, insanların daha sosiallaşmaq istədiyi halda özünə qapanması məsələləri ön plandadır.

**Açar sözlər:** sosial şəbəkələr, internet, texnologiya, virtual mühit şəxsiyyət, cəmiyyət, yadlaşma, sosiallaşma, zaman

## ВЛИЯНИЕ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ОТЧУЖДЕНИЕ ЛИЧНОСТИ В ОБЩЕСТВЕ В СОВРЕМЕННОМ ВРЕМЕНИ

## РЕЗЮМЕ

Понятие отчуждение оказывает определенное влияние на каждый аспект нашей жизни. Даже если люди не имеющие бысшего образования и находящиеся на улице, когда говорят о социальних проблемах можно наблюдат что они на самом деле упоминают отчуждение. Поколения коммукации, особенно в связи с развитием коммуникационных техналогий и ростом экономического благосостояния, сильно отличаются друг от друга в способах мышления, связанных с поколениями в общественной жизни. Это ситуация способствует глубокому анализу отчуждениа. В данной статье рассматривается влияние социальных сетей на проблему распознавания личности в современном обществе. На преднем плане выступают такие проблемы, как сжатие понятий времени и пространство соци-

алный сетями и случаи когда люди хотят большей социализации, но в итоги уходят в себе

**Ключевые слова:** социальные сети, интернет, технология, виртуальная среда, личность, общество, отчуждение, социализация, время

## THE IMPACT OF SOCIAL NETWORKS ON THE ALIENATION OF IDENTITY IN SOCIETY IN MODERN TIMES

### ABSTRACT

Alienation has a special effect in every part of our life. When uneducated people talk about social problems, we can see that they mean alienation. The thought of the generations about social life is so different, because of development of communication technology and economic prosperity. It makes research alienation so important. In this article, the impact of social networks on the alienation of persons in society is researched. The issues on social networks eliminate the concept of time and space. People get more self-closing, when they want to be sociable.

**Keywords:** social networks, internet, technology, virtual environment, identity, society, alienation, socialization, time

Son illərdə internet milyardlarla insan arasında yayılmış və həyatımızın bütün sahələrinə daxil olmuşdur. Qısa zaman kəsiyi ərzində sosial şəbəkələr ünsiyyət mərkəzinə çevrilmişdir. Son on ildə baş verən dəyişikliklər insanların əlaqələrinə, sosiallaşma formalarına və hətta həyat tərzlərinə təsir göstərmişdir.

Müasir cəmiyyətin ortaya çıxması ilə cəmiyyətdə bəzi sosial dəyişikliklər özünü göstərir. Müasir dövr özü ilə onunla çox sürətli bir dəyişiklik gətirdi. Bu vəziyyət texnologiya baxımından ən çox görülsə də, hər sahədə müşahidə olma imkanına malikdir. Müasir ictimai qurumların inkişafı və onların dünya miqyasında yayılması insanlara təhlükəsiz və xoş bir həyat yaşamağa imkan verən pre-modern sistemlərdən daha çox imkanlar yaratmışdır. Təmin etdiyi müsbət imkanlardan əlavə, müasir dövr bəzi problemlər yaradır. Marks və Dürkheym dedikləri kimi: müasir dövrün təmin etdiyi müsbət imkanlar onun mənfi xüsusiyyətlərindən üstündür [2, s. 783].

Modernləşmə ilə ortaya çıxan texnoloji yeniliklər ictimai həyatda da dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər xüsusilə iş həyatımızda, təhsildə və sosial vərdişlərimizdə də fərqlər yaradır. Ənənəvi ünsiyyətdən sosial şəbəkə ünsiyyətinə keçən cəmiyyətlər üçün tənhalaşma və şəxsiyyətin cəmiyyətdə yadlaşması problemləri qaçılmaz bir faktdır. Sosial şəbəkələr üzərindən qurulan əlaqələrin genişləndiyi vaxta, insanlar üz-üzə əlaqə qurmaq üçün kifayət qədər vaxt tapa bilmirlər. Sürətli kommunikasiya zaman və məkan qavrayışının itməsinə səbəb olmuşdur. Bu ani ünsiyyətlə yanaşı, şəxslərin davranışları da virtual davranışlar və virtual emosiyalar kimi dəyişir. Yəni, jest və mimikaların olma-

dığı bir ünsiyyət formasından bəhs edirik. Bu kontekstdə, virtual mühitdə olan ünsiyyət şəxsiyyəti yalnızlıq, tənhalıq və yadlaşma mərhələsinə sürükləyir.

İnternet texnologiyasındakı sürətli inkişaf bir çox mövcud xidmətlərin gözdən düşməsinə səbəb oldu. Bu yeni texnologiya sürətlə mənimsənilmiş və geniş yayılmışdır. 2005-ci ildən başlayaraq bu virtual dünya "YouTube" və "Facebook" kimi texnologiyalarla adında söz etdirməyə başlamışdır. Gün keçdikcə Twitter, blog kimi bir çox texnologiya insanların özlərini daha rahat və sərbəst şəkildə ifadə etmələri və fikirlərini ictimaiyyət ilə paylaşmaqlarına, bir çox yeni imkanlar təqdim edən sosial şəbəkələr halına gəlib çıxmışdır. Buna görə də sosial şəbəkə deyildikdə, bunu sadəcə Facebook və Twitter ilə məhdudlaşmaq lazım deyildir. Forumlar, konfranslar və bu sahələrdə paylaşılan sözlər, mikrobloglar bir yerdə fikirlərin və məlumatların insanların bir-birilə bölüşdüyü, informasiya mübadiləsi olan hər sahə artıq sosial şəbəkələrə daxil edilir.

Sosial şəbəkələrin dövrümüzün əvəzedilməz bir hissəsi halına gəldiyi aşkardır. Kafelər kimi sosiallaşma məkanları indi WhatsApp və Facebook kimi sosial şəbəkə kanalları ilə əvəz olunur. Burada əsas olan "hər an hər yerdə paylaşım etmək"dir. Böyük şəhərlərin bərabərində gətirdiyi vaxt problemini nəzərə alsaq, sosial şəbəkələr həyatımızın hər sahəsinə yayılmağa başladı. Vaxta qənaət edərkən, şəxslər özlərinə mənfi təsir göstərirlər. Bundan əlavə, texnoloji qurğuların ortaya çıxması ilə fiziki və zehni hərəkətlər bir-birinə ziddiyyət təşkil etməyə başlamışdır [3]. Artıq ağlımızdan keçən fikirlərimizi bir barmaq hərəkəti ilə digər tərəfə ötürə bilirik. Sosial şəbəkələr insanların bir araya gəlməsində çətinliklərə səbəb olur. Beləliklə, fərd ilə başlayıb cəmiyyət içərisində yayılan "yadlaşma" problemi ortaya çıxır.

Müasir cəmiyyətin ən köklü problemlərindən biri olan "yadlaşma" problemi sosiologiya, psixologiya və sosial psixologiya kimi müxtəlif elmi sahələrdə emprik təqiqatların mövzusuna çevrilmişdir. Göründüyü kimi, yadlaşma anlayışı bir çox fərqli aspektlərdə işlənir. Bununla belə, üç əsaslı fərqli yanaşmanın araşdırılması məqsədəuyğun hesab edilir. Yadlaşma anlayışı ilk olaraq Jan Jak Russo tərəfindən istifadə edilmişdir. Bu konsepsiyanı fəlsəfə sahəsinə gətirən Hegel və Marks idi. Hegel yadlaşma konsepsiyasını izah edərkən insanın öz "mən"inə yadlaşmasından danışır. Marksa görə yadlaşmanın ən çox yaşandığı mühit isə cəmiyyət arasında yadlaşmadır [3]. Fərd bu cəmiyyət arasında bir maşının hissəsi kimi daima sürətli şəkildə nəsə istehsal edir və istehsal etdikcə öz istehsal etdiyinə və cəmiyyətə qarşı yadlaşmağa başlayır.

Özümüzü yeniləmək məcburiyyətində hiss etməyimiz, özümüzə daha çox qapanmağa səbəb olur, köhnə halımızı silmək, dağıtmaq, düzəltmək bütün bu proseslər çətindir. Öz keçmişimizi yıxmaq özümüzlə münaqişəyə gətirib çıxarır. Hər insan yeni mühitə, dəyişikliklərə eyni reaksiya verə bilib uyğunlaşa bilmir. Reaksiya əksikliyi cəmiyyətdən, dəyişikliklərdən geri qalmağa gətirib çıxarır. Beləliklə insan bütün hər şeyi inkar etməyə başlayıb, öz qabığına çəkilir.

Tənhalıq indiki zamanda olduqca önəmli və ümumbəşəri problem olaraq qalır. Elə bu səbəbdən də təsadüfi deyil ki, son zamanlarda bu problem insanlar tərəfindən daha çox diqqət cəlb edir. Belə ki, aparılan müxtəlif psixoloji tədqiqatların nəticələri onu göstərir ki, tənhalıq şəraiti insanlar arasında geniş yayılmış və bu vəziyyətin yaranmasının həm şəxsin özünə həm də ətrafdakılarına ciddi təsiri mövcuddur.Yəni cəmiyyət içində cəmiyyət üzvünün yadlaşması, kəkin tənhalıq hissinə düçar olması həm fərdin özü, həm də o cəmiyyət üçün acınacaqlı nəticələrə gətirib çıxarır [4].

Zaman və məkan qavrayışının yox olması ilə birlikdə insanlar coğrafi maneələri aşaraq qlobal ünsiyyət mərhələsinə daxil olurlar. Qlobal ünsiyyət müxtəlif yerlərdə müxtəlif insanlar ilə ünsiyyət qurmaq imkanı verir. Ancaq müasir insanın üz-üzə ünsiyyətdən virtual kommunikasiyaya keçməsi ona müxtəlif problemlər yaradır. Bu problemləri cəmiyyətdə baş verən mənəvi, ruhi dəyişikliklər adlandırmaq olar ki, biz onu zaman-məkan sıxılması olaraq qeyd edə bilərik. İnsanın təbiətində ünsiyyət zəruri olan bir gerçəklikdir. Günümüzdə şəxslər, ünsiyyət təlabatlarını ənənəvi sosiallaşma formalarını tərk edərək sosial şəbəkələrdə ödəməyi üstün tuturlar. Xüsusilə eyni şəhərdə yaşayan iki insanın ünsiyyət təlabatını sosial şəbəkələr üzərindən təmin etmələri olduqca mühüm bir vəziyyətdir [6, s. 519].

Londonda tibbi – psixoloji assosiasiyanın prezidenti İrvin Stengel “Müasir cəmiyyətin tənhalığı” mövzusunda məruzə edərək qeyd edərdi: “Biz bir-birimizlə çox az-az ünsiyyətdə oluruq. İnsanlarda çox təhlükəli vərdiş əmələ gəlmişdir: onlar bir-birinə həmsöhbət kimi cansız predmetləri – radionu, televizoru, kompyuteri, qəzeti, canlılardan isə heyvanları insanlardan üstün tutur. Məruzənin ortasında professor qəfil auditoriyaya belə bir sualla müraciət edir: “Siz axırıncı dəfə nə zaman öz həyat yoldaşınızla yarım saat söhbət etmisiniz?” Məlum oldu ki, zalda olan 150 nəfərdən heç kim öz həyat yoldaşıyla axırıncı dəfə bu qədər söhbət etməmişdir” [8].

Sosial şəbəkələrin istifadəsinin artması yalnız gənclər arasında deyil, yetkin şəxslər arasında da geniş yayılmışdır. Fərdlərin sosial şəbəkələri sıx bir şəkildə istifadə etməsi insanların üz-üzə ifadə edə bilmədiklərini daha rahat şəkildə ifadə etməyə imkan verir. Bu insanın ictimai həyatdakı şəxsiyyəti ilə, virtual aləmdəki şəxsiyyəti arasındakı fərqi gözlər önünə sərir. Bir şəxsin bu tərzdə ünsiyyətə üstünlük verməsi onu "yadlaşma" mərhələsinə sürükləyir [1, s. 120].

Həmçinin sosial şəbəkələr insanlar arasında ünsiyyət qurmaq üçün bir vasitə olmaqdan uzaqlaşaraq məqsədə çevrilməyə başlayıbsa, burada təhlükə siqnallarını başlamışdır. Xüsusilə də insan ailə, dost kimi yaxın mühiti ilə vaxt keçirmək yerinə sosial şəbəkələr başında vaxt keçirtməyə yönəlibsə, burada tənhalıqdan və insanın cəmiyyətə yadlaşmasından bəhs etmək olar.

Urbanizasiya və sənayeləşmənin baş verdiyi müasir dünyada fərdiləşdirilmiş cəmiyyətlər yalnızlaşmış tənha fərdlər halına gəlmişdir. Fərdlər yalnızlıq,

tənhalıq hissindən qurtulmaq üçün digər şəxslərlə ünsiyyət qurmaq istəyirlər. Yaşadığımız rəqəmsal dünya bu ünsiyyət tələbatını ödəməyi asanlaşdırır.

Müasir həyat hər nə qədər daha çox ünsiyyət qurulduğunu göstərirsə də, cəmiyyətdə baş verən dəyişikliklər və daha çox pul qazanmaq istəyi fərdlərin bir-biriləri ilə olan harmoniya mexanizmini pozur və hətta fərdi öz maraqları ilə hərəkət etməyə məcbur edir. Bu istəklər və dəyişikliklər şəxsin "yadlaşmasına" gətirib çıxarır. Yadlaşma xüsusilə müasir dünyada tez-tez müşahidə olunan bir vəziyyətdir.

Bəs ortaya sual çıxır ki, yaxınları və qonşuları ilə üz-üzə görüşməyən, tənhalığı seçən insanlar niyə sosial şəbəkələrdə aktiv olurlar?

İnsanların sosial şəbəkələrdə daha çox vaxt keçirməyini təmin edən arqumentlər və applikasiyalar çoxaldıqca şəbəkələrin insanlar üzərində təsiri də paralel şəkildə artmağa başlayır. Əgər insan sosial şəbəkələrdə çox vaxt keçirdirsə, şişirdilmiş paylaşımlar edirsə bu insanın həyatında müəyyən şeylərin qaydasında olmadığını demək olar. Ya özü ilə, ya da ətrafı ilə problem yaşayır. Real həyatda yaxınları ilə problem yaşayıb uzaqlaşmağı üstün tutan insan bu aspektdə yaxın ətrafından qaçmaq üçün fərqli bir məkan axtarışında ola bilər. Belə olduqda virtual aləm, sosial şəbəkələr onlar üçün əsl axtardıqları məkandır. Bir şeylərdən qaçmaq və bir şeylərə sığınmaq istəyən biri üçün sosial şəbəkələr ən rahat çata biləcəkləri yerdir. Beləliklə içində olduğu bu problemləri həll etmək əvəzinə sosial şəbəkələr sığınan şəxs cəmiyyətdən uzaqlaşmağa başlayır [5].

Schroederə görə sosial şəbəkələr insanları indiki həyat tərzlərindəki maddi problemləmləri unutdurmaq ilə yanaşı, insanın sadəcə özünün təxəyyülü ilə məhdudlaşdırılmış, süni olaraq yaradılmış və insanın özünün görmək istədiyi kimi dünya vəd edərək özünə cəzb edir [6, s. 524] .

Xüsusilə uşaq və yeniyetmələrin sosial şəbəkələrə daha çox bağlı olması qlobal bir problem olaraq qarşımıza çıxır.

Sosial şəbəkələr insanlara olmaq istədikləri kimi şəxsiyyət obrazına bürünməyə imkan yaradır. Qısacası; saxta şəxsiyyət yaratmaq, ideal eqo və şəxsin öz eqosu arasındakı fərqi azaltmaq məqsədi daşıyır. Bu gün fərdlər tanınmaq üçün sosial şəbəkədəki izləyicilərin sayını artırır. Ancaq şəxsin gerçək dünyadakı şəxsiyyəti ilə və virtual dünyada olan şəxsiyyəti arasındakı fərqlilik ona böyük problemlər gətirir. Malik olduğu şəxsiyyət obrazı ilə saxta yaratdığı şəxsiyyət obrazı toqquşaraq şəxsiyyətlərarası münaqişələrə səbəb olur [2, s.785]. Bir insanın telefonda saatlarla söhbət etməsi və yazışması insanın şəxsiyyətinin yadlaşmasına gətirir.

**Nəticə.**

Nəticə olaraq, sosial şəbəkələr insanların özlərində əksik hiss etdiyi hisslərə xitab edir. İnsan hər nə qədər sosial şəbəkələr vasitəsilə yalnızlığını, tənhalığını dindirdiyini düşünsədə, telefon və kompüteri söndürdükdə yenidən təkbaşına

qalmaq reallığı ilə üzləşəcəklər. Bu reallıq yalnızlıq, tənhalıq hissini daha da dərinləşdirəcək.

**Ədəbiyyat:**

1. Ofluoğlu G.; Büyükyılmaz O. (2008). "Yabancılaşmanın Teorik Gelişimi ve Tarihsel Süreç İçinde Farklı Alanlarda Görünümleri", Kamu-İş Dergisi, cilt no: 10, sayı 1, 113-144.
2. Seeman, M. (1959, Aralık). "On the meaning of Alienation". American Sociologial Review, 24(6), 783-791.
3. Müasir şəraitdə tənhalığın sosial-psixoloji problemləri: psixologiya elm. namiz. ... dis. avtoreferatı: 19.00.05 / Cabbarova L. M.; Bakı Dövlət Universiteti. - Bakı, 2002. - 27 s.;
4. Schroeder R. (1994). "Cyberculture, cyborg post-modernism and the sociology of virtual reality Technologies", Future, 26 (5), 519-528.
5. Simkova B. & Cincera J. (2004). Internet Addiction Disorder and Chatting in the Czech Republic. Cyberpsychology & Behavior, 7 (5).
6. Acun R. (2011). "Her Dem Yeniden Doğmak: Online Sosyal Ağlar ve Kimlik", http://www.millifolklor.com/tr/sayfalar/89/08. pdf (27 Ocak 2014).
7. https://www.academia.edu/10873289/Sosyal_Medya_Ve_Yaln%C4%B1zl%C4%B1k?
8. http://www.bilisimdergisi.org.tr/bilisim-dergisi-sayilari/s180.pdf

**UOT 610.008.61 + 612.821**

# ĠMTAHAN STRESĠNĠN YENĠYETMƏLƏRĠN PSĠXOLOJĠ VƏZĠYYƏTĠNƏ TƏSĠRĠNĠN TƏDQĠQĠ

**Natəvan Yadulla qızı KƏRƏMOVA**

*Biologiya üzrə fəlsəfə doktoru*
*Qərbi-Kaspi Universiteti, müəllim*
*Azərbaycan Milli Elmlər Akademiyasında böyük elmi işçi*
*phd_karamova@mail.ru*

## XÜLASƏ

Təqdim edilən elmi tədqiqat işində imtahan dövründə 14-16 yaşlı yeniyetmələrdə yaranmış psixoloji dəyişikliklərin tədqiqinin təhlili əks olunmuşdur. Tədqiqatlarda psixoloji göstəricilər üç mərhələdə yoxlanmışdır: imtahan dövründən 1-1,5 ay əvvəl adi dərs günlərindən birində, imtahandan 30 dəqiqə əvvəl və imtahandan 2 saat sonra. Psixoloji göstəricilər ilə yanaşı koqnitiv göstəricilər də tədqiq olunmuşdur. Alınmış nəticələrdə yeniyetmələrdə imtahan zamanı həyəcan səviyyəsinin yüksəlməsi, yaddaş göstəricilərinin normaya nisbətən zəifləməsi və simpatik tonusun üstünlüyü müəyyənləşdirilmişdir.

**Açar sözlər:** imtahan stresi, həyəcan göstəriciləri, koqnitiv proseslər, yaddaş, diqqət, məntiq, temperament, psixofizioloji testləşdirmə.

## ВОЗДЕЙСТВИЕ ЭКЗАМЕНАЦИОННОГО ПЕРИОДА НА ПСИХОЛОГИЧЕСКОЕ СОСТОЯНИЕ ПОДРОСТКОВ

## РЕЗЮМЕ

В данной работе анализирются психофизиологические изменения, происходящие во время влияния экзаменационного стресса на школьников в возрасте 14-16 лет. Изучались психологические, когнитивные показатели. Эксперименты проводились в трех этапах: обычный учебный день (контроль); перед и после экзамена. Анализ полученных данных показал, что во время экзамена у школьников возникает психофизиологические изменения, т.е. высокий уровень показателей напряжения (тревоги), преобладание симпатического тонуса и ослабление когнитивных показателей. После экзамена отмечалась тенденция возращения этих показателей к контрольному уровню. Сравнительный анализ полученных данных показал, что экзаменационный стресс создает психоэмоциональное состояния у

школьников и это тем самым может оказать серьезное влияние на их здоровье.

**Ключевые слова:** экзаменационный стресс, тревога, когнитивные процессы, память, внимание, логика, темперамент, психофизиологическое тестирование.

## PSYCHOLOGICAL CHANGES OCCURED IN TEENS DURING EXAMINATIONS

## ABSTRACT

The attempt has been made here to study the influence of examination stress psychophysiological changes which take place in children aged 14-16 years. Children's psychological cognitive indexes were studied. The experiments were conducted on the children in three stages: in one of the usual school hours (control), and before and after the examination. The data analysis indicates that psychophysiological changes were more prominent at the high level of anxiety index, predominance of sympathetic tone, and weakness of cognitive indexes. After the examination all the above indexes were restored to their control level. The comparative analyses of the obtained data allowed us to put forward a proposal that examination stress causes psychoemotinal conditions in children. Depending on their mental development, it can exert serious influence on their health.

**Key words:** examination stress, excitement, cognitive processes, memory, attention, logic, temperament, psychophysiological testing.

Müasir dövrümüzdə psixoloji stress problemi aktual elmi istiqamətlərdən biridir. Səbəblər isə müxtəlifdir: sosial, iqtisadi, ekoloji, texniki inkişafın fasiləsiz yüksəlməsi, insan həyatının ekstremal hadisələrlə zənginliyi, bir çox əmək fəaliyyəti sahələrində iş şəraitinin və tərkibinin dəyişməsi, tədris prosesinin mürəkkəbləşməsi və informasiya yükünün artması, qida tərkibi və onun enerji dəyərinin dəyişməsi və s. Məhz bu baxımdan inkişaf etməkdə olan yeniyetmə nəslin stres şəraitlərində psixofizioloji proseslərinin kompleks şəklində tədqiq olunması mühüm əhəmiyyət kəsb edir və gələcəkdə rastlaşma ehtimalı ola bilən sinir-psixi, somatik və s. xəstəliklərin yaranmasının qarşısının alınması tədbirlərinin təşkilində yardım edə bilər (1,2, 6, 10).

**Tədqiqat obyekti və metodika:** Elmi tədqiqat işləri Bakı şəhər 291 saylı "Ekologiya" liseyində təhsil alan 14-16 yaşlı 120 praktiki sağlam yeniyetmə (60 qız və 60 oğlan) üzərində aparılmışdır. Eksperimental stres modeli kimi imtahan stresi və imtahan dövründən istifadə olunub. Kompleks tədqiqatlar üç mərhələdə aparılmışdır:

1. Kontrol tədqiqatlar - imtahan prosesindən 1-1,5 ay əvvəl adi dərs günlərindən birində.
2. İmtahan prosesindən 30 dəqiqə əvvəl.
3. İmtahan prosesindən 2 saat sonra.

Tədqiqatlar zamanı bir sıra psixofizioloji testlər tətbiq olunub. Psixoloji vəziyyəti tədqiq etmək üçün:

1. Spilberger - Xanin testi (situativ və fərdi həyəcanın səviyyəsinin təyini üçün);
2. J.Teylor testi (ümumi həyəcan səviyyəsinin tədqiqi);
3. Depressiya şkalası (yetiyetmələrdə depressiv vəziyyətin qiymətləndirilməsi üçün);
4. Lyuşer testi (yeniyetmələrin emosional-xarakterik xüsusiyyətlərinin təyini üçün);
5. V.M.Rusalovun temperamentin xüsusiyyətlərinin təyini testi (yeniyetmələrdə temperamentin xüsusiyyətlərinin təyini).

Koqnitiv proseslərin təyini məqsədilə yeniyetmələrə aşağıdakı testlər tətbiq olunub:

1. “Təsvirə əsasən yaddaş” testi - görmə yaddaşının səviyyəsinin təyini;
2. “Ədədə görə yaddaş” testi - yeniyetmələrdə qısa müddətli yaddaşın həcmi və dəqiqliyinin təyini üçün;
3. “Ədədlərin yerləşdirilməsi” testi - iradi diqqətin inkişaf səviyyəsinin təyini;
4. “Ədəd sırasının qanunauyğunluğu” testi - dərketmənin məntiqi aspektinin təyini;
5. Rovenin artan çətinlik testi - diqqət, məntiqi dərketmənin və qeyri-verbal intellektin səviyyəsinin təyini.

Tədqiqatlar zamanı alınmış nəticələrin statistik təhlili müasir biologiya sahələrində geniş tətbiq edilən statistik-riyazi üsul və formullar əsasında aparılmışdır. Yekun riyazi hesablamalar Windows-XP personal kompüterində Exsel 7.0 statistik proqram paketinin tələbləri üzrə həyata keçirilmişdir. Alınmış nəticələr statistik üsulla təhlil olunduqdan sonra, Styudient kriteriyası ilə hesablanmış və Styudient – Fişer cədvəli üzrə nəticələrin dürüstlük dərəcəsi müəyyən edilmişdir. Tədqiq olunan göstəricilərin nəticələri diaqram və cədvəllər şəklində təqdim edilmişdir.

**AlınmıĢ nəticələr və müzakirə**: Praktiki sağlam məktəblilərdə emosional gərgnliyin psixofizioloji göstəricilərə təsirinin xüsusiyyətlərinin tədqiqinin nəticələrinin təhlili zamanı maraqlı faktlar alınmışdır. Belə ki, 14 yaşlı yeniyetmələrin temperamentinin tipinin təyini zamanı 44 % fleqmatik, 27 % saqvinik, 4% xolerik, 1% melanxolik, 24 % qarışıq temperament tipinin olduğu müəyyənləş-

dirilmişdir. Psixoloji testləşdirmənin nəticələrinə görə situativ həyəcan 30,82 ±1,02 bal, fərdi həyəcan 40,47±0,66 bal, ümumi həyəcan 25,27± 0,73 bal, depressiya göstəricisi isə 42,03± 1,23 bal olmuşdur. Lyuşer testinə əsasən 14 yaşlı məktəblilərdə həyəcan faktoru 16,67 %, aktivlik faktoru 66,67%, əmək qabiliyyəti faktoru 79,66%, vegetativ tonus göstəricisi isə 0 olmuşdur. İmtahandan əvvəl aparılmış eksperimentlər zamanı emosional gərginliyin yeniyetmələrin psixoloji göstəricilərə təsirini əks etdirmişdir (cədvəl 1). Lyuşer testinə əsasən imtahandan əvvəl həyəcan faktorunun 45,83%, aktivlik faktorunun 58,33%, əmək qabiliyyəti faktorunun 79,66 %, vegetativ tonus göstəricisinin isə 2 olduğu məlum olmuşdur. İmtahandan sonra isə, müvafiq göstəricilər 20,83 %, 41,67%, 65,25 % və 0,71 olmuşdur.

Cədvəl 1. İmtahan stresinin yeniyetmələrin psixofizioloji göstəricilərinə təsiri.

| № | Yeniyetmələrin yaşı | 14 yaş | | | 15 yaş | | | 16 yaş | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Tədqiq olunan göstəricilər | a | b | c | a | b | c | a | b | c |
| 1 | Situativ həyəcan | 30,82±1,02 | 45,87±1,33 *** | 40,29±0,26 ** | 1,92±1,55 | 6,18±1,86 *** | 4,83±0,92 | 1,88±2,05 | 46,53±1,94 *** | 3,76±1,05 |
| 2 | Fərdi həyəcan | 40,47±0,66 | 45,93±0,55 *** | 43,26±1,92 | 4,78±2,04 | 6,04±1,88 | 5,29±1,04 | 6,98±2,13 | 48,94±1,86 * | 45,92±1,74 |
| 3 | Ümumi həyəcan | 25,27±0,73 | 42,82±0,75 *** | 38,34±0,79 *** | 6,78±1,73 | 5,74±0,89 *** | 4,76±1,96 ** | 9,89±1,15 | 48,33±0,94 *** | 38,69±1,24 *** |
| 4 | Depressiya göstəricisi | 42,03±1,23 | 41,57±0,96 | 40,27±1,24 | 2,44±0,77 | 4,83±1,24 | 1,36±1,09 | 4,02±0,84 | 45,49±1,33 | 44,26±1,83 |
| 5 | Qısa müddətli yaddaş | 7,25 ±0,23 | 5,91±0,25 * | 5,97±1,08 | 7,55±1,28 | 5,93±0,29 * | 7,09±1,05 | 5,87±0,34 | 5,01±0,34 | 6,29±1,04 |
| 6 | Görmə yaddaşı | 9,55±0,57 | 7,03±0,54 ** | 8,22±0,19 * | 1,54±0,57 | 9,67±0,94 * | 10,23±0,77 | 10,88±0,86 | 9,28±1,02 * | 10,23±0,94 |
| 7 | İradi diqqət | 22,16±0,49 | 20,29±0,43 ** | 20,33±0,46 ** | 23,64±0,84 | 1,44±0,74 * | 2,14±0,76 | 3,38±0,67 | 21,17±0,77 * | 22,27±0,46 |

*Qeyd : a – adi dərs günü, b – imtahandan əvvəl, c – imtahandan sonra;*

** - p<0,05, ** - p<0,01, *** - p<0,001.*

15 yaşlı yeniyetmələrin temperamentinin tipinin təyini zamanı yeniyetmələrin 49% fleqmatik, 29% sanqvinik, 3% xolerik, 1 % melanxolik, 18% isə qarışıq temperament tipinə aid olmuşdur. Həyəcan göstəricilərinin tədqiqi zamanı situativ həyəcan 31,92 ±1,55 bal, fərdi həyəcan 44,78±2,04 bal, ümumi həyəcan 26,78± 1,73 bal, depressiya göstəricisi 42,44±0,77 bal olmuşdur. İmtahan dövründə həyəcan göstəricilərində müəyyən dəyişikliklər müşahidə edilmişdir (cədvəl 1). Kontrol təcrübələrdə Lyuşer testinə əsasən həyəcan faktoru 12,5%, aktivlik faktoru 75%, əmək qabiliyyəti faktoru 73,73%, vegetativ tonus göstəricisi isə 0 olmuşdur. İmtahandan əvvəl aparılmış təkrar testləşdirmədə isə, həyəcan və aktivlik faktoru 41,67%, əmək qabiliyyəti faktoru 73,31%, vegetativ tonus göstəricisi isə 1,5 olmuşdur. Lyuşer testinin imtahandan sonra aparılmış testləşdirməsinin nəticələrində həyəcan faktoru 33,33%, aktivlik faktoru 41,67%, əmək qabiliyyəti faktoru 68,22%, vegetativ tonus göstəricisi isə 0,6 olmuşdur (şəkil 1).

Praktiki sağlam 16 yaşlı yeniyetmələrdə temperament tipinin təyini zamanı alınmış nəticələr: 43% fleqmatik, 35% sanqvinik, 1% xolerik, 0% melanxolik, 21% qarışıq temperament tipi. Kontrol təcrübələrdə situativ həyəcanın 31,88±2,05 bal, fərdi həyəcanın 46,98±2,13 bal, ümumi həyəcanın 29,89±1,15 bal, depressiya göstəricisinin 44,02±0,84 bal olması məlum olmuşdur. Lyuşer testinin nəticələrinin tədqiqi zamanı həyəcan faktoru 20,83%, aktivlik faktoru 66,67%, əmək qabiliyyəti faktoru 79,24%, vegetativ tonus göstəricisi isə 0 olması aydınlaşmışdır.

Lyuşer testinə əsasən emosional gərginliyin təsiri altında həyəcan faktoru 58,33%, aktivlik faktoru 58,33%, əmək qabiliyyəti faktoru 76,27%, vegetativ tonus göstəricisi isə 2 olmuşdur. İmtahan prosesindən sonra aparılan təkrar testləşdirmə zamanı Lyuşer testinin nəticələri belə olmuşdur: həyəcan faktoru 37,05%, aktivlik faktoru 58,33%, əmək qabiliyyəti faktoru 53,33%, vegetativ tonus göstəricisi isə 2 olmuşur (şəkil 1).




*Şəkil 1. Lyuşer testinin nəticələri (faizlə). A-14 yaşlı, B-15 yaşlı, C-16 yaşlı yeniyetmələr.*

İmtahan stresinin koqnitiv proseslərə təsirini aydınlaşdırmaq məqsədilə aparılmış testləşdirmənin nəticələri imtahan dövründə əhəmiyyətli dərəcədə dəyişikliklərin yarandığını aşkar etmişdir. 14 yaşlı yeniyetmələrdə adi dərs günündə kontrol testləşdirmə zamanı qısa müddətli yaddaş göstəricisinin 7,25±0,23 bal, görmə yaddaşının 9,55±0,57 bal, iradi diqqətin 22,16±0,49 bal olması aydınlaşdırılmışdır. Dərketmənin məntiqi aspektini təyin edən test düzgün cavablara əsasən qiymətləndirilmişdir. Belə ki, kontrol təcrübələrdə bu göstərici 69,39%-ə bərabər olmuşdur. Rovenin artan çətinlik testinə əsasən isə intellektin səviyyələri müəyyən edilmişdir. Alınmış nəticələrə əsasən, I səviyyədə 1 nəfər (2,5%), II səviyyədə 2 nəfər (5%), III səviyyədə 4 nəfər (10%), IV səviyyədə 7 nəfər (17,5%), V səviyyədə 8 nəfər (20%), VI səviyyədə 13 nəfər (32,5%), VII səviyyədə 5 nəfər (12,5%) olmuşdur. 14 yaşlı yeniyetmələrdən VIII və IX səviyyələrdə heç kim qeyd olunmamışdır. İmtahandan əvvəl aparılan testləşdirmə zamanı yaddaş və diqqət göstəricilərində ciddi dəyişikliklər qeydə alınmışdır (cədvəl 1). Məntiqi təyin edən testin düzgün cavabları 48,03% olmuşdur. Roven testinin nəticələrində də dəyişikliklər qeyd olunub: II səviyyədə 2 nəfər (5%), III səviyyədə 3 nəfər (7,5%), IV səviyyədə 8 nəfər (20%), V səviyyədə 10 nəfər (25%), VI səviyyədə 15 nəfər (37,5%), VII səviyyədə 2 nəfər (5%). İmtahan prosesindən sonra, emosional gərginliyin səviyyəsinin azalması fonunda məntiq testinin nəticələri 53,96% olmuşdur. Roven testinin nəticələrində də fərqlər qeyd olunub: I səviyyədə 2 nəfər (5%), II səviyyədə 2 nəfər (5%), III səviyyədə 5 nəfər (12,5%), IV səviyyədə 10 nəfər (25%), V səviyyədə 10 nəfər (25%), VI səviyyədə 11 nəfər (27,5%).

15 yaşlı yeniyetmələrdə adi dərs günündə qısa müddətli yaddaşın 7,55±1,28 bal, görmə yaddaşının 11,54±0,57 bal, iradi diqqətin 23,64±0,64 bala bərabər olması müşahidə edilib. Dərketmənin məntiqi aspektini təyin edən düzgün cavabları kontrol təcrübələrdə 78,14% olmuşdur. Rovenin artan çətinlik testinə əsasən intellektin səviyyələrə məxsus məktəblilərin sayı aşağıdakı kimi olmuşdur: II səviyyədə 1 nəfər (2,5%), III səviyyədə 3 nəfər (7,5%), IV səviyyədə 5 nəfər (12,5%), V səviyyədə 9 nəfər (22,5%), VI səviyyədə 14 nəfər (35%), VII səviyyədə 5 nəfər (12,5%),VIII səviyyədə 3 nəfər (7,5%) qeyd edilmişdir. 15 yaşlı yeniyetmələrin təkrar testləşdirmələri zamanı qısa müddətli yaddaşın 5,93±0,29 ($p<0,05$) bal, görmə yaddaşı 9,67±0,94 ($p<0,05$) bal, iradi diqqət 21,44±0,74 ($p<0,05$) bal, məntiq təyin edən testin düzgün cavabları 50,83% olmuşdur. Roven testinin nəticələri isə belədir: IV səviyyədə 2 nəfər (5%), V səviyyədə 10 nəfər (25%), VI səviyyədə 16 nəfər (40%), VII səviyyədə 7 nəfər (17,5%), VIII səviyyədə 5 nəfər (12,5%). İmtahandan sonra aparılan təcrübələrdə 15 yaşlı yeniyetmələrin testləşdirmələrinin nəticələrində diqqət və yaddaş göstəricilərinin normada olduğu müəyyənləşdirib. Məntiqi testin düzgün cavablarının faizlə miqdarı 50,83% olmuşdur.

16 yaşlı yeniyetmələrdə ilkin mərhələ təcrübələrdə yaddaş prosesinin testləşdirilməsi zamanı qısa müddətli yaddaşın 5,87±0,34 bal, görmə yaddaşının

10,88±0,86 bal, iradi diqqətin isə 23,38±0,67 bala bərabər olması qeyd edilmişdir. Dərketmənin məntiqi aspektini təyin edən testin düzgün cavablarının faizlə miqdarı 78,93% olmuşdur. Rovenin artan çətinlik testinə əsasən II səviyyədə 1 nəfər (2,5%), III səviyyədə 1 nəfər (2,5%), IV səviyyədə 3 nəfər (7,5%), V səviyyədə 7 nəfər (17,5%), VI səviyyədə 10 nəfər (25%), VII səviyyədə 7 nəfər (17,5%), VIII səviyyədə 5 nəfər (12,5%) olmuşdur. 15 və 16 yaşlı yeniyetmələrdən I və IX intellektual səviyyələrdə heç kim qeydə alınmamışdır. 16 yaşlı yeniyetmələrin koqnitiv göstəricilərin kontrola nisbətən azalması müşahidə edilib, məntiqi təyin edən testin düzgün cavabları azalaraq 54,36% -ə bərabər olmuşdur. Roven testinin nəticələrində də müəyyən dəyişikliklər qeyd olunub: II və III səviyyələrdə yeniyetmələr qeyd olunmamışdır, IV səviyyədə 4 nəfər (10,5%), V səviyyədə 7 nəfər (17,5%), VI səviyyədə 15 nəfər (37,5 %), VII səviyyədə 7 nəfər (17,5%), VIII səviyyədə 6 nəfər (15%). İmtahandan sonra isə Roven testinin nəticələrinə əsasən II səviyyədə 3 nəfər (7,5%), III səviyyədə 4 nəfər (10%), IV səviyyədə 6 nəfər (15%), V səviyyədə 7 nəfər (17,5%), VI səviyyədə 13 nəfər (32,5%), VII səviyyədə 5 nəfər (12,5%), VIII səviyyədə 2 nəfər (5%). 16 yaşlı yeniyetmələrdə imtahandan sonra aparılan testləşdirmədə koqnitiv göstəricilərin normativə yaxınlaşması qeyd edilib, məntiqi təyin edən testin düzgün cavabları isə 54,36% olmuşdur. İmtahandan sonra isə Roven testinin nəticələrinə görə, II səviyyədə 2 nəfər (5%), III səviyyədə 2 nəfər (5%), IV səviyyədə 6 nəfər (15%), V səviyyədə 6 nəfər (15%), VI səviyyədə 13 nəfər (32,5%), VII səviyyədə 6 nəfər (15%), VIII səviyyədə 4 nəfər (10%) qeyd olunub (şəkil 2).




*Şəkil 2. Roven testinin nəticələri (faizlə). A-14 yaşlı, B-15 yaşlı, C-16 yaşlı yeniyetmələr.*

Alınmış nəticələrin təhlili zamanı imtahan stresinin təsiri altında əhəmiyyət kəsb edən dəyişikliklərin olduğu müəyyən olunub. İlk növbədə həyəcan göstəricilərini müqayisə edərək təhlil etmək lazımdır. Belə ki, bütün yaşlar üzrə praktiki sağlam yeniyetmələrin həyəcan göstəricilərindən situativ və ümumi həyəcan göstəricisi adi dərs günündə orta səviyyədə olmuşdur. Fərdi həyəcan göstəricisi 14-15 yaşlı yeniyetmələrdə orta səviyyədə, 16 yaşlılarda isə normadan

yüksək səviyyədə olmuşdur. Alınmış nəticələr yeniyetmələrin MSS-nə heç bir qıcıqlandırıcı təsirin olmadığını təsdiq edir. İmtahandan əvvəl isə nəticələrin kəskin yüksəlməsi müşahidə edilib. Situativ həyəcan isə 14-15 yaşlı sağlam yeniyetmələrdə təxminən 45%, 16 yaşlı yeniyetmələrdə isə 49% yüksələrək, yüksək həyəcan səviyyəsinə çatmışdır. Fərdi həyəcan isə fərqli olaraq, yalnız 14 yaşlı məktəblilərdə kəskin artmışdır (14%), 15-16 yaşlılarda isə kontrol göstəricilərdən yalnız 4% yüksəlmiş və yüksək həyəcan səviyyəsinə çatmışdır. Həyəcan göstəricilərindən ümumi həyəcanın təxminən 67% yüksələrək ən yüksək səviyyəyə çatması müşahidə edilib. İmtahandan sonra aparılan təcrübələrin müqayisəli təhlili zamanı 15-16 yaşlı yeniyetmələrdə göstəricilərin kontrola daha çox yaxınlaşması müşahidə edilib, belə ki, situativ həyəcan imtahandan əvvəlki göstəricilərə nisbətən təxminən 26% enərək orta səviyyəyə çatsa da, kontrol göstəricilərdən 7,5% yüksək olmuşdur. Fərdi həyəcan isə təxminən kontrol səviyyəyə çatmışdır. Ümumi həyəcan göstəricisi də imtahandan əvvəlki göstəricilərdən 12% azalmışdır, bu isə kontrol göstəricilərdən təxminən 25% yüksək olmuş və orta yüksək həyəcan səviyyəsini xarakterizə etmişdir. 14 yaşlı yeniyetmələrdə isə fərqli nəticələr alınmışdır. Belə ki, imtahandan sonra situativ həyəcan imtahandan əvvəlki göstəricilərə nisbətən 12% azalsada, kontroldan 23% yüksək olmuşdur (orta həyəcan səviyyəsi). Fərdi həyəcan göstəricisi digər yaşların psixofizioloji göstəricilərindən fərqli olaraq, 7% kontrol göstəricidən yüksək olmuşdur. Ümumi həyəcan göstəricisi isə 52% kontrol göstəricilərdən yüksək olmuşdur. Ümumilikdə isə, imtahan stresinin azalması fonunda 14 yaşlı yeniyetmələrdə həyəcan göstəricilərinin kontrol səviyyədən kəskin fərqlənməsi, onlarda adaptasiya proseslərinin tam formalaşmaması ilə əlaqədar ola bilər. Depressiya göstəricisinin nəticələri bütün yeniyetmələrdə 50 baldan aşağı olmuşdur, bu isə depressiyanın olmadığını təsdiq edir. Eyni mənzərə imtahan dövründə də müşahidə edilib və son nəticə olaraq, yeniyetmələrin praktiki sağlam olaraq, imtahan stresinin təsirindən depressiyaya düşmədiyini təsdiq edir.

Yeniyetmələrdə koqnitiv testləşdirmənin nəticələrinin müqayisəli təhlili imtahan prosesi zamanı qısa müddətli yaddaş göstəricisinin normaya nisbətən azalmasını müəyyənləşdirib. 14-15 yaşlı yeniyetmələrdə bu göstərici təxminən 20% azalmışdır. Digər qrup yeniyetmələrdə isə kontrol göstərici normadan 16% aşağı olduğu halda, imtahandan əvvəl təkrarən 14,7% azalmışdır və bu göstərici normadan 28,4% aşağı olmuşdur. Görmə yaddaşı göstəricisi isə ən çox 14 yaşlı məktəblilərdə azalaraq, kontrola nisbətən 26,4% aşağı düşmüşdür. 14-15 yaşlılarda isə, təxminən 15% azalma qeyd olunub. İmtahandan sonra aparılan testləşdirmənin nəticələri 14 yaşlı yeniyetmələrdə qısa müddətli yaddaş göstəricisinin nisbi sabit qalması, digər yaş qruplarında isə 22,5% göstəricinin yüksəlməsi müşahidə edilib. Lakin, qısa müddətli yaddaş göstəricisi yalnız 15 yaşlı məktəblilərdə norma daxilində olmuşdur. 16 yaşlı yeniyetmələrdə qeyd edilən göstərici kontrola nisbətən, 6,29 ±1,04 bala qədər yüksəlmişdir. Görmə yaddaşı göstəricisinin imtahandan sonra təxminən 11% yüksəlməsinə baxmayaraq, yenə də

kontrolda olduğu səviyyədən 10% aşağı olmuşdur. Lakin, görmə yaddaşı testinin alınmış nəticələri hər üç təcrübələrdə normadan yüksək səviyyədə olmuşdur və imtahan stresinin təsiri altında azalması nisbi xarakter daşımışdır.

İradi diqqət göstəricisinin nəticələri də imtahandan əvvəl təxminən 9% kontrola nisbətən az olmuşdur. İmtahan stresinin azalması fonunda göstəricinin nisbi yüksəlməsi (3%) qeyd olunsa da, yenə də kontroldan (6%) aşağı göstərici müşahidə edilib. İradi diqqətin imtahan stresinin təsiri altında dəyişməsi qeyd olunsa da, alınmış nəticələr norma hüdudunda olmuşdur.

Dərketmənin məntiqi aspektini təyin edən testin adi dərs günündə alınmış nəticələri yeniyetmələrin 78,49% testə düzgün cavab verdiyini göstərmişdir. İmtahandan əvvəl isə düz cavabların sayı 51% qədər azalsa da, nəticə qənaətbəxş olmuşdur (50% -dən yuxarı norma sayılır). İmtahandan sonra aparılmış təkrari testləşdirmənin nəticələri təxminən 60% düzgün cavab olduğunu müəyyənləşdirmişdir.

İntellektual səviyyəni aşkar etmək məqsədilə tətbiq olunmuş Roven testinin nəticələri diqqəti cəlb edir. Belə ki, alınmış ilkin nəticələr 14 yaşlı yeniyetmələrin I, II, III, VIII səviyyələrə nisbətən, əsasən IV, V, VI, VII intellektual səviyyələrə məxsus olduğu müəyyən edilmişdir. İmtahandan əvvəl aparılmış testləşdirmənin nəticələri digər səviyyələrə məxsus yeniyetmələrin azalması hesabına, IV, V, VI intellektual səviyyələrə məxsus olan yeniyetmələrin sayının 5% artması müşahidə olunub. İmtahandan sonra da III və IV səviyyələrə məxsus yeniyetmələrin sayı 5% artmışdır, VI və VII səviyyələrə məxsus yeniyetmələrin sayı isə azalmışdır. 15 yaşlı yeniyetmələrin isə yalnız VI, VII və VIII səviyyələrdə sayının 5% artması, II, III və IV səviyyələrdə isə 7% azalması müşahidə edilib. İmtahandan sonra isə, V, VI, VII, VIII səviyyələrə məxsus yeniyetmələrin sayının təxminən 7% azalması, digər səviyyələrə məxsus yeniyetmələrin sayının təxminən 10% artması müşahidə edilib. Roven testinə əsasən imtahandan əvvəl VI, VII, VIII səviyyələrə məxsus 16 yaşlı yeniyetmələrin sayının artması hesabına, digər səviyyələrə məxsus yeniyetmələrin sayı azalmışdır. İmtahandan sonra isə əksinə, qeyd edilən səviyyələrə məxsus məktəblilərin sayının azalması və II, III, IV səviyyələrdə yeniyetmələrin sayının artması müəyyənləşdirilib. Ümumilikdə, intellektual səviyyələr üzrə məktəblilərin sayının dəyişməsində müəyyən dinamika müşahidə edilib: yəni imtahandan əvvəl aparılmış testləşdirmə zamanı yüksək intellektual səviyyələrə məxsus yeniyetmələrin sayının artması, aşağı intellektual səviyyələrə məxsus məktəblilərin sayının isə azalması qeyd olunub. İmtahandan sonra isə əks nəticə müşahidə edilib. Belə nəticənin alınmasını imtahandan əvvəl MSS-də oyanma proseslərinin sürətlənməsi və imtahandan sonra isə ümumi yorulma fonunda ləngimə proseslərinin güclənməsi ilə izah etmək mümkündür.

Eksperimentlər zamanı səkkizrəngli Lyuşer testinin nəticələri də digər testlərin nəticələrini təsdiq etmişdir. İlk növbədə həyəcan faktorunun nəticələri diqqət cəlb edir. Kontrol eksperimentlərdə bütün yaşlar üzrə həyəcan faktoru

16,6% -ə bərabər olduğu halda, imtahandan əvvəl yüksək səviyyəyə (48,6%) qədər yüksəlmişdir. İmtahandan sonra isə həyəcanın orta səviyyədə olması qeyd olunub. Aktivlik faktoru isə adi dərs günündə yeniyetmələrin tam aktiv vəziyyətdə olmasını (69,4%) müəyyən etmişdir. İmtahan dövründə göstəricinin nisbi enməsinə və bu azalmanın imtahandan sonra da müşahidə edilməsinə baxmayaraq, alınmış nəticələr (47,22%) qənaətbəxş olmuşdur. Əmək qabiliyyəti faktorunun nəticələri də təxminən eyni olmuşdur. Adi dərs günündə eytoniya, imtahandan əvvəl və sonra isə simpatik tonusun üstünlüyü müşahidə edilmişdir.

İmtahanın emosional gərginlik yaradan faktor olması və bu prosesin koqnitiv prosesləri aktivləşdirməsi ilə əlaqədar olaraq sağlam yeniyetmələrdə psixofizioloji dəyişikliklər müşahidə edilmişdir. İmtahandan sonra isə alınan göstəricilər fona nisbətən yüksək olduğu halda, qismən normadan aşağı enmə qeyd edilmişdir. Bu cür reaksiya ümumi yorulmanın inkişafı, VSS-nin tonusunun enməsi, MSS-də ləngimə proseslərinin sürətlənməsi və orqanizmin müdafiə reaksiyalarının inkişafı ilə əlaqədar ola bilər (1,7,11,14). Bundan əlavə, imtahan zamanı koqnitiv proseslərin aktivləşməsi prosesi özü-özülüyündə emosional stres vəziyyətinin yaranmasına səbəb olan faktor ola bilər (5,9,12). İmtahandan sonra bu proseslərin ləngiməsi stres yaradan faktorlardan birinin aradan qaldırılması rolunu oynaya bilər ki, bu da orqanizmin adaptasiya imkanlarının hesabına daimi vəziyyətə qayıtmasına imkan verə bilər. Bundan əlavə, müşahidə edilmiş dəyişikliklərin formalaşmasında temperament tipinin də rolu böyükdür (1,3,8,13).

**Nəticə.**

İmtahan dövründə yaranmış emosional gərginlik 14-16 yaşlı yeniyetmələrdə psixofizioloji dəyişiklərin yaranmasına səbəb olmuşdur. Eksperimentlərin nəticələrin təhlili zamanı müəyyən edilmişdir ki, tədqiq olunan psixoloji, koqnitiv və vegetativ göstəricilərdə dəyişikliklər dərin olduqca, onlar davamlı olaraq emosional gərginliyin təsiri kəsildikdən sonra da qeyd olunur. Praktiki sağlam yeniyetmələrdə həyəcan səviyyəsinin yüksəlməsi imtahan şəraitinin emosional qiymətləndirərək koqnitiv proseslərin və VSS-nin aktivləşməsinə səbəb olur (8, 14). Emosional gərginliyin təsiri altında müşahidə edilən psixofizioloji dəyişikliklərin kompleks qiymətləndirilməsi sonrakı yaş dövrlərində yaranma ehtimalı ola bilən sinir-psixi, somatik xəstəliklərin qarşısının alınması və profilaktik tədbirlər planının hazırlanmasında ən perspektiv elmi istiqamətlərdən biri kimi qiymətləndirilə bilər.

**Ədəbiyyat:**


1. Kərəmova N.Y. Stress və onun koqnitiv proseslərlə qarşılıqlı əlaqələrinin tədqiqi problemi (ədəbiyyat icmalı) // Gənc alimlərin əsərləri, Bakı, №7, 2013, səh.221-228.
2. Афонин Д.Н., Куроптев Н.Б., Брысковская П.А. Влияние свойств высшей нервной деятельности на эффективность работы операторов анализа изображений таможенных органов // Экономические науки, 2017, № 3(57)
3. Горбунов Р.В. Комплексная оценка функционального состояния организма при психоэмоциональном стрессе // Кубан. науч. мед. вестн. 2006. № 9 (90), - с. 59 - 62
4. Джебраилова Т.Д. Характеристики личностной тревожности у студентов в ситуации экзаменационного стресса. Журн. ВНД, 2003, Т.53, №4, с.485-502.
5. Дмитриева Н.В. Психофизиологические механизмы развития адаптационных процессов в условиях эмоционального стресса. Журн. Физиология человека, 2004, Т.30, №3, с.35-44.
6. Ефимова И.В., Будыкова Е.В. Использование методики эмоциональной оценки коротких музыкальных фрагментов для анализа функциональных состояний студентов. Журн. Физиология человека, 2006, Т.32, №3, с.35-39.
7. Казин Э.М. Влияние психофизиологического потенциала на адаптацию к учебной деятельности. Журн. Физиология человека, 2002, Т.28, №3, с.28-32.
8. Карамова Н.Я., Мамедов З.Г. Особенности влияния эмоционального напряжения на когнитивные процессы у подростков в зависимости от исходного уровня умственного развития //«Естественные науки», Вестник МОГУ, №1, 2011, ст.22-25.
9. Костандов Э.А. Зависимость устойчивости когнитивной установки от эмоционального состояния. Журн. ВНД, 2001, Т.51, №3, с.304-307.
10. Криволапчук И.А., Сухецкий В.К. Психофизиологическая характеристика функционального состояния в условиях напряженной информационной нагрузки. Журн. Физиология человека, 2005, Т.31, №6, с.13-25.
11. Макаренко Н.В., Лизогую В.С., Юхименко Л..И. Реакция вегетативной нервной системы студентов с различными свойствами высшей нервной деятельности в ситуации экзаменационного стресса. Журн. Физиология человека, 2006, Т.32, №3, с.136-138.
12. Рослякова Е.М., Бисерова А.Г., Байжанова Н.С., Игибаева А.С., Алипбекова А.С. Успеваемость студентов медицинского универ-

ситета в зависимости от высших психофизиологических функций// Международный журнал прикладных и фундаментальных исследований. 2016. № 12-5. С. 845-848
13. Юматов И.Г. и др. Экзаменационный стресс у студентов. Физиология человека. 2001, Т. 27, №2, с. 104.
14. Яценко Н.А. Психофизиологические и психологические особенности операторов телекоммуникационных сетей в экстремальных условиях профессиональной деятельности: дисс. Канд. Психол. наук: Ростов-на-Дону, 2011 - 165 с.

**UOT 159.9:316.356.2;159.9:64**

# AĠLƏ BÖHRANLARININ ETĠMOLOGĠYASI VƏ DĠAQNOSTĠKASI

**Gülgün Ramazan qızı MĠRZƏYEVA**

*Qərbi Kaspi Universiteti*
*gulu.mirzeyeva95@mail.ru*

## XÜLASƏ

Məqalədə ailə böhranı problemlərinə müasir elmi ədəbiyyatdakı yanaşmalar əks olunub. Bu zaman əsas diqqət böhranların təsnifatına və diaqnostikasına yönəldilmişdir. Ailənin sosial sistem kimi keçdiyi inkişaf mərhələləri təhlil olunmuş və onların böhran təhlükəsi yaradan məsələləri nəzərə çatdırılmışdır.

**Açar sözlər:** ailə, ailə böhranı, böhranların təsnifatı, böhran nəzəriyyəsi, ailə böhranlarının diaqnostikası, ailənin inkişaf mərhələləri, inkişaf mərhələləri böhranı.

## ЭТИМОЛОГИЯ И ДИАГНОСТИКА СЕМЕЙНЫХ КРИЗИСОВ

## РЕЗЮМЕ

В статье отражены подходы в современной научной литературе посвященные проблеме семейных кризисов. Большое внимание уделяется классификации и диагностике кризисов. Анализируются этапы развития семьи как социальной системы и факторы риска этих этапов.

**Ключевые слова:** семья, семейный кризис, классификация кризисов, теория кризиса, диагностика семейных кризисов, этапы развития семьи, кризисы этапов развития.

## ETYMOLOGY AND DIAGNOSIS OF FAMILY CRISES

## ABSTRACT

This article reflects on approaches in the modern scientific literature about family crisis issues. The main focus is on the classification and the diagnosis of crises. The development stages of the family as a social system is analyzed and the issues that may cause family crisis risk are mentioned.

**Keywords:** family, family crisis, the main classification of the crises, the crisis theory, diagnosis of the family crisis, development stages of the family, development stages of crisis.

Psixologiyanın tədqiq etdiyi sahələrdən biri də böhranlar və onun cəmiyyətə təsiri ilə əlaqədardır. Cəmiyyətin müxtəlif təbəqələrində özünü göstərən böhranların dağıdıcı təsiri olmaqla yanaşı, eyni zamanda müsbət, yəni, yaradıcı təsiri də mövcuddur. Məhz bu məqsədlə böhranların cəmiyyətin müxtəlif sahələrinə, xüsusilə də ailədaxili münasibətlərə təsirini müəyyən etmək üçün bu sahədə araşdırmalar apararaq aşağıdakı təhlillləri nəzərinizə çatdırırıq.

Böhran (yunanca krisis sözündən götürülüb, mənası həll, dönüş nöqtəsi deməkdir) – sistemin müvazinət halının pozulması, hər hansı bir hadisədə kəskin dönüş nöqtəsi, ağır keçid halı, kəskin çətinlik hesab olunur. Böhran sözü özündə hərəkətlərin fövqaladəliyi, təhdidliliyi və vacibliyi çalarlarını ifadə edir. Böhran - dünya və özü haqqında təsəvvürlərdə qısa müddət ərzində əhəmiyyətli dəyişikliklərlə müşayət olunan emosional və əqli stress vəziyyətidir.

Adi vasitələrin köməyi ilə həll edilməsi mümkün olmayan, vacib həyat məqsədlərinin gerçəkləşməsində maneələrlə qarşılaşan şəraiti böhran vəziyyəti adlandırmaq olar.

Böhranlar özündə həmişə mənfi məna daşımır. Çin dilində "böhran" anlayışı "təhlükə ilə dolu şans" kimi təyin olunur. Yəni, böhran özündə insan şəxsiyyətinin inkişafı üçün imkanlar saxlayır, bu imkanları fərd mənimsədikcə, böhran hallarını keçərək və müxtəlif növ müqavimətlərlə rastlaşaraq inkişaf edir. Böhran vəziyyəti və dövrlərinin yaradıcı həlli böhran yaşayan tərəflərə şəxsi inkişaf imkanı verir, həmçinin, həyatı müşayət edən dönüş nöqtələrində təcrübə qazandırır.

Psixologiyada böhran nəzəriyyəsi müstəqil sahə kimi nisbətən yeni yaranmışdır. Bu sahədə əhəmiyyətli tədqiqatlar E.Lindermanna, C.Kaplana, C. Yakobsona və d. aid edilir.

C.Kaplan böhranın 4 mərhələsini təsvir etmişdir:

1. Problemin ilkin həlli üsullarını inkişaf etdirən gərginliyin artması.
2. Bu üsulların nəticəsizliyi şəraitində gərginliyin güclənməsi.
3. Daxili və xarici mənbələrdən gələn amillərin təsiri nəticəsində gərginliyin daha da şiddətlənməsi.
4. Əvvəlki mərhələlərdə həyata keçirilmiş hərəkətlərin faydasızlığı nəticəsində şəxsiyyətin həyəcanlılığının artması, depressiyanın yaranması, çarəsizlik və ümidsizlik hissinin çoxalması və şəxsiyyətin inkişafının pozulması.

Aşağıdakı göstəricilər isə böhranı diaqnostika etməyə imkan verir:

- ruh düşkünlüyünə səbəb olan, stress və ya uzun müddətli stress yaradan hadisənin mövcudluğu (insanın uğursuzluğunun ağır emosional çarəsizlik halı, məqsədə çatmaqda məyusluq hissləri ilə müşayət olunan yaşantısı);
- fəlakətə məruz qalmaq;
- itirmə, təhlükə, təhqir hissləri;
- özünün yetərsizliyi hissi;
- baş verənlərin gözlənilməzliyi;
- adəti həyat gedişatının dağılması;

- gələcəyin qeyri-müəyyənliyi;
- vəziyyət haqqında ümumi qavrayışının olmaması (onun hissə-hissə qavranılması, əsasən emosianal çalarlara diqqətin verilməsi);
- qorxu;
- ümidsizlik;
- malik olduqlarının dəyərsizləşməsi;
- başqaları və özü ilə əlaqənin itirilməsi;
- tənhalıq hissinin üstünlük təşkil etməsi;
- öz yaşantılarının təkrarolunmazlığı hissi;
- əhatəsində olan insanlardan dəstəyin olmaması hissi;
- uzunmüddətli əzab-əziyyət.

Böhranlar zaman göstəricisinə və yaşananların baş vermə tezliyinə görə 2 cür olur:

- qısamüddətli və kəskin;
- uzunmüddətli və xroniki (zaman baxımından uzun olan ağır xəstəliklər).

Qapalılığına görə də böhranlar həmçinin 2 yerə bölünür:

- keçid dövrləri, yaşla əlaqəli olanlar;
- müəyyən yaşla əlaqəsi olmayanlar.

Bu gün mövcud olan böhran nəzəriyyələri böhran hallarının yaşanmasını fərdi səviyyədə təsvir edir, yəni böhranın yaşanması prosesini bir insanın nümunəsində təhlil edir. Çünki tək insan həmişə digərlərinin, daha böyük sistemin (ailə, peşə, sosial və s.) hissəsidir və həmin sistemlə qarşılıqlı əlaqə və vəhdətdədir.

Biz isə böhranlı vəziyyətləri bir insanla deyil, onun mövcud olduğu kiçik sistemdə, ailə sistemində təhlil etməyə çalışacağıq. Böhran vəziyyətindəki ailələrin təhlili üçün yaradılmış yanaşma böhran psixologiyası və ailə psixologiyasının nəzəri və praktiki məsələlərinin inkişaf etməsinə imkan verir ki, onların da qovşağında yeni elmi istiqamət - ailə böhranlarının psixologiyası yaranır.

Ailə özünün birgə fəaliyyəti ilə elə sistemdir ki, bərqərar olmuş əlaqələr sayəsində müəyyən mütənasiblikdədir. Amma bu mütənasiblik dəyişkəndir, canlıdır, hərəkətlidir və yenilənəndir. Sosial vəziyyətin dəyişməsi, ailənin və ya onun üzvlərindən birinin inkişafı ailədaxili münasibətlər sisteminin dəyişməsinə səbəb olur və yeni münasibətlərin qurulmasına, yeni imkanların yaranmasına şərait yaradır.

Ailə böhranı ailədaxili məmnunluq hisslərinin pozulması ilə xarakterizə olunan ailə sistemi vəziyyətidir. Bu vəziyyət ailəni inkişafa aparan yollarda maneələrə səbəb olur və köhnə davranış formalarından istifadə edərək yeni vəziyyətin öhdəsindən gəlməyi imkansız edir.

Ailə böhranında ailənin sonrakı inkişafı üçün iki xətti fərqləndirmək olar:

1. Dağıdıcı, yəni, ailə münasibətlərinin pozulmasına və bu münasibətlərin mövcudluğuna təhlükə yaradan böhran.

2. Yaradıcı, yəni, ailənin yeni yaşayış səviyyəsinə keçid potensialı daşıyan böhran.

Ailədə böhran vəziyyəti problemlərinə həsr olunmuş ədəbiyyatların təhlili ailə böhranlarının təsvirində bir neçə yanaşmanı ayırmağa imkan verir.

Birincisi, ailənin həyat dövrünün qanunauyğunluqlarının öyrənilməsi ilə əlaqədardır. Bu yanaşmada böhranlar ailənin həyat dövrünün mərhələləri arasında keçid məqamları kimi nəzərdən keçirilir. Belə böhranlar normativ və ya üfüqi stressorlar (stress yaradan qıcıqlandırıcı) adlandırılır. Onlar ailənin həyatının konkret dövründəki hər hansı mərhələyə keçid zamanı düzgün olmayan uyğunlaşmalar, maneələr, "sıxışdırmalar" şəklində özünü göstərir.

V.Satir ailənin inkişafında 10 böhranlı məqamı qeyd edir.

- 1-ci böhran – mayalanma, hamiləlik və uşağın doğulması.
- 2-ci böhran – uşağın insan nitqini mənimsəməyə başlaması.
- 3-cü böhran – uşağın xarici mühitlə münasibətləri formalaşır (uşaq bağçasına və ya məktəbə getməklə).
- 4-cü böhran – uşaq yeniyetmə yaşına qədəm qoyur.
- 5-ci böhran – uşaq böyüyür və evi tərk edir.
- 6-cı böhran – gənclər evlənir və ailəyə gəlin və ya kürəkən daxil olur.
- 7-ci böhran – qadının həyatında klimaks başlayır.
- 8-ci böhran – kişinin cinsi aktivliyinin azalması.
- 9-cu böhran – valideynlər nənə və baba olur.
- 10-cu böhran – həyat yoldaşlarından biri vəfat edir.

Beləliklə, ailə öz inkişafında müəyyən mərhələlər yaşayır və bu mərhələlər böhranlarla müşayət olunur. Mikroailə mərhələsində qeydə alınan ailənin normativ böhranının əsasında adətən böyüyün və ya uşağın fərdi normativ böhranı dayanır və bu ailə sisteminin sabitliyinin pozulmasına səbəb olur.

İkinci yanaşma ailənin həyat yolu hadisələrinin təhlili ilə əlaqədardır: ailə böhranları ailə sisteminin sabitliyinə təsir edən bir sıra hadisələrdən qaynaqlanır. Belə böhranlar ailənin həyat dövrü mərhələlərindən asılı olmayaraq yaranır və qeyri-normativ böhranlar adlandırılır.

Üçüncü yanaşma ailədə və ya onun ayrı-ayrı altsistemlərində böhran vəziyyətləri ilə bağlı biliklərə əsaslanır. Bu biliklər eksperimental tədqiqatlarla əldə edilmişdir. Məsələn, Plzak cütlüklərin münasibətlərinin inkişafında iki böhranlı dövrü təsvir etmişdir.

Birinci böhranlı dövr ailə həyatının 3-7-ci illəri arasında baş verir və yaxşı halda bir il davam edir. Onun yaranmasına aşağıdakı amillər təsir edir: romantik hisslərin azalması, sevgililik dövrü ilə müqayisədə əks cinsin hal-hazırki davranışı arasındakı fərqin qəbul edilməməsi, cütlüyün müxtəlif hadisələrə fərqli münasibətlərinin olması və razılığa gələ bilməmələri, mənfi emosiyaların tezliyinin çoxalması, tez-tez baş verən toqquşmalar nəticəsində cütlük arasındakı münasibətlərdə gərginliyin artması. Böhranlı vəziyyət hər hansı xarici amillərin, məişət

və iqtisadi vəziyyətin, valideynlərin müdaxiləsi, xəyanət və ya əks cinsdən birinin şəxsiyyətindəki hər hansı patoloji xüsusiyyətlər olmadan da baş verə bilər.

İkinci böhranlı dövr təqribən nigahın 17-25 -ci illəri arasında başlayır. Bu böhran birincidən fərqli olaraq çoxda dərin deyil, bir və ya bir neçə il davam edə bilər. Bu böhranın yaranması daha çox invalyusiya (emosional dayanıqlığın azalması, qorxuların yaranması, müxtəlif xəstəliklərlə bağlı şikayətlərin artması, uşaqların evdən getməsi ilə əlaqədar tənhalıq hissi, bununla da qadının emosional asılığının çoxalması, onun tez qocalma ilə bağlı qayğıları, həmçinin ərinin mümkün xəyanətləri və s.) dövrünün yaxınlaşması ilə üst-üstə düşür.

N.V.Samaukinanın fikrincə birinci böhran dövrü (5-7 il) qarşı tərəf haqqında obrazın dəyişməsi ilə, daha doğrusu onun psixoloji vəzifəsinin azalması ilə əlaqədardır. İkinci böhran dövrünü isə (13-18 il) tərəflərin bir-birindən psixoloji olaraq yorulması ilə əlaqələndirir və münasibətlərin inkişafını yeniliyə canatma ilə şərtləndirir. Kişilər bu dövrü daha kəskin yaşayır. Bu mərhələ tərəflərin nisbi azadlığı şərtini qarşılıqlı qəbul edən ailələrdə daha yüngül keçir, həmçinin münasibətlərini yeniləməyin üsullarını birlikdə axtaran cütlüklərdə də bu dövr nisbətən yüngül yaşanır.

Böhran vəziyyətində olan ailə əvvəlki kimi mövcud ola, dəyişmiş vəziyyətə əvvəlki kimi uyğun fəaliyyət göstərə bilməz, eyni zamanda adət edilmiş davranış formalarından, məlum olan təsəvvürlərdən istifadə edə bilməz.

Ailə münasibətlərinin pozulmasının bir sıra səbəbləri vardır. Bu səbəblərə, əsas ailə sərvətlərinin əhəmiyyəti haqqında ər-arvadın təsəvvürlərində fikir ayrılığının olmasını, ər-arvad arasında qarşılıqlı ünsiyyətin gözlənilməməsi (uğursuz nigahlarda bu, emosional qərarsızlıq, başqa adamlarla yola gedə bilməmək, hökmranlıq iddiası, inadcıllıq və tərslik, adamayovuşmazlıqla səciyyələnir), kişilərin qadın hüquqlarını məhdudlaşdırmasını və s. göstərmək olar (1, s. 215).

Ailə kiçik qrupdur və onun üzvləri arasında şəxsiyyətlərarası münasibətlər bərabərlik əsasında rəhbərlik və tabelik elementləri olmadan qurulmur. Ər və ya arvad o zaman ailə başçısına çevrilir ki, onun mənəvi nüfuzu yoldaşı tərəfindən qəbul edilir. Bu proses, adətən, müxtəlif münaqişələrlə müşayət olunur. Bəzi tədqiqatçılar onu nigah adaptasiyası, bəziləri isə "hakimiyyət uğrunda mübarizə" kimi xarakterizə edirlər (2, s. 338).

Ailə böhranının aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar:

1. Ailədə baş verən vəziyyət ilə əlaqədar olaraq ziddiyyətlərin güclənməsi.
2. Bütün sistemin və onda baş verən proseslərin pozulması.
3. Ailə sistemində dayanıqsızlığın artması.
4. Böhranın ümumiləşdirilməsi, yəni onun təsirinin ailənin əlaqə və münasibətlərinin bütün tərəflərinə yayılması.

Ailənin mövcudluğunun hansı mərhələsində yaranmasından asılı olmayaraq böhran digər mərhələlərə də təsir edərək onun fəaliyyətini pozacaq, nəticədə ailə böhranının aşağıdakı təzahürlərinin yaranmasına səbəb olacaqdır:

1. Ailə böhranının fərdi səviyyədə təzahürü:

- narahatlıq hissi, artan həyacanlılıq;
- köhnə əlaqə üsullarının səmərəsizliyi;
- nigahdan məmnunluq səviyyəsinin enməsi;
- anlaşılmamaq, eşidilməmək, çarəsizlik və yaranmış vəziyyəti düzəltmək cəhdlərinin uğursuzluğu, yəni öz imkanlarının məhdudluğu hissi, yaranmış vəziyyətdə yeni inkişaf istiqamətlərini görə bilməmək;
- ailədə şəxsin mövqeyinin yer dəyişməsi;
- ailə üzvü kimi şəxsin mövqeyini itirməsi (ona elə gəlir ki, ondan asılı olmadan hansısa hallar baş verir, deməli dəyişikliklər onda yox digərlərində olmalıdır). Bu halda o həqiqətən inanır ki, ailənin digər üzvlərinin münasibətinin və ya davranışının dəyişməsi vəziyyətin yaxşılaşmasına səbəb olacaqdır;
- yeni təcrübəyə qapalılıq və eyni zamanda "sülhün möcüzəvi qayıdışı"na ümid, özünü dəyişməyə ehtiyac duymamaq;
- ailənin bəzi üzvlərində yüksək qiymətli fikirlərin yaranması;
- simptomatik davranışın formalaşması.

2. Ailə böhranının mikrosistem səviyyəsində təzahürləri:

- birlik əlamətlərinin pozulması: ailə üzvləri arasındakı psixoloji əlaqələrin azalması və ya artması (ən əsas əlamət olaraq birgə yaşayış və ayrılmanı göstərmək olar).
- nuklear ailənin daxili və xarici sərhədlərinin pozulması, ən yüksək səviyyə kimi ailənin yayınıqlığı və qapalılığı göstərilir;
- ailə sisteminin qarışıqlıq və sərtləşmə vəziyyətləri yaranana qədər çevikliyinin pozulması (həyat hadisələrinə qarşı qeyri-çevik reaksiya üsullarının qorunması və güclənməsi mexanizmidir. Bu mexanizm böhran vəziyyətlərində ümumi xarakter daşıyır, amma onun uzunmüddətli istifadəsi ailədə təbii enerji mübadiləsini pozur);
- ailə sisteminin rol tərkibinin dəyişməsi (qeyri-düzgün rolların yaranması, rolların qəti və qeyri-bərabər paylanması, rolun "uğursuzluğu", rolların patalogiyası);
- hakimiyyətin pozulması (hakimiyyət uğrunda mübarizə, tərs dönmüş hakimiyyət);
- ailə münaqişələrinin yaranması;
- mənfi emosiyaların və tənqidin artması;
- ailə münasibətlərində ümumi məmnuniyyətsizlik hissinin artması, baxışlardakı fərqlərin aşkar edilməsi, susqun etiraz meyllərinin, dava və qarşılıqlı günahlandırmaların çoxalması, ailə üzvlərində aldadılmışlıq hissi;
- nuklear ailənin fəaliyyət formalarında geriyə istiqamət;
- ailənin hər hansı inkişaf mərhələsində "ilişməsi" və növbəti mərhələlərdəki məsələlərin həll edilə bilməməsi;
- ailə üzvlərinin iddia və gözləntilərinin uyğunsuzluğu və ziddiyyəti;

- ailənin bəzi təşəkkül tapmış sərvətlərinin dağılması və yenilərinin formalaşmaması;
- adət və ənənələrin pozulması;
- köhnə ailəvi norma və qaydaların yenilərinin olmadığı şəraitdə səmərəsizliyi;
- qaydaların qıtlığı.

3. Ailə böhranının makrosistem səviyyəsində təzahürü:

- əvvəlki nəsillərdə faydalı olmuş, lakin ailənin mövcud olduğu hazırki dövr üçün uyğun olmayan cütlüyün köhnə davranış tərzi;
- geniş ailənin daxili və xarici sərhədlərinin pozulması, bunun ən yüksək formaları ailənin yayınıqlığı və ya qapalılığı formasında təzahür edir;
- hakimiyyətin pozulması (məsələn, tərs çevrilmiş hakimiyyət, yaxud nəsillər arası birləşmə);
- geniş ailənin rol tərkibinin pozulması;
- adət və ənənələrinin pozulması;
- köhnə ailə normalarının səmərəsizliyi şəraitində yenilərinin formalaşmaması.

4. Ailə böhranının meqasistem səviyyəsində təzahürü:

- Ailənin sosial təcrid olunması;
- Ailənin sosial mühitə uyğunlaşa bilməməsi;
- Ailənin sosial əhatəsi ilə münaqişələri.

Böhran vəziyyətində ailə üzvlərinin mövcud tələbatlarının boğulması baş verə bilər ki, bu da öz növbəsində ailə üzvlərindən hər hansı birində, daha çox isə uşaqlarda böhran əlamətlərinin yaranmasına səbəb ola bilər. Uşaqlar əlamət daşıyıcısı olaraq ailə üzvləri arasında köhnədən təşəkkül tapmış münasibətləri davam etdirirlər. Simptomatik davranış möhkəmlənmiş, "donmuş" rol münasibətləri nəticəsində yaranır və ailə qaydalarını poza biləcək bəzi bağlı mövzuları özündə əks etdrirərək münasibətləri tənzimləyir. Simptomun daşıyıcısı "problemin mövcud olduğu pasient" adlanır.

Simptomatik davranışın aşağıdakı xüsusiyyətlərini göstərmək olar:

- Ailənin digər üzvlərinə nisbətən bir üzvünə daha çox təsiri olan;
- Simptom qeyri iradidir və problemli kimi müəyyən edilmiş pasient tərəfindən ona nəzarət edilmir;
- Simptom əhatəsində olanlar tərəfindən möhkəmləndirilir;
- Simptomatik davranış ailənin digər üzvlərinə yararlı ola bilər; simptomatik davranış ailə üzvlərinin digər psixoloji problemlərdən qaçmasına "xidmət" edir, bu problemlərin fəallaşması ailə sistemi üçün dağıdıcı ola bilər. Deməli simptomatik davranış ailə üçün tənzimləyici funksiyasını yerinə yetirir.

Problemin mövcud olduğu pasient, yaxud simptom daşıyıcısı ailənin həyat dövrünün hər hansı mərhələsinə keçid zamanı, həmçinin, ailə homeostazını (tamlığını) qorumaq cəhdləri zamanı meydana çıxır. Psixoloji kömək üçün mü-

raciət etmiş ailə adətən simptomdan xilas olmaq istəyir, lakin bu zaman hər hansı əhəmiyyətli dəyişiklik etmək istəmir. Bu halda nəticə olaraq bir simptomun yerinə digəri və daha ciddisi yarana bilər. Məsələn, ər spirtli içki qəbul et--məyi dayandırdığı anda ailədə uşaq ciddi xəstələnə bilər.

Ailələrin böhran dövrlərini keçməsinin xüsusiyyətlərini təyin etmək üçün ailələrin "normativlər süzgəcini" öyrənmək və təhlil etmək lazımdır."

Normativlər süzgəci" deyərkən biz konkret ailə üçün xarakterik olan normaların, qaydaların, yönəlişliklərin, rol mövqelərinin, təsəvvürlərin məcmusunu başa düşürük. Onların dəyişdirici təsiri müxtəlif ola bilər. Bu müxtəlifliyi aydın təsəvvür etmək üçün bəzi hadisələri misal göstərmək olar; məsələn, ailə, həyatında ən əhəmiyyətsiz problemi belə çox ağır yaşaya bilər, lakin bunun əksinə olaraq inkişafına ciddi böhranlar təsir etdiyi zaman isə onun üzvləri bu vəziyyəti faciə kimi qiymətləndirməz, birlikəri güclənər, baş verənlərə düzgün reaksiya verər və bir-birlərinə dəstək ola bilərlər. Ailə üzvləri məsləhətçiyə adətən ailə həyatının "təhrif edilmiş" rəsmini təqdim edir, bu rəsm onların ideal təsəvvürlərini özündə əks etdirir. Ailə psixoloqu bu rəsmə uyğun təhlil aparmalı və konkret ailə üçün təhlükə zonalarını müəyyən etməlidir.

**Nəticə.** Bu işin xüsusiyyəti ondan ibarətdir ki, ailənin psixoloji fəaliyyət obrazından istifadə edilir. Yəni, təhlilin mərkəzində ailə üzvlərinin fərdi-psixoloji davranış xüsusiyyətləri deyil, ailənin bütöv bir orqanizm kimi davranış formaları yerləşir. Bu vəzifə ona görə mürəkkəb hesab olunur ki, ailə sistemini təşkil edən münasibətlərin hamısını nəzərə almaq hər zaman mümkün olmur. Amma bizim ailələrlə iş təcrübəmiz göstərir ki, bu yanaşmanın yeganə sosial mikroqrup kimi ailənin təhlilində istifadəsi məqsədə uyğundur. Bu təhlil ailənin təkrarolunmaz və sirli dünyasını, mövcud qanunlarını anlamağa kömək edir.

**Ədəbiyyat:**

1. Abbassov A. Milli əxlaq və ailə etikası: Dərslik. Bakı: Mürtəcim, 2015, s. 324: əlavə ed. Təkr. nəşr.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Dərslik. Bakı: Qapp-Poliqraf, 2003. s. 356
3. Əlizadə Ə.Ə. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat. Bakı, Maarif, 1989, s.232
4. Эйдемиллер Э.Г., Добряков И.В., Никольская И.М. Семейный диагноз и семейная психотерапия. Учебное пособие для врачей и психологов. - СПб.: Речь, 2003, 336 с.
5. Сатир В. Как строить себя и свою семью: Пер. с англ.: улучш. изд. - М.: Педагогика-Пресс, 1992, с.192.

**DĠZAYN**

**UOT 539.3**

# ЭКОЛОГИЧЕСКИЙ ДИЗАЙН ПОБЕРЕЖЬЯ КАСПИЙСКОГО МОРЯ В РАЙОНЕ БАКИНСКОЙ БУХТЫ

**Жанна Николаевна АНДРЕЕВА**
Западно-Каспийский Университет
Кафедра «Экономика», к.т.н., доцент

**Лидия Андреевна САФРОНОВА**
Азербайджанский Государственный Экономический Университет,
специальность «Дизайн и техническая эстетика»,

## РЕЗЮМЕ

В статье рассматривается экологический подход в дизайне, как одно из направлений всемирного экологического движения, который позволяет оказывать положительное влияние на динамику развития инфраструктуры водной среды, флоры и фауны Каспийского моря, расширяет возможности для построения совершенной экосистемы Бакинской бухты с учѐтом индивидуальных, атмосферно-климатических, общественных и культурных факторов.

**Ключевые слова:** экология, экологический дизайн, экологическая безопасность, Каспийская экологическая программа, ландшафтный дизайн, Бакинский бульвар, концепция развития.

## BAKI BUXTASINDA XƏZƏR DƏNĠZĠ SAHĠLĠNĠN EKOLOJĠ DĠZAYNI

## XÜLASƏ

Məqalədə, ümumdünya ekoloji hərəkatın istiqamətlərindən biri kimi, dizaynda ekoloji yanaşma nəzərdən keçirilir ki, bu yanaşma da Xəzər dənizinin su mühitinin, flora və faunasının inkişaf dinamikasına müsbət təsir göstərməyə imkan verir və eyni zamanda fərdi, iqlim-atmosfer, ictimai və mədəni amillər nəzərə alınaraq, Bakı buxtasının mükəmməl ekosisteminin qurulması üçün geniş imkanlar yaradır.

**Açar sözlər:** ekologiya, ekoloji dizayn, ekoloji təhlükəsizlik, Xəzər ekoloji proqramı, landşaft dizaynı, Bakı bulvarı, inkişaf konsepsiyası.

# ECOLOGICAL DESIGN OF THE COAST OF THE CASPIAN SEA AT THE BAKU BAY

## SUMMARY

This article considers the ecological approach in design as one of the directions of the world ecological movement, which allows for a positive impact on the dynamics of the development of the infrastructure of the aquatic environment, flora and fauna of the Caspian Sea, and also expands the possibilities for building a perfect ecosystem at the Baku Bay, including social and cultural factors.

**Keywords:** ecology, ecological design, ecological safety, Caspian ecological program, landscape design, Baku Boulevard, development concept.

На сегодняшний день проблема экологии приобрела особую остроту и актуальность во всѐм мире. Экологический подход в дизайне явился реакцией на научно-техническую революцию. Это одно из направлений всемирного экологического движения, в задачи которого входит охрана и восстановление окружающей среды. Смысл экологического подхода в дизайне заключается в создании продукции, наиболее комфортной для пользователя и максимально совместимой с окружающей средой.

Термин «экологический дизайн» в настоящее время широко используется в повседневной проектной практике и в научной литературе. Проблематика экологического дизайна тесно соприкасается с различными сферами производства и научного знания, начиная от архитектуры, промышленного дизайна и прикладной экологии, заканчивая современными исследованиями в области философии, медицины, психологии, социологии и педагогики. Эта область проектирования объединяет в себе художественно-проектные основы, научно-философское осмысление степени влияния и последствий взаимодействия человека и окружающей среды. Формируется научный и методический инструментарий этого нового направления в дизайне.

«Экологический дизайн – вид проектной деятельности, существующий как осознанная или интуитивная реакция на природные изменения, проявленная в предметном и пространственном творчестве. Целью экологического дизайна является стабилизация отношений человека и окружающей среды… Объектом приложения методов экологического дизайна может быть как природа, опосредованно влияющая на человека, так и сам человек, его социальные, культурные и психологические потребности в их связи с экологической проблематикой… В настоящее время не существует четких границ, определяющих этот вид проектной деятельности, равно

как нет и критериев, по которым можно отнести изделие к продукту экологического дизайна» [3, с.5].

Принципы экологического дизайна основываются на положениях ряда современных динамично развивающихся научных направлений. Основой системной проектной деятельности является теория и методология дизайна. Ее дополняют антропология, экологическая социология, экологическая этика и многие другие науки. Устойчивое развитие определяется организацией под названием «Всемирная комиссия по окружающей среде и развитию», целью которой является «удовлетворение потребностей нынешнего поколения, без ущерба для возможности будущих поколений удовлетворять свои собственные потребности» [4].

Современный дизайн, должен следовать природному принципу наименьшего усилия: потреблять меньше, пользоваться вещами дольше и проявлять экономию при повторном использовании материалов. Принцип природопользования 3R: reduce, reuse, recycle – сокращать, повторно использовать, перерабатывать – органично включается в дизайн-проектирование [5].

Азербайджан вместе с остальными прикаспийскими государствами активно реализует Каспийскую экологическую программу, принятую в 1995 году. Весной нынешнего года президент Ильхам Алиев утвердил протокол о защите Каспия от загрязнения из наземных источников и в результате осуществляемой на суше деятельности, также была принята новая концепция развития «Азербайджан – 2020: взгляд в будущее», в которой особое внимание уделяется охране окружающей среды и вопросам экологии [1].

Одной из основных целей концепции является достижение экологически устойчивого социально-экономического развития Необходимые меры по защите биоразнообразия, нейтрализации негативных воздействий топливно-энергетического комплекса на окружающую среду, устранению загрязнения моря и его акватории и их защите, восстановлению зеленых территорий и эффективной охране существующих ресурсов будут продолжены и в будущем.

Каспийское море, расположенное на стыке Европы и Азии, с давних пор известно как естественное место обитания 90% мировой популяции осетровых, редкого вида каспийских тюленей и множества других видов флоры и фауны, здесь открыты богатые месторождения нефти и газа, разработкой которых занимаются крупные транснациональные корпорации [2].

В нашей стране за регулированием деятельности, связанной с экологией, охраной окружающей среды и использованием природных ресурсов отвечает созданное 23 мая 2001 года Указом Президента Гейдара Алиева

Министерство экологии и природных ресурсов Азербайджана, под руководством профессора Гусейнгулу Багирова.

В ряду известных учѐных Азербайджана, занимающихся проблемами экологии и охраны окружающей среды, следует особо отметить вице-президента НАНА, доктора геолого-минеральных наук, профессора Ибрагима Гулиева, удостоенного в 2017 году высшей награды международной экологической премии Ecoworld («Экомир») – ордена «За спасение жизни на земле»; ученого, имеющего мировую известность в области почвоведения и экологии, академика Гариба Мамедова; академика, действительного члена Нью-Йоркской академии наук, доктора химических наук, профессора, заслуженного деятеля науки, кавалера ордена «Шохрат» Рафигу Алиеву, долгое время возглавлявшую научно-исследовательскую лабораторию БГУ «Экологическая химия и охрана окружающей среды».

На сегодняшний день экологическая ситуация на Каспии, как свидетельствуют мониторинги последних лет, значительно улучшилась, на смену изношенной и морально устаревшей советской добывающей технике пришло более современное производство, технологии, применяемые в нефтегазовой промышленности, стали более совершенными. Существенные инвестиции вкладываются в реконструкцию и восстановление крупных очистных сооружений, что позволяет предотвращать загрязнение Каспийского моря.

В Бакинской бухте отмечается тенденция к снижению уровня загрязненности: по сравнению с 1990 годом вода в бухте стала значительно чище, хотя концентрация нефтепродуктов и тяжелых металлов в донных отложениях все еще остается довольно высокой.

Азербайджан проводит жесткий контроль выполнения обязательств по соблюдению экологических стандартов международными нефтяными компаниями на всех этапах добычи углеводородных ресурсов, чтобы максимально уменьшить риски, связанные с нефтедобывающей деятельностью. Для наиболее крупных морских месторождений нефтяными компаниями совместно с МЭПР и специалистами соответствующих НИИ разрабатываются собственные стандарты.

Примером регионального сотрудничества может служить осуществление прибрежными странами при поддержке международных организаций Каспийской экологической программы. Кроме того, за последние два-три года в пятистороннем формате подписаны такие значимые для защиты морской среды Каспия международно-правовые документы, как протокол о региональной готовности, реагировании и сотрудничестве в случае инцидентов, вызывающих загрязнение нефтью, протокол по защите моря от загрязнения из наземных источников.

Лидеры стран «каспийской пятерки» (Россия, Азербайджан, Туркмения, Казахстан и Иран) 12 августа 2018 года подписали конвенцию о

правовом статусе Каспия. Работа над этим документом велась с 1996 г. Указанная конвенция является на сегодняшний день «Конституцией» Каспийского моря.

Согласно конвенции, водная поверхность Каспия остается в общем пользовании сторон, а дно и недра делятся соседними государствами на участки. Документ устанавливает правила, по которым сторонами будут вестись судоходство, рыболовство, научные исследования и прокладка магистральных трубопроводов. При реализации масштабных морских проектов в обязательном порядке должен учитываться экологический фактор. Кроме того, конвенция фиксирует положение о недопущении присутствия на Каспии вооруженных сил внерегиональных держав.

Возникшие проблемы по состоянию и загрязнению Каспия требуют срочного принятия мер по охране окружающей среды в регионе. Для оздоровления и восстановления экологической обстановке Каспийского моря решением правительств пяти прибрежных государств с 1998 г начала работать Каспийская Экологическая Программа (Тасис, ЮНДП, Всемирный банк) в рамках которой будет разработан Стратегический План Действий по оздоровлению экологической обстановке в регионе.

Отсутствие методов экономической оценки биоразнообразия и экологических услуг приводит к тому, что планирующие органы прикаспийских стран отдают предпочтение развитию добывающих отраслей и “аграрной индустрии” в ущерб устойчивому использованию биоресурсов, туризму и рекреации. Возможность восстановления экосистем Каспия во многом зависит от согласованных действий прикаспийских государств. До сих пор, при большом количестве принимаемых “экологических” решений и планов, отсутствуют системы и критерии контроля их результативности. Такая система выгодна всем действующим на Каспии хозяйственным субъектам, включая госструктуры, национальные и транснациональные корпорации.

Каспийское море - это межконтинентальный, международный, трансграничный бессточный водоем. Оно является терминалом крупнейших рек Волги, Урал, Терек, Кура, Сефидруд. Каспий чрезвычайно динамичен, в силу своего уникального поведения, а именно колебаний уровня, он требует не только научного изучения этих процессов и прогнозирования перспективы, но и проектно-инженерных решений, поскольку от этого зависит социально-экономическое развитие его прибрежной зоны.

Данная ситуация подтолкнула прибрежные страны к разработке различных проектов, которые были направлена на учет колебаний уровня Каспийского моря. Многие предлагаемые решения имели глобальный масштаб и не могли быть реализованы. К тому же разработчикам практически всех проектов были присуще непонимание, а также недооценка процессов колебания уровня Каспийского моря и вызванных этим последс-

твий. Многие предложения, связанные с освоением прибрежных территорий, привели к серьезным нарушениям в экологии, которые имели негативные последствия в последующие десятилетия.

В Азербайджане прекрасным примером развития и применения экодизайна, а также показателем успешной работы современных дизайнеров в области строительства, проектирования и ландшафтного дизайна может служить Бакинский бульвар.




Бакинский бульвар

Как известно, Национальный приморский бульвар является самым крупным парком не только в Азербайджане, но и на всем Южном Кавказе, при этом парк продолжает расти. Бульвар расширяется в обе стороны - в направлении проспекта Нобеля и поселка Биби-Эйбат. Строительные работы ведутся с большим размахом, бульвар преображается, становится более красивым, чистым, современным. На участке от Морского вокзала до строящегося отеля и возводящегося Дворца водных видов спорта идет посадка зеленых насаждений, устанавливается система освещения, устилается плиткой прогулочная часть, сносятся старые постройки.

После расширения бульвара его протяженность составит 15 километров. В рамках этого проекта дно моря будет очищено от различных отходов, здесь будут созданы все условия для времяпровождения и отдыха местных жителей.

Развлекательный центр Caspian Waterfront. Национальный парк Приморский бульвар



Приморский бульвар Восточного направления



При озеленении Бакинского бульвара ландшафтные дизайнеры с большим вниманием подходят к выбору деревьев и кустарников, например, для озеленения пешеходных зон, детских и спортивных площадок выбираются такие кустовые сорта, которые исключают колючки, токсичные вещества и аллергены.

В масштабных проектах реконструкции побережья Бакинской бухты широко применяются водные сооружения, на территориях, прилегающих к зданиям премиум или люкс класса, одним из креативных элементов стало создание декоративных фонтанов, водопадов и других искусственных водоѐмов по принципу Фэн-шуй.

По мнению специалистов, при создании ландшафта, помимо обязательного учитывания особенностей местного климата, характеристик почвы и воды, следует уделять большое внимание национальным традициям. Например, трудно себе представить апшеронские дачи без деревьев инжира, граната, хурмы или виноградной лозы. Эксперты уверены, что национальные традиции сада должны быть ключевым звеном при создании ландшафтного дизайна побережья.

Бакинский бульвар в скором будущем будет выглядеть по-новому, разрабатывается концепция развития побережья Бакинской бухты, с учетом всех особенностей современных архитектурных направлений и ландшафтного дизайна.




Концепция развития Бакинского бульвара

В заключении необходимо отметить, несмотря на то, что экодизайн сегодня вызывает к себе разное, иногда достаточно противоречивое, отношение, это направление в дизайне становится популярным и интенсивно развивается. Экологический дизайн актуализировал проблему места и значения природного фактора в создании предметно-пространственной среды человека.

**Заключение.**

Экологический подход в дизайне необходимо осуществлять с большим вниманием для каждой отдельновзятой местности, кроме основополагающего природоохранного аспекта, должны учитываться все индивидуальные, атмосферно-климатические, общественные и культурные особенности.

В данной статье указываются основные концепции экодизайна Каспийского моря, существенно влияющие на положительную динамику развития инфраструктуры водной среды, флоры и фауны Каспия, а также на построение совершенной экосистемы побережья Бакинской бухты.

**Литература:**

1. Алиев И.Г. "О подготовке Концепции развития "Азербайджан-2020: взгляд в будущее", Баку, 2011.
2. Мамедов Г.Ш. Экология, окружающая среда и человек. Баку, «Элм», 2006, с.608
3. Уваров А.В.Экологический дизайн. История, теория и методология экологического проектирования. OZON.RU, 2015, с.192.
4. Кузнецова Ю.А. Этапы формирования и развития концепции устойчивого развития // Молодой ученый. – 2013. – №5.
5. Панкина М.В. Принципы экологического дизайна / М.В. Панкина, С.В. Захарова // Современные проблемы науки и образования. – 2014. – №1.

## SĠYASƏT

**UOT 32**

# MÜASĠR DÖVRDƏ DÖVLƏT ĠDARƏÇĠLĠYĠNDƏ ĠCTĠMAĠYYƏTLƏ ƏLAQƏLƏRĠN ƏSAS XÜSUSĠYYƏTLƏRĠ

**Anar Əkrəm oğlu ġÜKÜROV**

*Azərbaycan Respublikasının Prezidenti*
*yanında Dövlət İdarəçilik Akademiyasının*
*İnzibati İdarəetmə fakültəsinin dekan müavini, doktorant*
*e-mail: anar-shukurov2015@list.ru*

## XÜLASƏ

İctimaiyyətlə əlaqələrin qədim dövrlərdən bəri peşəkar sahə olaraq formalaşması və inkişafı XX əsrə təsadüf edir. İctimaiyyətlə əlaqələr hər gün daha da inkişaf edən bir sahədir. Çünki müasir dövrdə rəqabət mühitində fəaliyyət göstərən dövlət və özəl qurumlar hədəf kütləsləri ilə münasibət yaratmaqda çox maraqlıdırlar. Ona görə də qurumlar, təşkilatlar qarşılarına qoyduqları məqsədə çatmaq üçün bu münasibətlərin qurulmasına görə ictimaiyyətlə əlaqələrə xüsusi önəm verirlər. İctimaiyyətlə əlaqələr vasitəsi ilə dövlət orqanları və özəl qurumlar öz auditoriyaları tərəfindən müsbət münasibəti və inamı qazanırlar. Rəqibləri ilə daha yaxşı rəqabət etmək istəyən, yaxşı bir imicə malik olmağa çalışan və uzun illər inkişafda olmaq düşüncəsi olan qurumlar yalnız ictimaiyyətlə əlaqələr vasitəsilə buna nail ola bilərlər. Məhz buna görə də məqalədə ictimaiyyətlə əlaqələrin tarixi və mahiyyəti, dövlət orqanları tərəfindən bu işin daha da səmərəli qurulması, idarəedilməsi və strategiyasından bəhs edilib.

**Açar sözlər:** ictimaiyyətlə əlaqələr xidmətləri, dövlət idarəetmə orqanları, səmərəlilik, stategiya, institusional qurum.

# ОСНОВНЫЕ ОСОБЕННОСТИ СВЯЗИ С ОБЩЕСТВЕННОСТЬЮ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

## РЕЗЮМЕ

Развитие связей с общественностью осуществлялось с начала 20-го века. Связи с общественностью на современном этапе являются быстроразвивающейся областью. Это связано с тем, что в современной конкурен-

тной среде государственные и частные организации весьма заинтересованы в установлении отношений с целевой аудиторией. Именно поэтому для достижения целей, поставленных организациями, особое внимание уделяется отношениям связи с общественностью. Благодаря связям с общественностью органы государственной власти и частные организации зарабатывают позитивное отношение и доверие своей аудитории. Те организации, которые хотят конкурировать, иметь хороший имидж и долгосрочное видение развития должны наладить связи с общественностью. Именно поэтому в статье рассматриваются история и сущность связей с общественностью, более эффективное построение, управление и стратегия правительства в данном направлении.

**Ключевые слова:** службы по связям с общественностью, органы государственного управления, эффективность, государственность, институциональная структура.

## MAIN FEATURES OF CURRENT PUBLIC RELATIONS IN STATE ADMINISTRATION

## ABSTRACT

The formation and development of public relations has been around since the 20th century. Public relations are a growing area of development in the modern state. State and private institutions in today's competitive environment are very interested in establishing relationships with targeted audiences, and they attach great importance to public relations in order to achieve these goals. Through public relations, public authorities and private organizations gain a positive attitude and confidence from their audiences. Organizations which want to compete better with their competitors, and have a good image and a long-term vision of development can do so through public relations. That is why this article deals with the history and essence of public relations, the more efficient construction, management and strategy of the government.

**Keywords:** public relations services, public administration agencies, efficiency, stategic, institutional structure.

Dövlət orqanlarında ictimaiyyətlə əlaqə xidmətinin spesifikası təkcə onların tətbiq etdiyi texnologiyaların müxtəlifliyi ilə müəyyən edilmir. Ən mühüm fərqləndirici cəhət dövlətin yürütdüyü real siyasətin qəbul edilməsidir. Siyasət cəmiyyətin maraqları istiqamətində aparılarsa, onda münasibətlər mexanizmi də səmərəli fəaliyyət göstərər. Belə olan halda ictimaiyyətlə əlaqə ümumiyyətlə, idarəetmənin və xüsusən də inzibati idarəetmənin mühüm komponentinə çevrilər. İctimaiyyətlə əlaqə xidmətləri optimal idarəetmə qərarlarının qəbulu üçün şərait yaradır, bir çox mübahisə və münaqişəli hallarda ilk zərbəni öz üzərinə

götürərək qabaqlayıcı proqramı həyata keçirirlər. Digər tərəfdən isə qəbul olunan dövlət qərarlarının reallaşdırılmasının səmərəsi də ictimaiyyətlə əlaqə xidmətinin bu prosesi necə müşayiət etməsindən asılıdır.

Son zamanlar sənayeləşmənin nəticəsi olaraq informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə əlaqədar ortaya çıxan yeniliklər, qloballaşma, biznes və idarəetmə sahəsində baş verən dəyişiklik rəqabətin artması və istehlakçı meyllərinin fərqlənməsi ilə birlikdə qurumlar üçün hədəf kütlələrlə təsirli ünsiyyət qurmaqda əhəmiyyətli fəaliyyətlərdən biri və ən əsası ictimaiyyətlə əlaqələr işidir.

Dövlət və bələdiyyə idarəetmə obyektləri məcmusuna daxil olan vətəndaşlar və onların təşkilatları ilə, bütövlükdə ictimaiyyətlə münasibətlərin qurulmasına xidmət edən subyektin xüsusi fəaliyyət sahəsi ictimaiyyətlə əlaqələr adı ilə idarəetmə elminə daxil olmuşdur. İctimaiyyətlə əlaqə ingilis dilindən tərcümədə "public relations", qısaca (PR) xalqla əlaqə mənasını verir. PR üzrə mütəxəssis ictimaiyyətlə əlaqələri necə qurmaq barədə məsləhət verən exspertdir. Mütəxəssislər tərəfindən ictimaiyyətlə əlaqələr haqqında müxtəlif fikirlər mövcuddur. Con Marston The Nature of Public Relations adlı kitabında ictimaiyyətlə əlaqələri "hədəf kütləyə təsir etmək üçün ictimaiyyətin razılaşması istiqamətində planlaşdırılmış əlaqələr kimi izah etmişdir" (4, s.11).

İctimaiyyətlə əlaqələr terminindən ilk dəfə ABŞ prezidenti Tomas Cefersonun istifadə etdiyi deyilir. O, 1807-ci ildə "Konqresə 7-ci müraciəti"nin qaralamasında ilk dəfə olaraq ictimaiyyətlə əlaqələr – PR terminini işlətmişdir. Bu termin altında o, ölkə miqyasında hökumətə inam ab-havasının yaradılmasını və bu işdə siyasi institutların səylərinin artırılmasını başa düşürdü (5, s.42).

Qərb ölkələrində dövlət səviyyəsində həyata keçirilən PR siyasəti bir aksioma əsaslanır: – "Hökumət xalqın rifahı və əmin-amanlığı naminə işləməlidir, lakin xalq da arxayın olmalıdır ki, hökumət onun rifahı naminə səmərəli işləyir". Məhz bu inam iqtidara imkan verir ki, ölkədə sabitlik yaratsın və öz siyasətini sakit şəraitdə həyata keçirtsin. Beləliklə, əhalidə hakimiyyətə qarşı inam yaratmaq dövlət strukturlarında ictimaiyyətlə əlaqələr strategiyasını təşkil edən başlıca məqsəddir.

Demokratik və müasir cəmiyyətdə dövlət xidmətlərinin aparılmasında xalqın məlumat sahibi olması bir haqq olaraq ortaya çıxır. Dövlət orqanlarının təqdim etdiyi xidməti tələb edən hər bir fərd işinin hansı mərhələdə olduğunu və qurumun fəaliyyəti barədə məlumat sahibi kimi lazımi orqanlara müraciət edə bilər. Bu mərhələdə özünə ən yaxın məntəqə olaraq ictimaiyyətlə əlaqələr departamentini görür. Ona görə də dövlət müəssisə və təşkilatlar üçün ən vacib fəaliyyətlərdən biri ictimaiyyətlə əlaqələr işidir.

Dövlət orqanlarının münasibət yaratdığı ictimai təbəqənin inam və dəstəyinin təmini məqsədi ilə iki istiqamətli rabitəyə əsaslanan ictimaiyyətlə əlaqələr işindən istifadə edilir. Nəticədə ictimaiyyətin, təşkilatın və cəmiyyətin istədiyi istiqamətdə dəyişikliklərin edilməsinə və beləliklə də qurum ilə ətrafı arasında

ən uyğun miqyasda harmoniya və tarazlığın təmin olunmasına yönəlik davamlı sistemli işlər görülür.

Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin ortaya çıxma səbəbləri aşağıdakılardır:

*– dövlət anlayışındakı dəyişmələr;*

*– dövlətin fəaliyyətində xalqın dəstəyinin hiss edilməsi;*

*– dövlətin funksiyalarının artması nəticəsində ortaya çıxan çətinlikləri aradan qaldırmağın səbəbləri.*

Ümumi olaraq qurum ilə hədəf kütlə arasında qarşılıqlı anlaşma, konsensus və əməkdaşlığı təmin etməyə, bu münasibətləri saxlamağa və idarəetməyə istiqamətlənmiş fəaliyyət kimi əsaslandırılan və günümüzün əsas peşələri arasında yer alan ictimaiyyətlə əlaqələr – media münasibətlərindən təşkilat mədəniyyətini formalaşdırmağa, təşkilati sosial məsuliyyətdən böhran idarəetməsinə, sponsorluq işlərindən ümumi marketinq ünsiyyətinə və təsirli idarəetmə formalarından lobbiçiliyə qədər çox müxtəlif tətbiq sahələrini əhatə edir.

ABŞ-ın PR mütəxəssisləri dövlət siyasəti sahəsində vəzifələrinə çox ciddi yanaşırlar. Onların fikrincə, bu vəzifələrə aşağıdakılar daxildir (2, s.86).

*– dövlət qurumlarının fəaliyyəti haqqında vətəndaşların məlumatlandırılması;*

*– dövlət proqramlarının həyata keçirilməsində vətəndaşların fəal iştirakının təmin olunması (əhalinin geniş təbəqələrinin siqaret çəkməyə, yol hərəkəti qaydalarının pozulmasına qarşı kampaniyalara, habelə seçkilərdə iştiraka və s. cəlb olunması);*

*– vətəndaşlar tərəfindən siyasətçilərin və onların müxtəlif proqramlarının dəstəklənməsinə stimul yaradılması.*

İctimaiyyətlə əlaqələr işinin təməl xüsusiyyətlərini aşağıdakı kimi sadalamaq olar (6, s.5):

* İctimaiyyətlə əlaqələr təşkilati iş olduğu üçün təşkilatlanma onun mühüm atributudur.

* Müəyyən bütövlük içərisində aparılan ictimaiyyətlə əlaqələr işi əvvəldən müəyyənləşdirilmiş məqsədə uyğun fəaliyyətdir.

* İctimaiyyətlə əlaqələr işinin qurumun məqsədlərinə çatması üçün müəyyən vasitələrə və vasitəçilərə ehtiyacı vardır. Kütləvi informasiya vasitələri başda olmaqla, hədəf kütlə ilə ünsiyyəti təmin edən hər cür vasitə və vasitəçi ictimaiyyətlə əlaqələrin əsas elementlərindəndir.

* İctimaiyyətlə əlaqələr dövlət idarəçiliyində dövlət-vətəndaş əlaqəsi, müəssisə idarəçiliyində firma müştəri əlaqəsi şəklində bir görünüşə sahibdir. Yəni həm dövlətdə, həm də özəl sektorda bu fəaliyyətin tərəfləri vardır.

* Qurum ilə hədəf kütlə arasındakı münasibətləri tənzimləyən bir sıra qanunlara ehtiyac vardır. Ona görə də qanunvericilik ictimaiyyətlə əlaqələr işi baxımından əhəmiyyətli yer tutur.

* İctimaiyyətlə əlaqələr işi yüksək texnologiya və keyfiyyətli kadr tələb edən fəaliyyətdir. Onların təmin edilməsi müəyyən maliyyələşdirmə məsələlərinin öyrədilməsi və araşdırılması üçün lazımi xarakterə malikdir.

* İctimaiyyətlə əlaqələr işinin məqsədinə çatıb-çatmadığını, qurum üçün faydalı olub-olmadığını müəyyənləşdirməklə bu fəaliyyətə ilk mərhələdən son mərhələyədək nəzarət etmək lazımdır. Ümumiyyətlə, nəzarət ictimaiyyətlə əlaqələr baxımından əhəmiyyətli bir məsələdir.

İctimaiyyətlə əlaqələrin ümumi quruluşunu təşkil edən bütün bu keyfiyyətlər əvəzolunmaz əhəmiyyətə malikdir.

Fərdlər istədikləri məlumatları oxuyub müşahidə və təhlil edərək və ya düşüncələri ilə analizdən keçirərək hipotezlər yaradaraq çata bilirlər. Bununla yanaşı, göstərilən metodlar vasitəsi ilə dövlət orqanlarındakı məlumatları əldə etmək mümkün olmur. Həmçinin fərdlər həyatlarının hər sahəsində inzibati prosedur və hərəkətlərlə qarşılaşaraq özlərinə təsir edən müdaxilələrə qarşı haqlarını müdafiə etmək üçün bu proseslərin necə və hansı yolla həyata keçirildiyini bilmək ehtiyacı duyur və məlumat sahibi olmaq istəyirlər (1, s.54-59).

Dövlət müəssisələrində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi üçün həyata keçirilən işlərdən xalqın xəbərdar edilməsi lazımdır. İctimaiyyətlə əlaqələr işinin əsas prinsipləri etik davranış prinsipləri ilə üst-üstə düşür. Dövlət müəssisələrində ictimaiyyətlə əlaqələr fəaliyyətində etik dəyərlərə diqqət etməli və bu dəyərlər ictimaiyyətlə əlaqə işləri üçün yol göstərici olmalıdır. Bu işlərdə etikadan kənar davranışların sərgilənməsinə icazə verilməməlidir.

Dövlət orqanları ictimaiyyətdə hər zaman müsbət təəssürat yaratmaq üçün hər şeydən öncə öz maraq və məqsədlərini həyata keçirtmək üçün ictimaiyyətlə əlaqələr işinə xüsusi əhəmiyyət verməlidirlər. Bunun üçün öz idarəetmə fəaliyyətləri haqqında cəmiyyətə informasiya verməli, ictimaiyyətin düşüncə və meylləri barədə məlumat sahibi olmalıdırlar. Həmçinin dövlət orqanları xalqın xidmətində durmaq ideyasından hərəkət edərək fəal və səmərəli xidmətlər göstərdikdə cəmiyyətdə də müsbət təəssürat yaradacaq. Belə olan təqdirdə ictimaiyyət həmişə həmin dövlət orqanına inam və dəstəyini göstərəcəkdir.

Demokratik ölkələrdə dövlət qurumlarına səlahiyyətli orqanların nümayəndələrinin seçilməsi ilə xalqın vəzifəsi heç də bitmir. Dövlət orqanlarında münasibətlərin demokratikləşməsi ilə xalqın verilən qərarlarda iştirak etməsi, fikirlərini bildirməsi və baş verənlərdən xəbərdar olması hüququnu qazanmış olur.

Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin xarakteri belədir:

– *dövlət idarəçiliyinin təşkilati quruluşu;*

– *dövlət idarəçiliyinin gücü;*

–*dövlət təşkilatlarını tənzimləyən hüquqi aktlar;*

– *dövlət idarəetmə rəhbərlərinin işçilərinə təsir etmə səviyyəsi.*

Dövlətin və qurumların əsas vəzifəsi xalqın tələblərini yerinə yetirmək, xalqa xidmət etməkdir. İctimaiyyətlə əlaqələrin əsas məqsədi qurumlarla içti-

maiyyət arasında əldə olunmuş anlaşmanın təmini, fəaliyyətin geniş təbliği, əhali ilə əlaqələrin möhkəmləndirilməsidir.

Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin məqsədini aşağıdakı kimi ümumiləşdirə bilərik:

– *ictimaiyyəti maarifləndirmək, təşkilatın apardığı siyasəti xalqa mənimsətmək;*
– *ictimaiyyətdə hakimiyyətə qarşı daha müsbət mövqe yaratmaq;*
– *rəhbərliklə olan münasibətlərdə xalqın işini asanlaşdırmaq;*
– *xidmətlərin aparılmasında ictimaiyyətlə əməkdaşlığı təmin etmək;*
– *qurum şəxsiyyəti yaratmaq və cəmiyyətə yaxşı mənada qəbul etdirmək;*
– *ictimaiyyətin dövlət orqanının işi istiqamətindəki meylini ölçmək və lazımi tənzimləmələr etmək;*
– *ictimaiyyəti dövlət orqanının xidmət siyasəti barədə məlumatlandırmaq və işini asanlaşdırmaq;*
– *ictimaiyyətə son qərarlar verməzdən əvvəl təşkilatların həyata keçirdikləri əhəmiyyətli layihələr barədə məlumat sahibi olmaq imkanını vermək;*
– *qərarların daha dəqiq olmasına təsir edəcək məlumatları dövlət orqanından əldə etmək;*
– *vətəndaşlara qanuni qaydalar haqqında məlumat vermək və onların qanunlara riayət etmələrini təmin etmək;*
– *dövlət orqanları ilə xalq arasında əməkdaşlığı təmin etmək.*

İctimaiyyətlə əlaqələr işi nəticəsində qurum mənasında "mən" düşüncəsi yerinə "biz" düşüncəsi qurum üzvlərinə məqsədli şəkildə mənimsədilir. Beləliklə, səmərəliliyi və məhsuldarlığı artıran bir element kimi ictimaiyyətlə əlaqələr işi institusional qurum mədəniyyətinə təsir göstərir. Burada ictimaiyyətlə əlaqələrin dövlət idarəçiliyindəki əhəmiyyəti ortaya qoyulmaqla, cəmiyyətlə dövlətin ortaq bir vəzifəsi kimi fəaliyyət göstərməsi vurğulanır.

Dövlət orqanları xalqda müsbət təəssürat yaratmaq üçün hər şeydən əvvəl öz məqsədləri istiqamətində əhaliyə doğru, səmərəli xidmət təqdim etməli və məqsədlərini reallaşdırmaq üçün ictimaiyyətlə əlaqələrə önəm verməlidirlər. Bunun üçün idarəetmə fəaliyyəti barədə cəmiyyətə məlumat təqdim etməli və cəmiyyətin hiss, fikir və meylləri haqqında məlumat sahibi olmalıdırlar. Bundan sonra hakimiyyət xalqa, cəmiyyətə fəal və səmərəli xidmət göstərərsə, nəticədə cəmiyyətdə müsbət təəssürat yaradacaqdır (3).

İctimaiyyətlə əlaqələr dövlət müəssisə və təşkilatlarında daxili və xarici dairələr arasında qarşılıqlı ünsiyyəti təmin edən bir idarəetmə prosesi olaraq açıqlana bilər. Buna uyğun olaraq ictimaiyyətlə əlaqələrin üç mərhələsi vardır. Birinci, iki istiqamətli bir əlaqənin mövcud olması; ikinci, məlumatlandırma, anlama və imic yaratmaqla ictimaiyyətə təsir göstərməsi; üçüncü, bir idarəetmə vəzifəsi olmasıdır.

Müasir dövrümüzdə ictimaiyyətlə əlaqələr işinin təsadüfi deyil, məqsədyönlü və sistemli olaraq öyrədilməsi və həyata keçirilməsi lazımdır. İctimaiy-

yətlə əlaqələr müasir idarəetmənin əsas elementlərindən biridir. Çünki ictimaiyyətlə əlaqələr təşkilatın işini daha gücləndirir və ona görə də bir idarəetmə funksiyası olaraq qəbul edilib. İnkişaf etmiş ölkələrdə ictimaiyyətlə əlaqələr daha səmərəli nəticələr əldə etmək məqsədi ilə mükəmməl hazırlanmış siyasət kimi təşkilat və qurumlar tərəfindən həyata keçirilir. Qurumların istənilən bölməsi müntəzəm surətdə ictimaiyyətlə əlaqəli siyasəti həyata keçirərkən, digər bölmələr hər hansı bir fərqli siyasəti yeridə bilməz, çünki o hədəf kütlənin gözündə tam təşkilat olaraq qəbul edilib. Ona görə də bu təşkilatın ictimaiyyətlə əlaqəli siyasəti qurumun bütün bölmələrini əhatə edərək həyata keçirilməlidir. Bu vəziyyətə uyğun olaraq ictimaiyyətlə əlaqələrin təşkilatın bütün şöbələrinə xitab etməsi, yəni qurumun üst dairələrinə yaxın bir şəkildə təşkilatlanması zərurətini ortaya çıxarır. Beləliklə, ictimaiyyətlə əlaqələrin əsas xüsusiyyətlərindən biri olan idarəetmə funksiyası təbii olaraq yaranır.

İctimaiyyətlə əlaqələrin mənası çoxsaylı elementlərin hamısına birgə təsiri olsa da media və xüsusən elektron medianın müstəsna rolu əsasında daha sürətlə və geniş inkişaf edib. Müasir ictimaiyyətlə əlaqələr (PR) nəzəriyyələrinin mükəmməl sosioloji, psixoloji və sosial-psixoloji kökləri vardır. Sosial kommunikasiya nəzəriyyəsinə söykənən bu anlayışın dövlət və bələdiyyə idarəçiliyində də tətbiqi səmərəli olmuş və bu gün də aktualdır.

**Nəticə.**

Son illər ictimaiyyətlə əlaqələr mövzusu dünyada əhəmiyyətli və inkişaf edən bir mövzudur. İctimaiyyətlə əlaqələrin təşkili və idarə olunması bu günün demokratik inkişaf, plüralizm, sosial dövlət prinsiplərini qəbul edən hər bir dövlətdə, eyni zamanda ölkə daxilində fəaliyyət göstərən qurum və şirkətlərdə aktual bir problem olaraq qarşıya çıxır. Demokratik prinsiplərin inkişafı, içtimaiyyətin fikirlərinə verilən əhəmiyyətin artması, şirkətlərin əhali arasında imicini yüksəltmək üçün göstərdikləri fəaliyyət və sərf etdikləri maddi resurslar içtimaiyyətlə əlaqələr anlayışının və idarəetmə sisteminin ölkəmizdə də önəmini artırıb.

**Ədəbiyyat:**


1. Aksoy, Necdet 2006, "Yerel yönetimlerde halkla ilişkiler ve teknoloji kullanımı", Türk idare dergisi, yıl 78, s. 452.
2. Cutlip, Scott M., A.H. Center və G.M. Brom., "Effective public relations" New Jersey 2009, p. 456.
3. http://kitaplar.ankara.edu.tr/dosyalar/pdf/118.pdf
4. John.E. Marston, The Nature of Public Relations, 1963, p. 363
5. William Albig, Modern Public Opinion, New York, Mc Graw Hill, 1986, p. 518
6. Zeyyat Sabuncuoğlu, İşletmelerde halkla ilişkiler, Ezgi Kitab Evi, Bursa, 2001, s. 84

**UOT 32**

# MĠLLĠ TƏHLÜKƏSĠZLĠYĠN TƏMĠN OLUNMASI SAHƏSĠNDƏ AZƏRBAYCANIN RUSĠYA VƏ NATO ĠLƏ ƏMƏKDAġLIĞI

**Ramid Söhbət oğlu HÜSEYNOV**
*dosent, siyasi elmlər üzrə fəlsəfə doktoru*
*H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi*
*Bakı, Azərbaycan*
*ramidhuseynov82@gmail.com*

**Asif Akat oğlu ASLANLI**
*polkovnik-leytenant*
*H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi*
*Bakı, Azərbaycan*
*aslanlia@outlook.com*

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində milli təhlükəsizliyinin təmin edilməsi, ölkənin dünya və regional dövlətləri üçün hərbi-strateji əhəmiyyəti nəzərdən keçirilir. Rusiyanın Cənubi Qafqaz siyasətindəki mövqeyi, Ermənistanla münasibətləri, habelə Azərbaycanın Qərb və NATO ilə yaxınlaşmasının səbəbləri aydınlaşdırılır. Azərbaycanın Rusiya və NATO ilə əlaqələrinin əhəmiyyəti, sülh və təhlükəsizlik, milli ordu quruculuğu və hərbi-siyasi əməkdaşlıqda qazanılan uğurlar və perspektivlər araşdırılır.

**Açar sözlər:** xarici siyasət, hərbi təhlükəsizlik, milli təhlükəsizlik, geosiyasət, Rusiya, NATO

## AZERBAIJAN RUSSIA AND NATO COOPERATION IN THE FIELD OF ENSURING NATIONAL SECURITY

## SUMMARY

This article considers issues of ensuring the national security of the Republic of Azerbaijan in foreign policy activities, the military-strategic significance of the country for the world and regional states. The position of Russia in South Caucasus policy, its relationship with Armenia, as well as the reasons for the turn of Azerbaijan to the West and NATO are clarified. Also, the importance of Azerbaijani, Russia and NATO relations, the achievements and prospects for peace and security, the building of the national army and military-political cooperation are examined.

**Key words**: foreign policy, military security, national security, geopolicy, Russia, NATO

# СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНА С РОССЕЙ И НАТО В ОБЛАСТИ ОБЕСПЕЧЕНИЯ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ


## РЕЗЮМЕ:

В статье рассматриваются вопросы обеспечения национальной безопасности Азербайджанской Республики во внешнеполитической деятельности, военно-стратегическое значение страны в мире и региональных государствах. Позиция России в политике Южного Кавказа, ее отношение с Арменией, а также выясняются сближение Азербайджана с Западой и НАТО. Исследуются значения достижений и перспектив в отношениях Азербайджана с Россией и НАТО, мира и безопасности, в создании национальной армии и военно-политического сотрудничества.


**Ключевое слова**: внешная политика, военная безопасность, национальная безопасность, геополитика, России, НАТО

**GiriŞ.** Dünyada təhlükəsizlik anlayışı dövlətlərin malik olduğu müdafiə potensialı ilə ölçülərək yalnız hərbi hazırlıq sahəsini əhatə etmir. Müasir dövrdə ayrı-ayrı dövlətlərin və bütövlükdə regionların təhlükəsizliyi siyasi, iqtisadi, xüsusilə isə enerji təhlükəsizliyinin təminatı baxımından səciyyələndirilir. Xüsusilə, iqtisadi təhlükəsizlik ölkənin milli təhlükəsizliyinin mühüm tərkib hissəsi olub, dövlətin geosiyasi gücü hesab edilməklə müstəqilliyin möhkəmlənməsinə xidmət göstərir.

Azərbaycan Respublikasının milli təhlükəsizliklə bağlı xarici siyasət fəaliyyətinin təhlili göstərir ki, müstəqilliyin ilk illərində ölkədəki qeyri-sabitlik, siyasi gərginlik, dövlət quruculuğu prosesləri, bütün daxili və xarici problemlər həm də onun təhlükəsizlik siyasətinə və beynəlxalq əlaqələrinə öz mənfi təsirini göstərmişdi. SSRİ-nin və keçmiş sosialist düşərgəsinin ənənəvi təsirindən tezliklə qurtulmaq, milli inkişaf və təhlükəsizliklə bağlı müstəqil daxili və xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini müəyyən etmək, beynəlxalq təhlükəsizlik siyasəti müstəvisinə çıxmaq və dünya sisteminə qatılmaq yeni və müstəqil dövlət üçün o qədər də asan iş deyildi. Bu istiqamətdə ən mühüm amil müstəqilliyin, suverenliyin, ölkənin ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasından ibarət idi. Ölkənin çox əlverişli təbii-coğrafi mövqeyi ona istər yaxın qonşu, istərsə də uzaq dövlətlərin diqqətini daim cəlb edir, bu maraqdan irəli gələn təcavüzkar niyyətlər həmin mürəkkəb şəraiti səciyyələndirirdi [1, s.3].

## Rusiya və NATO-nun Cənubi Qafqazda hərbi-geostrateji maraqları.

Beynəlxalq və regional təhlükəsizliklə bağlı dövlətlərin xarici siyasət fəaliyyətinin əsas ölçü meyarlarından birini *əlverişli beynəlxalq və regional təhlü-*

*kəsizlik mühitinin yaradılması, kollektiv və milli təhlükəsizliyin təminatı təşkil edir*. Qeyd olunan təhlükəsizliyin təmin olunması ilk növbədə hər bir dövlətin və vətəndaşların milli maraqlarına və mənafeyinə uyğun olaraq müəyyənləşir. Buna görə də Azərbaycan Respublikasının milli təhlükəsizlik və xarici siyasəti beynəlxalq aləmdə baş verən hadisələrin axarını və transmilli qloballaşma prosesinin xüsusiyyətlərini nəzərə almalı və bu sahədə mövcud olan bütün vasitələrdən istifadə etməlidir. Beynəlxalq geosiyasi prosesləri nəzəri və praktik cəhətdən düzgün qiymətləndirən Azərbaycan milli təhlükəsizlik sahəsində beynəlxalq və regional müstəvidə dövlətlərlə qarşılıqlı maraqlar çərçivəsində xarici siyasətini həyata keçirir.

XX əsrin sonlarında mövcud iki hərbi blokdan (NATO və Varşava Müqaviləsi Təşkilatı) birinin süqutu ilə qüvvələr balansı dəyişilməyə başladı. Eyni zamanda 1991-ci ildə SSRİ-nin süqutu da prosesləri daha da dərinləşdirdi və dünyanın geosiyasi xəritəsində yeni geosiyasi maraqların yaranmasına təkan verdi. Lakin 1992-ci ildə keçmiş SSRİ-nin mövcud olduğu Avrasiyanın əhəmiyyətli geosiyasi məkanlarına hər hansı xarici və kənar güc mərkəzlərinin daxil olmasının qarşısını almaq üçün Rusiya bəzi keçmiş sovet respublikalarının iştirakı ilə **Kollektiv Təhlükəsizlik Müqaviləsi TəÇkilatı adlanan** (KTMT) hərbi blok yaratmış oldu [ 2, s. 295]

Yarandığı gündən KTMT-nin və onun əsas himayədarı olan Rusiyanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsindəki regional təhlükəsizlik siyasətinin əsasında bölgə ölkələrini hərbi-təhlükəsizlik sahəsində NATO və Qərbin təsirindən qorumaq, onları vahid hərbi-strateji çətir altında saxlamaqdan ibarətdir. Əvvəllər özünü daha çox müxtəlif bəyanatlar verməklə təsdiq etdirməyə çalışan və üzv ölkələrin təhlükəsizliyini təmin etmək anlamında heç bir təşkilati strukturu və yaxud hüquqi səlahiyyəti olmayan KTMT, 2003-cü ilin oktyabrından konkret hərbi-siyasi blok adı ilə çıxış edir. Həmin il oktyabrın 7-də MDB-nin Kişinyov sammitində Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan prezidentləri *Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının* (KTMT) "vahid təhlükəsizlik qüvvələrinin" yaradılması haqda müqavilə imzaladılar. Buna baxmayaraq bu təşkilat sonrakı fəaliyyətində ciddi irəliləyişə nail ola bilməmişdir. Keçmiş sovet respublikalarının əksəriyyəti buna üzv olmaqdan imtina etmişlər.

KTMT fərqli olaraq NATO-un yarandığı dövrdən etibarən ümumi təhlükəsizliyin əldə edilməsi üçün məsuliyyətin bütün üzvlər arasında bərabər bölgüsü prinsipi əsasında fəaliyyət göstərməsi, son nəticədə onun səmərəliliyinə və davamlığına təminat yaratmış oldu [3, s.27]. Buna baxmayaraq yaranmış bu vəziyyət hərbi-siyasi təşkilat olan NATO-nun fəaliyyət prinsiplərində də yeni yanaşmaların, konsepsiyanın meydana gəlməsini zəruri etdi. Artıq NATO özünün mövcudluğunu davam etdirmək və gələcək fəaliyyətini müəyyən etmək üçün yeni hədəflər müəyyən etməli oldu. Bu zaman Alyansın strategiyasında müəyyən dəyişiklər özünə yer aldı.

Fəaliyyət prinsipləri, əldə edilmiş nəticələr yeni kiçik dövlətlərin, xüsusilə də yeni müstəqilliyini əldə etmiş və sovetlərə yaxınlığı ilə seçilən Şərqi Avropa dövlətlərini öz ətrafına çəkmə meyilləri surətləndirildi. 1991-ci ilin dekabrın 20-də Müttəfiqləri və yeni tərəfdaş dövlətləri birləşdirmiş Şimali Atlantika Əməkdaşlıq Şurası (ŞAƏŞ) - ümumi narahatlıq doğuran məsələləri müzakirə etmək üçün məsləhətçi strukturun təşkil edilməsi üçün şərait yaradıldı [4, s.194].

Məqsəd Alyansın sərhədlərinin genişləndirilməsi, tərəfdaşlarının sayının artırılması ilə geostrateji maraqların təmin edilməsidir. Müxtəlif regionlarda olduğu kimi Cənubi Qafqaz regionu da bu baxımdan çox mühüm əhəmiyyət kəsb edirdi. Regionun birbaşa Rusiya Federasiyası ilə sərhəddə yerləşməsi, zəngin karbohidrogen yataqlarına malik olması və Rusiyanın bura tarixi maraqları baxımından çox həssas yanaşması bu əhəmiyyəti daha da artırmış olur.

Təsadüfi deyil ki, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri və geostrategiya üzrə dünya miqyasında tanınmış Z.Bjeziniskinin fikirlərindən aydın olur ki, böyük enerji resurslarına malik olan Xəzər regionu XX-XXI əsrlərin qovşağında təkrarən dünyada ən başlıca geosiyasi əhəmiyyət daşıyan bir məkana çevrilmişdir. Bu isə o deməkdir ki, regionun faydalı və təbii ehtiyat baxımından ən zəngin dövləti olan Azərbaycan bu gün dünya siyasətinin əsas aparıcı dövlətləri olan Rusiya ilə ABŞ arasındakı çəkişmələrin meydanına çeviriləcək [5, s.170].

Rusiya Federasiyası heç bir halda özünün maraq dairəsində olan keçmiş sovetlərə daxil olan dövlətləri qərbə güzəştə getmək istəmir. Qərb isə regiondakı maraqları naminə hər cür vasitələrə əl atmaqdan çəkinmir. Belə şəraitdə region dövlətlərinin, xüsusən də Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunması problemi gündəmə gəlir. Bütün bunlar bu regionun həssas olmasından və super güc sayılan ABŞ və Rusiyanın bölgədəki ortaq maraqlarını nəzərə alaraqdan həyata keçirilir.

Dediklərimizi əsaslandırmaq üçün 2009 və 2010-cu illərdə qəbul olunmuş "Rusiya Federasiyasının 2020-ciilədək Milli Təhlükəsizlik Strategiyası" və Hərbi Doktrinasında [6, 7]. təsbit edilmiş bir neçə müddəaya diqqət yetirək: "*Rusiya lazım gəldikdə öz təhlükəsizliyini təmin etmək məqsədilə başqa region dövlətlərinin sərhədləri daxilində hərbi güc tətbiq etmə hüququna malikdir."* Bu da mütəxəssislərin fikrincə, postsovet, xüsusən də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsinin dövlətləri üçün Rusiyanın hərbi-geostrateji təhlükə mənbəyi olaraq qalmasının göstəricisi hesab olunur. Onların fikrincə, əslində, mövcud yanaşma ilə Rusiya beynəlxalq hüququn müstəqil ölkələr üçün tanıdığı - *"öz inkişafını, daxili və xarici siyasətini, milli təhlükəsizlik məsələlərini sərhədləri daxilində sərbəst müəyyən etmək"* və s. kimi hüquqlarına məhəl qoymadan, Avrasiya ölkələrinin NATO təhlükəsizlik sisteminə çıxışını çətinləşdirmək, Qərblə hərbi inteqrasiyasını və bu sahədə hər hansı formada sərbəst siyasət yürüdülməsi prosesini əngəlləmək məqsədini ortaya qoymuşdur. "Bir

ölkənin təhlükəsizlik və digər həyati maraqlarının, eyni statuslu başqa müstəqil dövlətlərin müvafiq haqlarının hesabına təmin edilməsini" mütəxəssislər birmənalı şəkildə beynəlxalq hüquqa və BMT Nizamnaməsinə zidd sayırlar [8].

**Azərbaycanın təhlükəsizlik maraqları və regional hərbi-strateji mövqeyi.**

Deməli, haqlı olaraq Azərbaycan Respublikası üçün dünyanın aparıcı dövlətlərinin maraqlarının toqquşduğu bir şəraitdə öz suverenliyini, müstəqilliyini, milli təhlükəsizliyini təmin etmək baxımından balanslaşdırılmış xarici siyasətin yürüdülməsi hal-hazırda məqsədəuyğun hesab etmək olar. Çünki bu regionda hər hansı bir gərginliyin və ya münaqişənin yaranması, ilk növbədə, böyük enerji ehtiyatlarına və layihələrinə malik olan Azərbaycan üçün arzuolunmaz haldır.

Bu mənada Azərbaycan Rusiya ilə müttəfiqlik əlaqələrini, iqtisadi-siyasi münasibətləri qoruyub saxlamaqla bərabər onun artan təsirini neytrallaşdırmaq, asılılığı azaltmaq məqsədilə qərbə inteqrasiya yolunu seçməsini, NATO ilə hərbi-siyasi əməkdaşlıq etməsini, onun müəyyən etdiyi bəzi prinsipləri rəhbər tutmasını düzgün addım kimi dəyərləndirilə bilər. *Təhlükəsizlik maraqları* çərçivəsindən yanaşdıqda, birmənalı şəkildə təsdiq etmək olar ki, Azərbaycanın milli mənafeləri Rusiya ilə rəqiblik deyil, əksinə, bərabərhüquqlu, qarşılıqlı faydalı və strateji tərəfdaşlıq münasibətlərinin yaradılması və inkişafını tələb edir.

Hazırda Cənubi Qafqazda bitərəf təhlükəsizlik siyasəti yürüdən Azərbaycan həm Rusiya və KTMT, həm də ABŞ və NATO ilə tərəfdaşlıq münasibətləri saxlamağa çalışır. Bu sahədə Rusiya ilə yaranan yeganə problem onun Cənubi Qafqazda Ermənistan kimi militarist bir ölkəyə göstərdiyi hərtərəfli hərbi yardımla bağlıdır. Bəzi mütəxəssislərin fikrinə görə, Rusiya tarixi ənənələrə söykənərə Cənubi Qafqazda maraqlarını qoruyub saxlamaq üçün burdakı nəzarətini əldən vermək istəmir. Azərbaycan-Ermənistan arasında yaranmış hərbi münaqişə vəziyyətə nəzarət etmək üçün mühüm vasitələrdən biridir. Münaqişənin həllinin uzadılması bu nəzarətin də genişlənməsinə şərait yaradır.

Habelə, politoloqların apardığı təhlillərdən və regionda cərəyan edən hərbi-siyasi vəziyyətdən belə qənaətə gəlmək olar ki, Rusiyanın hazırkı təhlükəsizlik maraqları *"Dağlıq Qarabağı nə Ermənistana vermək, nə də Azərbaycana qaytarmaq"* məqsədinə uyğundur. Çünki Moskva bu münaqişədən bəhrələnərək hər iki ölkənin beynəlxalq fəaliyyətini və regional siyasətini öz təsiri altında saxlamaq istəyir. Başqa sözlə ifadə etsək, münaqişələrin birdəfəlik həlli, regional sülhün, təhlükəsizliyin bərqərar olması istər regiona, istərsə də konkret ölkələrə olan münasibətdə Rusiyanın geostrateji məqsədlərinə ziddiyyət təşkil edir.

Cənubi Qafqazda Rusiyanın Ermənistana güclü iqtisadi və hərbi yardım göstərməsi, onun işğalçı ordusunu təmənnasız silahlandırması, bir tərəfdən Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin uzanmasına səbəb olur, danışıqlarda qeyri-konstruktivliyə təşviq edir, digər tərəfdənsə Azərbaycanın beynəlxalq təhlükəsizlik siyasətinə, regional hərbi-geostrateji seçiminə fərqli təsir

göstərir. Bununla Rusiyanın Dağlıq Qarabağ münaqişəsindən Azərbaycana təsir göstərmək üçün ciddi bir mexanizm olaraq istifadə edir.

Belə olan təqdirdə, Rusiyanın Cənubi Qafqaz siyasətində tutduğu mövqeyi, Ermənistana olan fərqli münasibəti Azərbaycanın qərbə doğru tam olaraq inteqrasiya etməsinə, NATO-ya daha çox yaxınlaşmasına təsir göstərir. Lakin bu yaxınlaşmaq heç də Azərbaycanın Rusiya ilə əlaqələrinin tamamilə pozulmasına gətirib çıxarmaq məqsədi daşımır. Çünki Azərbaycan yaxşı başa düşür ki, Rusiya kimi böyük qonşusu ilə münasibətlərin daim qorunub saxlanılması ölkənin milli maraqları çərçivəsindədir. Bu regional sülhün və təhlükəsizliyin təmin olunması, həm də Rusiya ilə tarixi iqtisadi-siyasi-mədəni əlaqələrin inkişafı üçün vacibdir.

Azərbaycan rəsmiləri dəfələrlə bəyan etmişlər ki, onların ölkəsi Rusiya və KTMT ilə hər hansı ikitərəfli və çoxtərəfli əməkdaşlığın, hərbi-strateji tərəfdaşlığın əleyhinə deyil. Azərbaycanın Rusiya və KTMT ilə əməkdaşlığına bilavasitə təsir göstərən ən əsas məsələ onun pozulmuş ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsindəki fəaliyyətlə bağlıdır.

Beləliklə, özünün milli təhlükəsizlik maraqlarını düzgün dəyərləndirən Azərbaycan Rusiya ilə münasibətlərini müttəfiqlik səviyyəsində qoruyub saxlamaqla, iqtisadi-siyasi, hərbi sahədə əməkdaşlığı davam etdirməklə bərabər həm də qərbə doğru inkişaf etməyə, NATO-ya yaxınlaşmağa çalışır və buna müəyyən mənada nail olmaqdır. Çünki NATO-nun qəbul etdiyi prinsiplər, təhlükəsizlik sistemi Azərbaycanın milli mənafeyinə və təhlükəsizliyinə cavab verir. Həmin prinsiplərin bəzilərinə nəzər salaq [9, s.212; 10, s.13]:

- *kollektiv təhlükəsizliyə üzv olan hər bir dövlətin kollektiv təhlükəsizliyi təmin edilir;*
- *demokratiya-sülh, insan hüquqları, suverenlik, ərazi toxunulmazlığı qorunur;*
- *konsensus-qərar ümumi razılıq əsasında qəbul edilir;*
- *qarşılıqlı təhlükəsizlik -üzv olan dövlət hərbi büdcələri haqqında məlumat verilir;*
- *birgə hərbi təlimlər planlaşdırılır və həyata keçirilir.*

Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində həyata keçirdiyi islahatlarda əsas məqsəd NATO-nun ekspertiza xarakterli yardımı və NATO standartlarının tətbiqi ilə mülki-demokratik nəzarət altında, effektiv və ölkənin ehtiyaclarına uyğun ölçüdə müdafiə və təhlükəsizlik sektorunu inkişaf etdirməkdir. Azərbaycanın müdafiə və təhlükəsizlik sektorunda aparılan islahatlar nəticəsində ölkəmiz meydana çıxan təhlükəsizlik təhdidlərinə adekvat cavab verməsinə nail olmaqdır [11].

Azərbaycanla NATO arasında qarşılıqlı münasibətlərin ilk təzahürləri 1992-ci ilin oktyabrında özünü göstərirdi. O zaman yenicə müstəqillik qazanmış ölkəmizin nümayəndə heyəti NATO üzvü olan dövlətlərin Türkiyədə təşkil

olunmuş seminarında iştirak edirdi. Seminar zamanı Azərbaycan nümayəndələri NATO-nun baş katibi M.Vernerlə görüşmüşlər. Burada qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmiş, ikitərəfli əməkdaşlığın inkişafının zəruriliyi qeyd olunmuşdur.

Şuranın vəzifəsi təhlükəsizlik sahəsində əməkdaşlığa və ölkələr arasında münasibətlərin inkişafına yardım göstərməkdən ibarət idi. 1992-ci ilin martında ŞAƏŞ-nin tərkibi genişləndirildi və Azərbaycan da daxil olmaqla 11 MDB dövləti bu quruma qəbul edildi. Beləliklə, Azərbaycan-NATO əməkdaşlığı inkişaf dövrünə qədəm qoydu.

1993-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzələrinin transmilli təhlükəsizliyi və region ölkələrinin milli ordu quruculuğu işinə cəlb edilməsi, 1994-cü ildən Xəzər hövzəsi və Orta Asiyanın enerji ehtiyatlarının Qərbin enerji təhlükəsizliyi ilə əlaqələndirilməsi, Rusiyanın bölgə üzərində hegemon geosiyasi və geoiqtisadi mövqeyinin zəiflədilməsi istiqamətində müxtəlif proqramların reallaşdırılması və s. tədbirlər həyata keçirilməkdədir [2, s. 309-312].

4 may 1994-cü ildə Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulması haqqında SNT Çərçivə Sənədini imzalamışdır [12, s.43].

994-cu ildən etibarən Azərbaycan həm özünün milli təhlükəsizliyinin, eyni zamanda beynəlxalq və regional sülhun təmin olunması istiqamətində dünya dövlətləri ilə əməkdaşlığını genişləndirməyə başlamışdır. Xüsusilə də Ermənistanla atəşkəs sazişinin imzalaması bu sahədə işlərin daha effektiv həyata keçirilməsinə şərait yaratdı. Təhlükəsizlyin qorunub saxlanılmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə Azərbaycan da öz töhfəsini verdi.

NATO ilə gələcək əməkdaşlıq sahələrini müəyyən etmək məqsədilə Azərbaycan SNT Təqdimat sənədini hazırlayaraq 1996-cı ilin aprelində Alyansa təqdim etmişdir. İkitərəfli əməkdaşlığa hərbi əməkdaşlıq, hərbi modernizasiya, silahlı qüvvələr üzərində demokratik nəzarət, təhlükəsizlik məsələləri üzrə siyasi məsləhətləşmələr, sülhməramlı əməliyyatlar, təhlükəsizlik sektorunun islahatı, mülki-fövqəladə planlaşdırma, təhlükəsizliklə əlaqədar elmi, iqtisadi və ətraf mühit üzrə əməkdaşlıq kimi sahələr daxil olunmuşdur.

NATO-nun Azərbaycanda *"Sülh Naminə Tərəfdaşlıq proqramı"*nın əsas məqsədləri aşağıdakılardır:

1. *müdafiə qüvvələri üzərində demokratik nəzarət həyata keçirmək;*
2. *milli müdafiəni planlaşdırmaq, ölkələr arasında sülh və sabitlik yaratmaq;*
3. *humanitar əməkdaşlıq yaratmaq;*
4. *hərbi təlimlərin birgə hazırlığı, birgə əməliyyat və döyüş hazırlığını həyata keçirmək.*

NATO-nun Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasında rolunu nəzərə alan Heydər Əliyev deyirdi: *"Biz NATO-ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda təcrü-*

*bəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq"* [13, s.347]. Azərbaycan Respublikası Avroatlantik strukturları ilə tərəfdaşlığı bütövlükdə Avroatlantik məkanında ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür. Azərbaycan Respublikası Avropa və Avroatlantik məkanında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropada və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir [10. s.16-18].

1997-ci ildən Azərbaycan öz qoşunlarını NATO standartlarına uyğunlaşdırmaq istiqamətində Planlaşdırma və Analiz Prosesinə qoşdu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "NATO/SNƏ" kafedrası yaradıldı. SNT çərçivəsində sülhqoruma əməliyyatlarında iştirak etmək üçün sülhməramlı bölük yaradıldı. Azərbaycan hərbi qüvvələrinin nümayəndələri NATO xətti ilə keçirilən "Kooperativ Bear-98, "SMX-98", "Kooperativ Key-98" təlimlərində iştirak etmişdilər. Müdafiə və təhlükəsizlik sahəsində NATO ilə əməkdaşlığın başlıca məqsədlərindən biri də ekspertiza xarakterli yardımın və NATO standartlarının tətbiqi ilə mülki-demokratik nəzarət altında, effektiv və ölkənin ehtiyaclarına uyğun ölçüdə müdafiə və təhlükəsizlik sektorunu inkişaf etdirməkdir.

2001-ci ilin 11 sentyabr hadisələrinədək ABŞ-ın Azərbaycanla bağlı siyasətində daha çox enerji maraqları üstünlük təşkil edirdisə, sonrakı mərhələdə onun siyasətində yeni meyillər özünü göstərməyə başladı, xüsusilə qlobal terrorizmə qarşı mübarizədə, Cənubi Qafqazın regional təhlükəsizliyinin təmin olunması münasibətində tərəfdaşlıq məsələləri ön plana çıxdı. Azərbaycan regionda ABŞ-ın beynəlxalq terrorizmə qarşı apardığı siyasəti fəal şəkildə dəstəkləyən ölkələrdən biri, müsəlman dövlətlərindən isə birincisi oldu. Onun hərbi hissələrinin Əfqanıstan, Kosova və İraqda beynəlxalq sülhyaratma qüvvələrinin tərkibində ABŞ-la yanaşı iştirak etməsi iki ölkə arasında təhlükəsizlik sahəsində sonrakı strateji tərəfdaşlığa ciddi təkan verdi.

Azərbaycanın NATO üçün hərbi-geostrateji əhəmiyyətini artıran amillərdən biri də Rusiya və İranla qonşu dövlət olmasıdır. NATO Azərbaycan ərazisindən üçüncü dövlətə qarşı istifadə etməkdə maraqlı olsa da, Azərbaycan özünün təhlükəsizliyi məsələsini öndə tutaraq daim bu fikrə qarşı çıxmışdır. Azərbaycanın öz milli təhlükəsizliyi naminə ortaya qoyduğu bu mövqe təbii ki, NATO ilə hərbi tərəfdaşlıq məsələlərinə də mənfi təsir göstərməyə bilməzdi. Nəzərə alsaq ki, söhbət Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasından gedir, onda aparılan siyasətin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha görmüş olarıq.

Şübhəsiz ki, NATO region dövlətlərinə köməklik etməklə bərabər öz geostrateji maraqlarını da nəzərdən qaçırmır. Yəni bölgə ölkələrini Rusiyanın geosiyasi və hərbi-geostrateji təsirindən çıxararaq öz maraqları çərçivəsində istifadə etmək, digər tərəfdən isə onların hərbi-siyasi idarəçilik strukturlarını

NATO standartlarına uyğunlaşdırmaqla öz təsiri altında saxlamağa çalışır. Belə şərait bölgə ölkələrindən adekvat və düşünülmüş siyasət tələb edir. Məhz öz təhlükəsizliyini qorumaq üçün Azərbaycan Respublikası NATO-ya üzvlüyü özünün əsas hədəfi kimi deyil, ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək vasitəsi kimi qəbul etmiş və bu qurumla əməkdaşlıq etməyi ona üzvlük məsələsindən daha üstün tutmuşdur [2, s.244].

Daha dəqiq ifadə etsək, təşkilata üzvlük Azərbaycanın qonşu Rusiya ilə münasibətlərinin zəifləməsinə səbəb ola bilər. Bu müxtəlif sahədə əlaqələrin korlanması ilə bərabər, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin suverenliyinin, müstəqilliyinin, ərazi bötüvlüyünün təmin olunması məsələsinə də öz mənfi təsirini göstərəcəkdir. Digər tərəfdən isə NATO-ya üzvlük müəyyən standartlar tələb etdiyindən, Azərbaycanın da tam olaraq bu standartlara cavab verməməsi prosesi ləngidir. Dağlıq Qarabağ münaqişəsinin həllinə hər zaman beynəlxalq hüquq normaları çərçivəsində münasibət bildirən NATO rəhbərliyi probleminin suverenlik və ərazi bütövlüyü prinsipi əsasında həllini dəstəkləyir. NATO Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində birbaşa rol oynamasa da, hesab edir ki, münaqişənin həllində ərazi bütövlüyü prinsipi əsas götürülməlidir. Lakin ABŞ-ın bu məsələyə qeyri-prinsipial və ikili yanaşması Azərbaycanın ictimai rəyində birmənalı qarşılanmır.

NATO ilə müxtəlif sahələrdə əməkdaşlığın davam etməsi hazırkı məqamda Azərbaycanın milli və hərbi təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verməkdədir. Birgə əməkdaşlığın, qarşılıqlı təcrübə mübadiləsinin davamı olaraq əldə edilmiş nəticələr və qarşıda duran vəzifələrin daha səmərəli və effektiv həlli üçün Azərbaycan Respubikasının Milli Təhlükəsizlik Konsepsiyası (2007), habelə həmin konsepsiyanın hərbi təhlükəsizliklə bağlı müddəalarının reallaşdırılmasını və onların inkişafını istiqamətləndirən Hərbi Doktrinası (2010) qəbul edilmişdir. Hərbi Doktrina *vətəndaşların, cəmiyyətin və suveren dövlət hakimiyyətinin xarici hərbi basqınlardan, hər hansı təhlükə və təhdidlərdən qorunması taktikasını* müəyyənləşdirir.

Beləliklə, nəticə etibarilə qeyd etmək olar ki, bu gün Azərbaycan-NATO əlaqələri yüksək səviyyədə inkişaf edir və müasir dövrün tələblərinə tamamilə cavab verir. Ölkə rəhbərliyinin NATO-nun mənzil qərargahına – Brusselə etdiyi səfərlər zamanı, baş katiblərlə görüşləri, qarşılıqlı fikir mübadiləsi, müxtəlif məsələlərin müzakirəsi əlaqələrin gələcək inkişafına öz töhfəsini verməkdədir. Azərbaycanın regiondakı rolunu düzgün dəyərləndirən NATO rəhbərləri, ölkənin Avropanın enerji təhlükəsizliyində oynadıqları rolu xüsusilə vurğulayırlar. Bu amil özü də NATO-Azərbaycan əlaqələrinin daha da inkişaf etməsinə öz müsbət təsirini göstərir.

**Nəticə.**

Aparılmış təhlillərdən belə qənaətə gəlirik ki, Azərbaycanın hərbi-geostrateji durumu, milli maraqlara söykənən, həmçinin, balanslaşdırımış xarici siyasət xətti və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də

Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində dayanır. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə balanslı, tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları onun təhlükəsizlik mühitinə və beynəlxalq nüfuzuna müsbət təsir edir. Bu mənada Azərbaycanın davamlı olaraq müstəqillik illərində yürütdüyü dinc tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq, milli maraqlara əsaslanan təhlükəsizlik siyasəti ona "regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət" imici qazandırmışdır. Ölkənin Rusiya və NATO ilə hərbi-siyasi münasibətləri, təhlükəsizliyinin təmini, ordu quruculuğu və digər sahələrdə qarşılıqlı əməkdaşlığı Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır.

**Ədəbiyya:**


1. Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, s. 171
2. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Nəşriyyat evi, 2011, s. 423
3. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000) Bakı: Adiloğlu, 2001, 256 s.
4. NATO məlumat kitabı. NATO ictimai diplomati şöbəsi. 1100 Brüssel. Belçika, 2001, s. 388
5. Babaoğlu H. "Azərbaycan Respublikasının dünya siyasətində yeri və rolu" Bakı: Çinar, 2009, 328 s.
6. http://nvo.ng.ru
7. http:// www.rg.ru
8. "Зеркало" qəzeti 2 sentyabr 2010-cu il.
9. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: Çaşıoğlu, 2002, s. 527
10. Əliyeva A. "NATO-da hərbi siyasi islahatlar və Azərbaycan" mövzusunda s.e.ü.f.d. dissertasiyasının avtoreferatı. Bakı, 2011, s. 27
11. htpp://www.mia.gov.az
12. Əhmədov E. "Azərbaycan Respublikasının Avtoatlantik və təhlükəsizlik institutları ilə əməkdaşlığı". s.e.ü.e.d. dissertasiyasının avtoreferatı. Bakı, 2015, s. 72
13. Əliyev H. Müstəqillik yollarında, I cild. Bakı, 1997, s. 423

**UOT 327; 930.22**

## ABġ-IN YAXIN ġƏRQ NEFTĠNƏ TAM NƏZARƏT VƏ SĠYASĠ MÖVQEYĠNĠ GÜCLƏNDĠRMƏK SĠYASƏTĠ

**Südabə Əhliman qızı YUSĠFOVA**

*Qərb Universiteti*
*yusifova-1995@list.ru*

## XÜLASƏ

Məqalə ABŞ-ın Yaxın Şərq neftinə tam nəzarət və siyasi mövqeyini gücləndirmək siyasətinə həsr edilmişdir. Belə ki, ABŞ hesab edir ki, Yaxın Şərq mühüm regiondur və buradakı vəziyyət Amerikanın maraqlarını və iqtisadi təhlükəsizliyini birbaşa təhdid edə bilər. Aparılan "demokratik" eksperimentdən sonra region onlarla, bəlkə də yüzlərlə ekstremist və terrorçu qruplaşmaların tüğyan etdiyi, dağıntılar içində olan bir məkana çevrilmişdir. Başqa sözlə, nəticə bəyan edilən vəzifələrin tam əksinədir. Əlbəttə, konspiroloqlar deyə bilərlər ki, nəhəng banklar və transmilli şirkətlər kimi gizli qüvvələr elə bunu, yəni regionun parkalanmasını, qlobal kapitalın nüfuzunun yayılmasına mane olan milli dövlətlərin zəifləməsini, bu kapitalın Yaxın Şərqin bazarlarına daxil olması üçün şəraitin yaradılmasını istəyirdilər.

**Açar sözlər:** Ərəb bahar, Siyasi ixtilaflar, proqnoz, regionda terror, geosiyasi.

## US POLICY TO IMPROVE FINAL OIL AND POLITICAL POLICY

## ABSTRACT

This article focuses on the policy of the US to control Middle East oil and to strengthen its political position. The US believes that the Middle East is an important region and the situation here can directly threaten America's interests and economic security. After the "democratic" experiment carried out, in recent decades, the Eastern Region has become a place in the ruins, with dozens or perhaps hundreds of extremist and terrorist groups. In other words, the result is exactly the opposite. Conspiracy theorists say that secret powers, such as giant banks and transnational companies have created conditions for the fragmentation of the region; The weakening of the nation states has prevented the spread of global capital and that entry of this capital into the markets of the Middle East has been interrupted.

**Keywords**: Middle East, conflict, financial aid, plan, roadmap, Eastern Region

# ПОЛИТИКА США ПО СОВЕРШЕНСТВОВАНИЮ КОНЕЧНОЙ НЕФТЯНОЙ И ПОЛИТИЧЕСКОЙ ПОЛИТИКИ

## РЕЗЮМЕ

Статья посвящена политике США по контролю над ближневосточной нефтью и укреплению ее политической позиции. США считают, что Ближний Восток является важным регионом, и ситуация здесь может непосредственно угрожать интересам Америки и экономической безопасности. После проведенного «демократического» эксперимента регион превратился в руины, где находятся десятки или, возможно, сотни экстремистских и террористических групп. Другими словами, результат с точностью до наоборот. Конечно, заговоры могут сказать, что секретные державы, такие как гигантские банки и транснациональные компании, стремились создать условия для фрагментации региона, ослабления национальных государств, которые препятствуют распространению глобального капитала и проникновению этого капитала на рынки Ближнего Востока.

**Ключевые слова**: "Arab Spring", political conflicts, prognosis, terror in the region, geopolitical

Asiyanın qərbində yerləşmiş Yaxın və Orta Şərq regionuna Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Əfqanıstan, Ürdün, İraq, İran, İsrail, Yəmən, Kipr, Küveyt, Livan, Misir, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Türkiyə və hələ müstəqil dövlət kimi tam formalaşmamış Fələstin daxildir. İran və Əfqanıstan Orta Şərqə, digər dövlətlər isə Yaxın Şərqə aid edilir [1, s.16].

20-ci əsrdə ölkələr baxımından strateji önəm daşımağa başlayan enerji qaynaqları, bu əhəmiyyətini gedərək daha da artırmaqdadır. Enerjiyə olan asılılığın və tələbin artmasına cavab olaraq enerji qaynaqları da sürətlə azalmaqdadır. Bu vəziyyət bütün diqqətlərin enerji bölgələrinə yönəlməsinə səbəb olmuşdur. Bu bölgələrin başında da Orta Şərq gəlməkdədir. Bu çərçivədə məqalənin məqsədi, Orta Şərq enerji qaynaqlarının 20-ci əsrdə olduğu kimi 21ci əsrdə də dünya iqtisadiyyatı baxımından əhəmiyyətini açıqlamaqdır. Bu məqsəd çərçivəsində, məqalənin ilk hissəsində Orta Şərq və strateji əhəmiyyəti haqqında məlumatlar verilmişdir. Daha sonra bölgənin dünyaya nisbətlə neft və təbii qaz ehtiyatları, istehsal və istehlak dəyərləri araşdırılmışdır. Bunlardan əlavə qlobal güclərin Orta Şərq siyasətinə və

Yaxın və Orta Şərq bölgəsinin 21-ci əsrdəki strateji əhəmiyyətinin açıqlanmasına diqqət yetirilmişdir [1, s.23].

Bir neçə ildir ki, dünya geosiyasətində Yaxın Şərq faktoru ciddi yer tutur. "Ərəb baharı" adlanan proses meydana çoxlu sayda problemlər çıxardı. O zamandan başlayaraq, həmin regionun taleyi ilə bağlı müxtəlif proqnozlar verilir. Məsələ həm də ondan ibarətdir ki, "Ərəb baharı" hadisəsinin mahiyyəti tam

aydın deyil. Bunun fonunda regionda terror, liderlik uğrunda rəqabət, dini məzhəbçilik kimi hallar yeni səviyyəyə qalxıb. Hazırda Yaxın Şərq alov içindədir. İŞİD o dərəcədə fəaliyyətini genişləndirib ki, onun qarşısını almaq çox çətindir. Eyni zamanda, regionun bir sıra dövlətləri arasında rəqabət daha kəskin mərhələyə qalxıb. Yaranmış bu vəziyyətin bölgəni haraya apara biləcəyini proqnozlaşdırmaq xeyli çətinləşib.

2011-2014-cü illərdə "Ərəb baharı"nın təsir etdiyi ölkələr bütövlükdə 800 milyard ABŞ dolları həcmində zərər görüblər. Etiraf edək ki, bu, kifayət qədər böyük rəqəmdir.

Özü də bu, həmin prosesin yalnız maliyyə tərəfini ifadə edir. Daha çox narahat edən isə "Ərəb baharı"nın geniş kontekstdə geosiyasi, mədəni, sosial-psixoloji nəticələridir. O cümlədən Yaxın Şərq və Şimali Afrikada meydana gələn mürəkkəb, risklərlə dolu vəziyyət düşündürücüdür [2, s.36].

Hazırda Yaxın Şərqdə geosiyasi proseslərin dinamikasını müəyyənləşdirmək çətindir. Burada hadisələr bir-biri ilə o dərəcədə qarşılıqlı əlaqədədirlər ki, onları proqnozlaşdırmaq çox mürəkkəb məsələyə çevrilib. Siyasi ixtilaflar, dövlətçiliyin tənəzzülü, terror, dini radikalizmin vüsət alması, iqtisadi deqradasiya və s. kimi hallar regionda olduqca qeyri-müəyyən bir mənzərə yaradıb.

Burada mütləq kənar qüvvələrin Yaxın Şərqdə fəaliyyəti də vurğulanmalıdır. Çünki bu faktor kifayət qədər güclü təsirə malikdir. Hətta burada hadisələrin inkişaf ssenariləri əsasən böyük geosiyasi qüvvələrin planları üzrə baş verir. Mütəxəssislər bu məqamı daim xatırladırlar. Regionda sabitliyin formalaşmamasının başlıca səbəbi kimi də məhz bu məqamı göstərirlər. Suriya, İraq, Misir, Liviya, Livan və digər nümunələrdə bu fikrin təsdiqini tapmaq mümkündür [2, s.41].

İraq uzun illərdir ki, terrorun, siyasi qarşıdurmaların, dini məzhəbçilik və enerji mənbələrini ələ keçirmək uğrunda mübarizə aparan qrupların savaş meydanına çevrilib. İndi bu ölkədə vəziyyət daha mürəkkəbdir. Sünni və şiə qrupları arasında müşahidə edilən ziddiyyətlər, mərkəzi hökumətlə kürd muxtariyyəti arasındakı ixtilaflardan başqa, İŞİD terroru da ərazi bütövlüyü üçün böyük təhlükə yaradıb.

Artıq o, dünya miqyaslı problemə çevrilib. Bu təşkilat İraqda yeni-yeni əraziləri zəbt etməkdədir. Bir neçə gün əvvəl İŞİD növbəti şəhəri işğal edib. Maraqlıdır ki, çoxlu sayda dövlətlərdən ibarət olan beynəlxalq koalisiya da həmin təşkilatı dayandıra bilmir. Buna əsaslanan bir sıra ekspertlər İŞİD-in hansısa böyük bir dövlətin planının olduğunu qeyd edirlər [3, s.18].

Məsələnin bu şəkildə qoyuluşu Yaxın Şərqdə təxmin ediləndən daha miqyaslı və qorxulu proseslərin getdiyini göstərir. Çünki terrorun həmin regionun sərhədlərini aşaraq digər bölgələrə yayılması ehtimalı yüksək olaraq qalır. Hətta onun Uzaq Şərqə qədər gedib çıxa bilməsi haqqında informasiyalar da daxil olmaqdadır. Eyni zamanda, Yaxın Şərqdə geniş miqyaslı terror qalmaqda davam

edirsə, bu, həmin regionda sabitliyin təminində ciddi problemlərin qalması deməkdir.

Bu aspektdə təhlükə mənbəyi yalnız İraq deyil. Suriya kifayət qədər həssas məkana çevrilib. Belə ki, İŞİD burada da çox fəaldır. Bu terror təşkilatı nəinki Suriyada öz nüfuzunu saxlayır, üstəlik, regionun başqa ölkələrini də hədələməkdə davam edir. Belə çıxır ki, İŞİD-i Yaxın Şərqin geosiyasi mənzərəsini şərtləndirən faktorlardan biri kimi qəbul etmək olar.

Mütəxəssislər bu məqamı vurğulamaqla region üçün ciddi təhlükənin mövcudluğuna işarə verirlər. Həmin çərçivədə burada geosiyasi proseslərin gedişatının mümkün ssenariləri haqqında fikir söyləmək olar.

Bu kontekstdə İsrail-Fələstin münasibətləri maraq doğurur. Tərəflər arasında son qanlı toqquşmalardan sonra gərginlik bir qədər azalıb. Lakin bu, aldadıcı hal hesab edilir, çünki bir sıra radikal dini qrupların İsrailə qarşı sərt addımlar atması gözlənilir.

Xüsusilə rəsmi Təl-Əvivin müsəlmanlar üçün müqəddəs sayılan bir neçə yerə müdaxiləsi sərt reaksiya ilə qarşılanıb. Bu proses Yaxın Şərqin böyük dövlətlərinin geosiyasi nüfuz uğrunda apardıqları mübarizənin fonunda ayrıca məzmun kəsb edir.

Məsələ burasındadır ki, hazırda Yaxın Şərq uğrunda Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, İran və Türkiyə arasında mübarizə növbəti səviyyəyə yüksəlib. Burada daha çox Ər-Riyadla Tehran arasında gedən kəskin rəqabətdən bəhs olunur. Hətta bir sıra ekspertlər İŞİD məsələsini Səudiyyə Ərəbistanı faktoru ilə əlaqələndirir [3, s.22].

Bunun doğru olub-olmadığını demək çətindir, ancaq bu cür fikirlərin sünni-şiə qarşıdurmasını şiddətləndirə biləcəyini istisna etmək olmaz. Bununla yanaşı, bölgə dövlətlərinin nüfuz savaşında məzhəb amilinin yer alması təhlükəli bir haldır.

Göstərilən şərtlər daxilində Yaxın Şərqdə proseslərin inkişaf ssenarisində qeyrimüəyyənlik faktorunun mühüm yer tuta biləcəyini proqnozlaşdırmaq olar. Bütövlükdə həmin bölgə ciddi risklərlə dolu məkana çevrilmiş olur.

Dünyanın böyük dövlətlərinin burada oynadıqları rolu ayrıca qiymətləndirmək gərəkdir. ABŞ, Aİ, Rusiya və Çin öz maraqlarına uyğun addımlar atırlar. Əgər Pekin daha çox iqtisadi, enerji və mədəni aspektlərə üstünlük verirsə, Vaşinqtonla Brüssel siyasi, təhlükəsizlik və enerji sferalarına nəzarəti tam ələ keçirməyə çalışırlar. Rusiya son zamanlara qədər həmin regionun müəyyən hissəsində fəal idi. Ancaq indi Qərbin Ukrayna məsələsinə görə bu ölkəyə ciddi sanksiyalar tətbiq etməsi ilə Yaxın Şərqdə Moskva bir qədər arxa plana keçib. Kreml daha çox iqtisadiyyatda özünü büruzə verən tənəzzülün qarşısını almaqla məşğuldur.

Bu o demək deyil ki, Yaxın Şərqdə Rusiya öz nüfuzunu saxlamağa çalışmayacaq. Hesab edirəmki, bütün hallarda Moskva həmin regionda öz varlığını

bu və ya digər dərəcədə nümayiş etdirmək üçün addımlar atacaq. Onun bununla nələrə nail ola biləcəyi isə artıq başqa məsələdir. [3, s.31].

Rusiyadan fərqli olaraq, Avropa İttifaqının Yaxın Şərq siyasətində Amerikanın iradəsindən kənarda hansısa ciddi addım atacağını demək çətindir. Xüsusilə indiki mürəkkəb bir geosiyasi vəziyyətdə Brüssel həmin istiqamətdə riskə getməz. Mümkündür ki, bir sıra lokal xarakterli problemlər üzrə Aİ müstəqil mövqe nümayiş etdirsin. Yaxın və

Orta Şərq daima ABŞ-ın xarici strategiyasında vacib prioritetlərdən biri olub. Vaşinqton üçün bu region yalnız neft və qaz resursları ilə zəngin ərazi deyil, həm də Birləşmiş Ştatların əsas silahı olan ekstremist qüvvələrin cəmləşdiyi ərazidir. Yaxın və Orta Şərq əvvəlki kimi ABŞ-ın qlobal strategiyada istinad nöqtəsidir və başlıca olaraq regionda siyasi burulğana düşmüş müttəfiq dövlətlərə əsaslanır. Lakin, hər şeyə baxmayaraq, ABŞın Yaxın Şərqdə mövqelərinin möhkəmlənməsi Amerikanın qlobal strategiyasının əsas elementlərindən biri hesab olunur. BŞ-ın Suriyaya qarşı apardığı kampaniyadan geri çəkilməsinin, bu kampaniyada istədiyinə nail ola bilməməsinin etirafıdır. İkincisi hesab edirəm ki, bu etirafın formalaşmasına təsir edən amillər sırasında Bəşər Əsədin keçən ilin iyun ayında əhalinin böyük əksəriyyətinin səsini toplayaq prezident seçilməsi faktının da təsiri var. Bundan savayı Bəşər Əsədə qarşı ABŞ-ın formalaşdırdığı müxalifət qüvvələrinin ön sıraları parçalanıb və artıq müxalif qüvvələr Bəşər Əsədə qarşı özlərini buraxmış elan ediblər. Hətta yanvar ayında Suriya müxalifəti ilə iqtidarının dialoqu təşkil olunmuşdu. Bu isə o deməkdir ki, Suriya müxalifətinin mövqeyi xeyli zəifləmişdi. Bütün bu faktlar məhz ABŞ-ı Suriya ilə bağlı siyasətdə geri addım atmağa məcbur edib”. Hazırda dünya KİV-ində aydın şəkildə göstərilir ki, məhz ABŞ və Qərbin digər böyük dövlətləri "İraq və Şam İslam Dövləti" (İŞİD) kimi qruplaşmanın başında dururlar və bu qruplaşma artıq xərçəng xəstəliyi kimi genişlənərək Asiya və Afrikada ərəb və digər xalqları yeni fəsadlarla üzləşdirir. İraq və Suriyanın ərazilərinin böyük hissəsini zəbt etməklə İŞİD qruplaşması İordaniya və Səudiyyə Ərəbistanının sərhədlərinə yaxınlaşıb və artıq dəfələrlə Məkkənin ələ keçirilməsi təhdidi yaranıb. Qərb analitik dairələri müsəlman dövlətləri ilə bağlı mütəmadi təhlillər aparır və proqnozlar verirlər. Onlar iki aspektə maraq kəsb edir. Birincisi, Qərbdə müsəlman dövlətləri haqqında hansı mövqe mövcuddur? İkincisi, İslam ölkələrinin gələcəyini Qərbdə necə görürlər. Çünki analiz və proqnozlar adətən müəlliflərin həm də öz istəklərini ifadə edir. Bu səbəbdən ABŞ və Avropa ölkələrinin analitik-ekspert dairələrinin düşüncələri diqqəti çəkir [4, s.53].

Yaxın Şərq siyasəti üzrə Vaşinqton İnstitutunun eksperti Ceffri Uatt müsəlman dövlətləri arasındakı münasibətlərlə bağlı bəzi tezislər irəli sürüb. O, əsas olaraq İran-Türkiyə-Səudiyyə Ərəbistanı "üçbucağı"nda gərgin mübarizənin gedəcəyini proqnozlaşdırır. Onun fikirlərinə görə, bunun fonunda bütövlükdə Yaxın Şərqdə geosiyasi mənzərənin dinamikası yeni məzmun çalarları kəsb edəcək. Ekspert İran faktorunun geosiyasi çəkisini məhz həmin kontekstdə

müəyyənləşdirməyə çalışır. Hazırda Qərb Rusiyanın bu fəaliyyətinə qısqanclıqla yanaşır. Amma bu faktdır ki, Rusiya tutduğunu buraxmaz. Bu gün Rusiyanın siyasəti Suriyanı Yaxın Şərqdə aparıcı dövlət kimi qoruyub saxlamaqdır. Hesab edirəm ki, Rusiya buna nail olacaq. Bir sözlə, Rusiya özünün keçmiş mandatı olan ərazilərdə mövqelərini möhkəmləndirməyə çalışacaq. Qərb isə məcburdur ki, bu prosesi müşahidə etsin. Dünya vaxtı ilə bölünüb və bu bölgünü pozmaq niyyəti Qərbi Rusiya ilə toqquşdurdu. Və dünya müharibəsini yaxınlaşdırdı. Bu gün tərəflər köhnə varianta qayıtsalar məsələlər bununla da bitəcək.

Qeyd edək ki, İŞİD-ə rəhbərlik edənlər təkcə ABŞ və Avropa dövlətlərində yeni terror aktları törətməyi deyil, həm də KQS-dən istifadəni planlaşdırırlar. Bəs əgər onların bu cəhdi uğurla nəticələnərsə, onda nə baş verər? Eyni zamanda, İŞİD ekstremistlərinin törətdiyi qəddar cinayət yalnız dünya ictimaiyyətində dəhşətli cəza vermə deyil, həm də bir faktdır ki, onların "insani düşüncə" normasını aşan və sosial ədalətin bərpası adı altında fəaliyyəti müxtəlif ölkədən minlərlə müsəlman gəncin onlara qoşulmasını təşviq edir. Qərb dövlətləri isə mahiyyətcə reallığı görmək istəmirlər və yeni beynəlxalq terror təhlükəsini dərk etmirlər. Belə yanaşma Yaxın Şərq regionunu mürəkkəb burulğana, qeyri-müəyyənliyə aparır, çünki burada böyük həcmdə alışan kütlə toplanmışdır. Onu vurğulamaq istərdim ki, Şimali Afrikada da kənar qüvvələrin mübarizəsi geosiyasi mənzərənin əsas elementidir. Burada ABŞ, Fransa və Çin arasında rəqabət daha kəskindir. Lakin bu, regionda terrorun getdikcə güclənməsi fonunda baş verir. Burada cərəyan edən proseslərin gərginliyi Yaxın Şərqdəkindən heç də az deyil. Mütəxəssislər Şimali Afrikada baş verən hadisələri Yaxın Şərqlə qarşılıqlı əlaqədə proqnozlaşdırırlar.

Nəhayət, Yaxın Şərq üçün dünyanın böyük dövlətlərinin burada öz maraqlarını qorumaq planlarından əl çəkməməsi ciddi problem olaraq qalır. Həmin məqam regionun gələcək taleyində qeyri-müəyyənliyin və təhlükələrin geniş yer alacağına dəlalət edir. Bu isə özlüyündə Yaxın Şərqin hələ bir müddət geosiyasi spekulyasiyalar məkanı kimi qalmaqda davam edəcəyi anlamına gəlir.

**Nəticə.**

Bütün bunlar yuxarıda göstərilən hər iki regionda geosiyasi vəziyyətin inkişaf ssenarilərinin özündə bir neçə təhlükəli məqamı saxladığını ifadə edir. Hər şeydən əvvəl, bütövlükdə regionda sabitliyin və davamlı inkişafın təmin olunacağını demək çətindir.

Qeyri-müəyyənlik və ixtilaflara apara bilən risklərin bir müddət qalacağını proqnozlaşdırmaq olar.

Bunun fonunda region ölkələrinin dövlətçiliyi üçün təhlükələrin olduğunu demək mümkündür. Ekspertlər həmin bölgədə yerləşən ölkələrin bəzilərinin sərhədlərinin dəyişə bilməsindən yazırlar. Həmin sırada İraq, Suriya, Səudiyyə Ərəbistanının adı çəkilir, onların bir neçə kiçik hissələrə parçalana biləcəyi ehtimalından bəhs olunur. Ümumilikdə isə Yaxın Şərqdə belə ssenarinin reallaşma-

sı mümkündürsə, onda burada yaxın perspektivdə geosiyasi vəziyyətin aydınlaşacağı ehtimalı minimumdur.

**Ədəbiyyat:**

1.Soltanova H.B., Məmmədov C.A. "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası" (dərslik). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2008, s. 304
2.Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi//Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2007, s. 516.
3.Tayyar ARI, "Geşmişten Günümüze Orta Doğu, Siyaset, Savaş ve Diplomasi", Bursa, 2014
4. ABŞ-ın Yaxın və Orta Şərq siysəti mövzusu//diss. Bakı, 2007
5. Turan Kışlakçı, "Arap Baharı", 2013, İstanbul.

UOT 32

# ВКЛАД ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИЕ КУЛЬТУРНЫХ ОТНОШЕНИЙ СО СТРАНАМИ БЛИЖНЕГО ВОСТОКА

**Илаха Магеррам кызы МАМЕДОВА**

*Институт истории Национальной*
*Академии Наук Азербайджана*
*Докторант Западно-Каспийского университета*

## РЕЗЮМЕ

В статье отмечается вклад Гейдара Алиева в культурное развитие АзССР в столь сложный исторический период, когда Азербайджан был фактически лишен права построения независимых отношений с зарубежными странами. Ни для кого не секрет, что Гейдар Алиев имел личные дружеские отношения со многими лидерами ближневосточных стран. Это сыграло большую роль в строительстве культурных отношений со странами этого региона. Также в статье охвачены все сферы развития культурных отношений с этими странами.

**Ключевые слова:** Гейдар Алиев, Ближний Восток, развитие, культурное сотрудничество

## 1970-CĠ ĠLLƏRDƏ YAXIN ġƏRQ ÖLKƏLƏRĠ ĠLƏ MƏDƏNĠ ƏLAQƏLƏRĠN ĠNKĠġAFINDA HEYDƏR ƏLĠYEVĠN ROLU

## XÜLASƏ

Məqalədə Azərbaycanın faktiki olaraq xarici ölkələrlə müstəqil münasibətlər qurmaq hüququndan məhrum olduğu bir çətin tarixi dövrdə, Heydər Əliyevin Azərbaycan SSR-in mədəni inkişafına verdiyi töhfələrdən bəhs olunur. Heç kimə sirr deyil ki, Heydər Əliyev Yaxın Şərq ölkələrinin bir çox liderləri ilə şəxsi dostluq münasibətləri qurmuşdu. Bu, bölgə ölkələri ilə mədəni əlaqələrin qurulmasında böyük rol oynadı. Məqalədə eyni zamanda, bu ölkələrlə mədəni əlaqələrin inkişafının bütün sahələri öz əksini tapmışdır.

**Açar sözlər:** Heydər Əliyev, Yaxın Şərq, inkişaf, mədəni əməkdaşlıq

# HEYDAR ALĠYEV'S CONTRĠBUTĠON TO THE DEVELOPMENT OF CULTURAL RELATĠONS WĠTH THE COUNTRĠES OF THE MĠDDLE EAST ĠN THE 1970S


## ABSTRACT

This article reviews the contribution of Heydar Aliyev to the cultural development of the Azerbaijan SSR in such a difficult historical period when Azerbaijan was virtually deprived of the right to build independent relations with foreign countries. It is no secret that Heydar Aliyev had friendly relations personally with many leaders of Middle Eastern countries. This played a big role in building cultural relations with the countries of this region. The article also covers all areas of development of cultural relations with these countries.


**Keywords:** Heydar Aliyev, Middle East, development, cultural cooperation

После назначения Гейдара Алиева I секретарем ЦК КПСС, Азербайджанская ССР превратилась в центр проведения культурных мероприятий. За эти годы азербайджанская наука, образование и культура благодаря Гейдару Алиеву получила шанс для интеграции в мировое сообщество. Особенно его интересовали мусульманские страны. Именно ему удалось убедить всех в том, что мусульманские страны сыграют примерную роль для Азербайджанской ССР.

Хотя по конституции СССР союзные страны и имели право вступать в отношения с иностранными государствами, но фактически они были лишены права вести независимую внутреннюю и внешнюю политику. В таких тяжелых политических условиях, Гейдару Алиеву удается расширить связи с иностранными государствами. Немалое внимание он проявлял ближневосточным странам. Ни для кого не секрет, что он имел личные дружеские отношения с лидерами многих ближневосточных стран.

Не имея возможности развивать двусторонние политические отношения, Гейдар Алиев занимался развитием культурных связей. Культурное сотрудничество Азербайджанской ССР со странами Ближнего Востока осуществлялись практически во всех еѐ сферах. В 70-е-80-е годы Азербайджан имел культурные связи с 860 организациями 120 стран мира (5, с.126).

Особое внимание Гейдар Алиев уделял обучению зарубежных студентов в Азербайджанской ССР, так как будучи дальновидным политиком, осознавал, что получив советское образование, они по возвращении на родину, будут вести просоветскую пропаганду и тем самым можно уменьшить антисоветские силы в этих странах. И как следствие этого за 1970-1980-е годы количество зарубежных студентов стало возрастать.

Большой наплыв был с ближневосточных стран, а особенно с Сирии, Египта и Ирака. Резкое возрастание студентов был ввиду того, что после назначения Гейдара Алиева первым секретарем ЦК КПСС, он стал уделять большое внимание качеству науки и образования в стране, а также созданию для зарубежных студентов хороших бытовых условий. Также увеличению количества зарубежных студентов повлияло создание отдела международных связей при Министерстве высшего и среднего специального образования в 1962 году, а уже в период правления Гейдара Алиева в 1971 году Секретариата по работе с иностранными студентами.

В 70-е годы продолжали крепнуть культурные связи СССР с ближневосточными странами. Были заключены соглашения о совершенствовании культурного сотрудничества с Ираком (1972 г.), НДРЙ (1972 г., 1974 г.), Турцией (1972 г,1975 г.,1978 г.), Кувейтом (1975 г.). С Египтом произошло свертывание культурных связей, ввиду общего ухудшения отношения с этой страной. В расширении международных культурных связей Советского Союза большая роль принадлежала Азербайджану.

С назначением Гейдара Алиева I секретарем ЦК КПСС АзССР культурное развитие началось и в области книготорговли. Так, за 1970 год книгоэкспортный отдел «Азеркитиба» отправил в зарубежные страны 13.770 экз.книг на сумму 10.949 руб., при плане 6 тысяч рублей (3, ф.28,оп.12, л.6). Одним из крупнейших заказчиков на азербайджанскую книгу являлся Иран. С представителем Иранской книготорговой фирмы был заключен договор о поставке в Иран около 5 тысяч экз. книг. В Турцию на международную Измирскую ярмарку «Азеркитаб»ом отправлено 136 названий книг издательств республик на сумму 121 рублей.

В Сирию по линии «Общества дружбы и культурных связей» посылались иллюстрированные брошюры «Дворец Ширваншахов», «Архитектурные памятники Азербайджана», «Музей истории Азербайджана», книги арабского алфавита Н.Гянджеви «Сокровищница тайн», Дж. Мамедкулизаде «Избранные произведения», М.А. Сабира «Хопхопname» (3, ф. 2693, оп.1, л.25).

По линии «Общества дружбы и культурных связей» с зарубежными странами также в Ирак отправлялось большое количество материалов. Это сочинения Низами, Физули, Сабира, Дж. Мамедкулизаде, С,Вургуна и др. на арабском, русском и французских языках, 1400 экземпляров номера бюллетеня «Советский Азербайджан сегодня» на арабском языке – 200 экземпляров (3, ф.2693, оп.1, л.14,18). Только музей им. Низами послал национальному музею Ирака 400 книг различного профиля (4,46).

С 1969 года по май месяц 1972 года в Сирийскую Арабскую Республику отправлено 14 экз. плакатов с изображением герба и флага Азербайджана, 70 экз. – плакатов с портретом М.Физули, 25 экз. – альбомов, 36 экз. – книг и учебников, 410 экз. – бюллетеней и газет (3, ф. 2693, оп.1, л.104).

Были подготовлены на русском, английском, французском, арабском, персидском языках и направлены за рубеж в 69 адресов статьи, ответ секретаря Республиканского юбилейного комитета, доктора филологических наук М.Кулизаде «Имадеддин Насими, к 600-летию со дня рождения», М.Ибрагимова «Насими и его время», профессора Дж.Каграманова «О рукописях списков произведений Насими» и др. В адрес посольств и генконсульств СССР в странах Арабского Востока послано 300 экз. брошюр академика Г.Араслы «Имадеддин Насими», выпущенных на арабском языке издательством «Азернешр» (3, ф.2693, оп.1, л.7). Были посланы книги, информационно пропагандистские материалы 68 советским посольствам, консульствам, представительствам ССОД, Домам советской культуры в страны Ближнего Востока. Таким образом, «Общество дружбы и культурной связи» сыграло немалую роль в расширении культурных отношений со странами Ближнего Востока.

Расширился и межбиблиотечный обмен. В 1970 году библиотека АН Азербайджанской Республики сотрудничала с 538 организациями в 53 странах мира. Увеличился объем литературы, посылаемой за границу и получаемой из-за рубежа. При этом значительное внимание уделялось укреплению сотрудничества с восточными странами. Ряд новых партнеров появился в Иране (редакция журнала «Гардашлыг»), Турции (Тюркологический институт), Иране (Институт развития Иранской цивилизации) и др.

За период 1971-1973 годов фундаментальная библиотека Академии наук Азербайджанской Республики и Республиканская библиотека им. М.Ф.Ахундова направили в библиотеки Ирана более 900 книг и журналов, а из Ирана получено 563 книги и журнала (3, ф.28, оп.12, л.68).

Одной из форм культурного сотрудничества АзССР со странами Ближнего Востока были гастрольные поездки азербайджанских музыкантов, певцов, композиторов, писателей, архитекторов и др. в эти страны. Особенно эти поездки участились в 1970-е годы, благодаря инициативе Гейдара Алиева. Так, в 1970 году в Турцию гастрольную поездку совершили З.Ханларова, А.Исрафилов, Т.Бакиханов, Б.Мурадов, А.Кулиев. В 1973 году писатель Габиль посетил Египет и Сирию. В 1973 году азербайджанские композиторы Ниязи, Полад Бюль-Бюль оглы, Ф.Караев также выезжали в Турцию. Академик М.А.Усейнов выступил на международном конгрессе известных архитекторов в г. Исфагане (Иран) на тему: «Сочетание элементов древней Иранской архитектуры с современной архитектурой» (3, ф.28, оп.12, л.50).

В декабре 1971 года в Багдад (Ирак) были отправлены произведения азербайджанских композиторов в нотной записи, в том числе симфонические мугамы «Шур» и «Курд овшары» Ф.Амирова, концерт на арабские темы Ф.Амирова и Э.Назировой, партитуры оперы «Кер-оглы» Уз.Гаджибекова, балета «Легенда о любви» А.Меликова, сборник азербайджанских

композиторов, симфонии, симфонические сюиты и т.д. По Багдадскому радио транслировалась опера Уз.Гаджибекова «Лейли и Меджнун» в исполнении солистов Азербайджанского театра оперы и балета, отрывки из опер «Севиль» Ф.Амирова, «Шах Исмаил» М.Магомаева, произведения К.Караева, А.Меликова, А.Бадалбейли, народная музыка – песни, танцы, концерты азербайджанских певцов Бюль-Бюля, Р.Бейбутова, Ш.Алекперовой, Ислама Рзаева и других (3, ф.28, оп.12, л.50).

1970-е годы характеризовались значительным динамизмом и расширением театральных связей. Появились новые формы таких связей. Стали практиковаться выезды азербайджанских специалистов в зарубежные страны для постановки национальных произведений. Для осуществления постановки оперы «Кероглы» А.Сайгына Ниязи в 1977 году находился в Турции (1, ф.13, оп.1, связка 31, л.316.).

Начавшиеся в 70-е годы процессы разрядки международной напряженности способствовали развитию культурных связей в области кинематографии. Интенсивным становилось сотрудничество Азербайджана со странами Азии. В мае 1970 года в Сирию и Ирак выезжали творческие работники киностудии «Азербайджанфильм» кинорежиссер Я.Эфендиев и кинооператор З.Магеррамов для съемок эпизодов полнометражного документального фильма «Поэма об Азербайджане». На международной ярмарке в г. Измире (Турция) в августе-сентябре 1970 года демонстрировались документальные фильмы студии «Азербайджанфильм» - «Шекинский дворец», «Азыхские пещеры», «Здравствуй, Азербайджан» и др (3, ф.411, оп.47, л.79).

Все больший интерес к азербайджанской культуре, к киноискусству проявлял Ирак. С 18 по 20 декабря 1971 года во время дней азербайджанской культуры в Ираке демонстрировались художественные фильмы «Аршин мал алан», «Не та, так эта», «На дальних берегах» производства студии «Азербайджанфильм» (3, ф.2693, оп.1,л.5,9). В Басре был показан документальный фильм «Искусство Азербайджана». В кинотеатрах и по телевидению демонстрировались азербайджанские фильмы.

Недели иранских фильмов прошли в Баку и Сумгаите. В связи с этим в Азербайджан прибыл представитель Министерства культуры Ирана – директор синдиката кинотеатров г. Тегеран и Генеральный секретарь Первого Международного Тегеранского кинофестиваля художественных фильмов А.А.Аштиани (3, ф.28, оп.12, л.32). В 1970 году на международной ярмарке в городе Измире (Турция) были продемонстрированы телефильмы «Песни Апшерона», «Азыхская пещера», «Тесниф» и др.

Работники азербайджанского радио и телевидения расширили контакты и обмен опытом радио и телевидения с ближневосточными коллегами. В 1970 году в Баку находились заместитель генерального директора

Иранского радио и телевидения Гамид Саид и директор Иранского телевидения Ясин Аль-Баку.

Еще одной формой культурного сотрудничества являлся обмен произведениями изобразительного искусства и проведение фотовыставок, которые отображали картину жизни и культуры Азербайджана. В 1973 году были изданы каталоги выставок работ художника Салама Саламзаде «По арабским странам, Египет, Сирия, Ливан, Иран», которые были отправлены в эти страны. Большим тиражом в Москве издан и отправлен за рубеж в 82 адреса красочный плакат двух размеров – цветная фоторепродукция портретов Насими работы художника М.Абдуллаева (3, ф.2693, оп.1, л.83). По государственному плану культурного обмена с зарубежными странами на 1974 год были организованы международные выставки: выставка азербайджанских художников на Международной ярмарке в Каире. В 1977 году Ираке открылась персональная выставка народного художника Н.Абдуррахманова.

С 25 мая по 5 июня 1971 года в Азербайджанской Республике проводились дни советско-иракской дружбы. Иракскую делегацию возглавил заместитель министра информации Ирака Заки-аль-Джабир. В дни дружбы было создано Азербайджанское отделение общества советско-иракской дружбы. С 18 по 20 декабря 1971 года в Ираке проводились дни дружбы на примере Азербайджанской Республики. Делегация азербайджанской общественности побывала в Мосуле, где приняла участие в мероприятиях дней дружбы. 9 апреля 1973 года в Доме дружбы было проведено торжественное собрание, посвященное первой годовщине подписания договора о дружбе и сотрудничестве между СССР и Иракской Республикой. На собрании присутствовали иностранные граждане, обучающиеся в учебных заведениях г. Баку и представители посольства Иракской Республики в Москве (2, ф.1, оп. 60). Президент Общества Саад Абдель Баки заявил, что дни дружбы являются новым вкладом в развитие дружественных отношений между иракскими и азербайджанскими народами.

16 мая 1973 Азербайджанское общество дружбы и культурной связи с зарубежными странами провело мероприятие, посвященное 2-ой годовщине советско-египетского Договора о дружбе и сотрудничестве (2, ф.1, оп.60). 4-11 июня 1973 года в Баку в Доме дружбы была проведена Неделя солидарности с арабскими народами (2, ф.1, оп.60).

**Заключение.**

Таким образом, не смотря на то, что в проводимой Советским государством внешней политике далеко не всегда учитывались интересы союзных республик, благодаря Гейдару Алиеву, Азербайджан добился многого в области расширения культурных связей с иностранными государствами, а в частности с ближневосточными. Культурные связи Азербайджанс-

кой ССР со странами Ближнего Востока осуществлялись практически во всех еѐ сферах: в области литературы, книгоиздания, книгообмена, музыкального искусства, театра, кинематографии, телевидения и радиовещания, книжных выставок и ярмарок. Были установлены связи между поэтами и писателями, организовывались гастрольные поездки. Были проведены многочисленные выставки и ярмарки произведений художников. Азербайджанская общественность также активно участвовала в международных культурных связях.

**Литература:**


1. Архив Министерства Культуры Азербайджанской Республики
2. Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики
3. Государственный Архив Азербайджанской Республики
4. Гасымлы М.Дж. Азербайджан в международных культурных связях (1946- 1990 гг.). – Киев, 2004, 300 с.
5. Саядов С.А. Азербайджан: международные связи и взаимопонимание. Баку, Азернешр, 1991, 221 с.

## ƏDƏBĠYYAT

**UOT 8 -1/-9:-3(82-94)**

# MÜASĠR BƏDĠĠ-SƏNƏDLĠ NƏSR NÜMUNƏLƏRĠNDƏ ĠNTERMEDĠALLIQ: "ƏDƏBĠYYAT VƏ MUSĠQĠ"

**Lalə Tofiq qızı HƏSƏNOVA**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Nizami adına Ədəbiyyat İnstitutu*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*hltlala@mail.ru*

## XÜLASƏ

Məqalədə müasir bədii-sənədli nəsrdə intermediallıq məsələləri öyrənilmişdir. Mövzu Anarın "Sizsiz" romanı, "Kərəm kimi" (N.Hikmətin həyat və yaradıcılığı haqqında düşüncələr romanı), Ə.Əmirlinin "Ağdamda nəyim qaldı" əsərləri əsasında araşdırılmış, müəlliflərin bir çox hallarda bəzən dövrün atmosferini, personajların əhval-ruhiyyəsini canlandırmaq, çox zaman isə mürəkkəb psixoloji məqamları göstərmək məqsədi ilə musiqiyə müraciət etdikləri aydınlaşmışdır.

**Açar sözlər:** bədii-sənədli nəsr, musiqi, ədəbiyyat, xatirə, elmlərin qarşılıqlı əlaqəsi.

## ИНТЕРМЕДИАЛЬНОСТЬ СОВРЕМЕННОЙ ХУДОЖЕСТВЕННО-ДОКУМЕНТАЛЬНОЙ ПРОЗЫ: «ЛИТЕРАТУРА И МУЗЫКА»

## РЕЗЮМЕ

Статья посвящена проблемам интермедиальности в художественно - документальных произведениях. Данная проблема изучена на основе анализа произведений Анара «Без вас», «Словно Керем» (роман-размышление о творчестве Назыма Хикмета), Али Амирли «Что оставил я в Агдаме?». Отмечается, что авторы обращаются к музыке в разных случаях, иногда для воссоздания атмосферы эпохи, но в основном для воссоздания сложного психологического состояния персонажей.

**Ключевые слова:** художественно-документальная проза, музыка, литература, воспоминание, взаимодействие наук.

# INTERMEDIALITY OF MODERN ART-DOCUMENTARY PROSE: "LITERATURE AND MUSIC"

## ABSTRACT

This article is devoted to the problems of intermediality in artistic and documentary works. This problem was studied on the basis of the analysis of the works of Anar "Without you", "Like Kerem" (a novel-reflection on the work of Nazim Hikmet), Ali Amirli "What did I leave in Agdam?". It is noted that the authors turn to music in different cases, sometimes to recreate the atmosphere of the era, but mainly to recreate the complex psychological state of the characters.

**Keywords:** documentary fiction, music, literature, memory, interaction of sciences.

**GiriĢ**

Sözdən fərqli olaraq heç bir tərcüməyə ehtiyac olmadan milyonlarla insanı öz sehrinə salan musiqi sənəti daim yazıçıların diqqət mərkəzindədir. Son illər müxtəlif elmlərin qarşılıqlı əlaqəsi, tədqiqi məsələləri getdikcə aktuallaşır. Bu cür yanaşmanın əsasən də nasirlər üçün vacibliyini qeyd edən Konstantin Paustovski yazırdı: "sənətin bütün sahələrinin – poeziya, rəngkarlıq, memarlıq və musiqi- qarşılıqlı şəkildə öyrənilməsi nasirin daxili dünyasını əsaslı şəkildə zənginləşdirir, onun nəsrinə xüsusi ifadəlilik verir. Bu zaman rəngkarlıqda olduğu kimi, əsər işıq və rənglə zənginləşir, poeziyada olduğu kimi sözlər kəsərlilik və təravət kəsb edir, memarlıqda olduğu kimi dəqiq ölçülərin gözlənilməsi, heykəltəraşlıqda olduğu kimi cizgilərin dəqiqliyi və qabarıqlığı, musiqiyə xas melodiklik və ritm gözlənilir" [5, s.218]. «İntermediallıq semiotika arası intertekstuallığı ifadə edir ki, bir sahəyə aid mətn başqa sənətin bədii sahəsinə daxil olur, özünə xas xüsusiyyətləri itirərək, yeni sferanın qanunları əsasında mövcud olur. Bu zaman sadəcə incəsəntin növləri arasında dialoq müşahidə olunmur, onların tərcüməsi yer alır. Tərcümə burada hərfi mənada deyil, metafora olaraq istifadə olunur" [6, s.374].

XX əsr ədəbiyyatında ədəbiyyatında ideyasının musiqi vasitəsilə ifadə edildiyi əsərlərin sayı az deyil. Klassik əsərlərdən Kuprinin "Nargilə qolbağ" əsərində böyük sevgisini musiqi ilə ifadə edən aşiq, müasir ədəbiyyatımızda Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanında Təhminənin xalq mahnılarını səsləndirərək Zaurla vidalaşması, insanın ən mübhəm hisslərinin ifadəçisinə çevrilən mahnılarda ifadə olunan xalq hikməti, sözlərdən daha kəsərli olan musiqilər, əbədi ayrılığın, böyük sevginin, gücün və gücsüzlüyün ifadəsinə çevrilərək əsərlərin ideyasını ifadə edirlər. Bu cür misalların sayını istənilən qədər artırmaq olar. Həmçinin musiqi vasitəsilə bəstəkarlar XX əsrin faciələrini

əks etdirməyə çalışmışlar. Belə əsərlərdən biri D. Şostakoviçin Leninqrad blokadasına həsr etdiyi simfoniyasıdır.

**Dövrün mənzərəsinin canlandırılmasında musiqini rolu**

Bir çox bədii-sənədli nəsr əsərlərində musiqi digər obrazlarla birgə əsərin strukturunda əsas mövqedə çıxış edərək, əsərin, əsasən də xatirələrdə insanın hiss və həyəcanlarının əsas ifadəçisinə çevrilir.

Xalq yazıçısı Anarın "Sizsiz" xatirə-romanında musiqi xüsusi önəm kəsb edir. Əsərdə Rəsul Rza və Nigar Rəfibəylinin şeirlərinə yazılmış musiqi əsərləri, Anarın özünün librettosunun müəllifi olduğu Fikrət Əmirovun "Nəsimi dastanı" baleti haqqında geniş məlumat verilmiş, baletinin 1973-cü ildə Moskvada keçirilmiş Nəsiminin yubileyində böyük uğur qazandığını qeyd edilmişdir. Müəllifin ağır itkilərə baxmayaraq (hər iki valideyninin ölümü) ssenarisinin müəllifi olduğu Üzeyir bəy haqqında filmi ("Uzun ömrün akkordları" filmi) tamamlamaq əzmi bu dahi şəxsiyyətə, onun musiqisinə olan böyük məhəbbətin göstəricisidir. Romanda Rəsul Rzanın, Nigar Rəfibəylinin, Anarın musiqi haqqında fikirlərinə geniş yer verilir.

Xalq mahnılarından fərqli olaraq şeirlərə bəstələnmiş mahnılarında xalqın minillik hikməti deyil, konkret fərdin dünyabaxışı tərənnüm olunur. Bəstəkar və şair bir-birini duymadan, eyni duyğuya köklənmədən bu "iş birliyinin" alınması, illərlə yaddaşlarda qalacaq melodiyaların yaranması mümkün deyil.

Bədii-sənədli əsərlərdə real faktlar əks olunduğundan, bu məlumatlar həm də faktoqrafik mənbə olaraq maraq doğurur. Xatirələrdə təsvir olunan dövrün musiqisi ilə yanaşı zamanla unudulmuş (ayrı-ayrı verilişlərə həsr olunmuş) mahnılar, tanınmış ifaçılar, bəstəkarlar haqqında məlumat əks olunmuş, müəlliflərin müasirləri olmuş müğənni və bəstəkarların obrazları canlandırılmışdır.

Yazıçıların musiqi haqqında fikirləri həm də dövrün musiqi zövqü haqqında təsəvvür yaradır. Məsələn, Anarın Şopenin "Ölüm marşı" (pianoçu Emil Gilelsin ifasında), Akif İslamzadənin ifasında "Sarı gəlin" mahnısı, Zeynəb Xanlarovanın mahnıları, Nigar Rəfibəylinin şerilərinin italyan bəstəkari Franko Maninonun "Məhəbbət haqqında" kantatasına daxil edilməsi və s. haqqında xatırlatmaları bu qəbildəndir [1, s.192]. Bəzən musiqi, məsələn, 30-cu illərin mahnıları, ötən zamanı xarakterizə edən atributa çevrilir: "O dövrün ən məşhur və ən xarakterik mahnısı səslənir: "Все выше, и выше, и выше стремим мы полет наших птиц, и в каждом пропеллере дышет, спокойствие наших границ".

Bir də başqa bir mahnı səslənir, qulaqlarımda! "Bandera rossa".

Bir də bir mahnı-D.Şostakoviçin "Vstreçnı" filminə yazdığı mahnı "Нас утро встречает прохладной, нас песней встречает Москва, кудрявая что же ты не рада, счастливому пеню гудка". Bütün bu mahnıların melodiyalarını, sözlərini anam 30- cu illərdən gətirmişdi bizə, Moskvadan gətirmişdi Bakıya, hərdən zümzümə edərdi, oxuyardı və mən bu mahnıları ekranlardan, efirlərdən eşitməmişdən qabaq onlar evimizə məhrəm olmuşdular.

Moskva küçələri bu mahnılarla doludur, gülüşlərlə, gül-çiçəklə, mayla, baharla doludur. Anam ağ corablarla, ağ parusin çəkmədə, ağ güllü ara krepdeşen paltardadır,...22-23 yaşındadır anam” [1, s.225-226].

Musiqi keçmiş illərin abi-havasını yaradır, sözlərin faktların ifadə edə bilməyəcəyi hisslərin canlandırılmasına vasitə olur, sözlə ifadə olunmayacaq kədəri ifadə edir.

Əsərdə valideynlərinin vəfatından doğan kədərlə ata-anası ilə məktublaşmadakı qayğısız dövrün əhvali-ruhiyyəsi ilə dissonans təşkil edir. Məktublarda bir birindən uzaqda olan ailə üzvləri müxtəlif problemləri, hisslərini bir-biri ilə bölüşürlər. Rəsul Rzanın müsiqi haqqında düşüncələri xüsusilə maraqlıdır. Türk bəstəkarlarının musiqisi ilə bağlı təəssüratını bölüşən Rəsul Rza yazır: “Simfoniya və orkestr üçün yazılmış konserti dinlədikcə düşünürdüm: dünyadan nə qədər xəbərsizik... Mən musiqi haqqında mülahizə yürüdüb hökm verməkdə özümü haqlı hesab etmirəm. Lakin mən anlamağa çalışıram. .. duman arxasında silueti görünən dağlar kimi mən bir əzəmət, nə isə rəngləri, biçimləri adiləşmiş aləmə bənzəməyən bir varlıq mövcud olduğunu duydum... ” [1, s.43].

Xatirələrdə həmin illərin musiqisi, zamanla unudulmuş mahnılar (ayrı-ayrı verilişlərə həsr olunmuş), tanınmış ifaçılar, bəstəkarlar bir sözlə müəllifin şahidi olduğu, dövrünün musiqisi haqqında fikirlər yer alır. Özünün redaktoru olduğu “Axşam görüşləri” verilişinə atasının eyni başlıqlı şeir yazdığını qeyd edən yazıçı, Tofiq Quliyevin bu sözlərə mahnı bəstələdiyini, mahnını Şövkət Ələkbərovanın ifa etdiyini qeyd edir [1, s.125] .

Tofiq Quliyevlə tanışlığından, ilk görüşündən bəhs edən müəllif onun özünün “heç mahnılarına” oxşamadığını bildirir. Atası ilə bəstəkarın iş birliyindən bəhs edərək həmmüəllif olduqları “Qızıl üzük”, “Bakı haqqında mahnı”sını xatırlayır.

**Psixoloji təsvirdə musiqidən istifadə**

“Sissiz” əsərində XX əsr klassik estrada musiqisinin incilərində biri olan, Emin Sabitoğlunun Rəsul Rzanın sözlərinə bəstələdiyi “Alagözlüm” mahnısının yazılma tarixçəsi yer alır. Akif İslamzadənin ifasında səslənmiş “Alagözlüm” mahnısı Emin Sabitoğlu Rəsul Rzanın ölümündən sonra bəstələmişdir. Nigar Rəfibəylinin 50-ci illərdə qələmə aldığı şeirə bəstələnən musiqi şairə ölüm ayağında olarkən yazılmışdır. Nigar xanım mahnını ilk dəfə xəstəxanada olarkən dinləyir: “Məhz bu sözlər –artıq dünyadan köçmüş insanı haraylaması-bəstəkarın qəlbini tərpətmişdi; çağırdığı atamın yoxluğunu Emin bilirdi, Akif bilirdi, hamı bilirdi, anam bilmirdi.

Bəlkə tez gələsən, əlac verəsən,
Sünbüllərin saçın yığıb hörəsən.
əlvan çiçəkləri özün dərəsən-
Gözləri yollarda qalır, neyləyim!” [1, s.196].

Mahnıda sözlə ifadə edilməyən bir kədər ifadə olunur: “Anamçün bu yalnız mahnı idi- Fidançün, Təranəyçün, mənimçün, bütün bilənlərçün ağrı idi, əzab idi, möhnət idi...”. Bitən ömrün bitməyən xatirələrinə çevrilən musiqilər müəlliflərinin ölümündən sonra yaşamaqda davam edirdi.

Musiqi çox zaman insan ömrünün müxtəlif məqamları – toy, dəfn mərasimi ilə bağlı assosiasiyalar doğurur. Anası ilə atasının ağır xəstəlikləri ilə üzləşən müəllif, ömrünün ən ağır anlarında təsadüfən küçədə Akif İslamzadənin ifasında “Sarı gəlin” mahnısını eşidir:

Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər, sarı gəlin.
Bu sevda nə sevdadır,
Səni mənə verməzlər
Neylim aman, aman, sarı gəlin.

Bu sözlər müəllifin daxili təlatümlərini artırır: “.. bu mahnı ... başqa bir həyatdan süzülüb, axıb gəlir və Akifin səsi də - ömrün o tayından gələn bir səsdir. Bütün bunlar hardasa başqa bir aləmdə, yaşadığımız günlərin uçurumla ayrılmış o biri tərəfində, o biri uzaq yamacında – yalında qalıb - sanki yer çatlamış, torpaq aralanmış, yarğan aşılmışdı və ömrümdə yaxşı, işıqlı, iliq nə vardısa-bu yarğandan o yanda qalmışdı, o tərəfdən, o taydan - əbədi itirilmiş üfüqlərdən köhnə mahnılar, tanış kəlmələr, uzaqlaşıb itəcək səslər gəlirdi, haçansa, solub unudulacaq sözləri eşidirdim:

Bu dərənin uzunu
Çoban qaytar quzunu, sarı gəlin.
Nolaydı bir gün görəm
Nazlı yarın üzünü

Neylim, aman, aman, sarı gəlin. Evə gəldim, mətbəxə keçib qapını çəkdim, bu yaşımda bəlkə də ilk dəfə ağladım” [1, s.102].

Emosional gərginlikdən sıxılaraq təkliyə, bağa üz tutan Anarın həmdəmi şəhərdən özü ilə bağa gətirdiyi radioda çalınan mahnılardır. “Bakıdan gecə konserti verirlər. Nərminə oxuyur... “Özünə qurbanam, sözünə qurbanam...

Andrey Babayevin mahnısıdır. Andrey Babayev çoxdan ölüb, Nərminə də çoxdan oxumur” [1, s.111]. Ölümün amansızlığını yaşayan insanın yeganə təsəllisi əbədiyaşar mahnılardır. O mahnılar ki, ona nisgilin keçiçiliyini xatırladır, insan ömrünün qısalığı fonunda xatirələrin, hisslərin əbədiliyini ifadə edir. İnsana hər bir məqamda təsəlli olacaq mahnılar, onu dərdi ilə təkbətək buraxmır. Vətənindən ayrı düşmüş dayısı Kamil də Vətən həsrətini mahnılarda ovudur: “Vətənindən didərgin düşmüş qərib doktor illər boyu radiosuyla Bakını tuturmuş... Nərminə Azərbaycan mahnıları oxuduqca qədəh-qədəh dalınca təkbaşına içirmiş [1, s.112].

Təsəlli ilə yanaşı musiqi həm də yaşanmış xatirələri oyadaraq müəllifdə qorxu doğurur: “Bu günlərdə qorxduğum şeylərdən biri də musiqidir. Neçə anının açarı musiqidədir. Binəva, zümzümə, melodiya qırığı qarmaq kimi ömrün

neçə ötən gününü dartıb çıxarda bilər, qəlbinə, beyninə, yaddaşına pərçim edər...

Musiqidən qorxurdum bu günlər. Yaxın adamlarınla qırx ildən artıq bərabər ömür sürmüsənsə, dünyanın bütün melodiyaları, bütün təranələri sənə onların müəyyən bir məqamını, ilini, gününü, saatını xatırladacaq, yaxın adamlarla birgə sürülən ömür-anımların toplanması, çoxalması, bütün ailəni əhatə etməsidir [1, s.161-162].

Obrazın daxilən yaşadığı matəm hissi ilə dissonans təşkil etdən musiqi isə yazıçıda narahatlıq doğurur: “mahnı məhz mənim əsəblərimi qıcıqlandırmaq üçün qəsdən bu dərəcədə şit yaradılıb. Açıq pəncərələrdən rəqs musiqisi eşidirəm-mənə elə gəlir ki, qayğısız həyat mənim hisslərimi təhqir edir, içəri dünyamı laqeydliyi, biganəliyi ilə tapdalamaq istəyir”. Kədərini “qıcıqlandıran” musiqidən uzaq qaçan müəllifin narahat ruhu klassik musiqidə, Üzeyir musiqisində rahatlıq tapır: “Sanki üstünü duman almış uca bir dağın başında büllur bulağa qapanıram” [1, s.162]. Beləliklə, musiqi müəllifin həyatının bu çətin, dramatik məqamında həm nicatı, həm də qorxusuna çevrilir.

Nazim Hikmətin sevgi hekayətlərindən söhbət açan Anar bəzən hisslərin təsvirində sözün acizliyini hiss edib, musiqiyə üz tutur. İki sevgilidən biri üçün hissin ötüb keçməsi, digərinin isə hələ də bu hissin əsarətində olduğu vəziyyəti canlandıran müəllif bəstəkar Adil Bəbirovun Vaqif Səmədoğlunun sözlərinə bəstələdiyi mahnısını xatırlayır: “Mahı məhz bu çıxılmaz vəziyyətə aiddir. İki aşiqdən biriyçün sevgi bitəndə, o birisi keçmiş sevgilisindən yalnız bir şey xahiş edir, yandırıb yaxan xatirələri “Ah çəkdiyin gecələri, “yox” dediyin küçələri, sevdiyimiz şeirləri, gəzdiyimiz şəhərləri, kölgən düşən divarları ürəyimdən qopar, qopar, özünlə apar” deyir [1, s.249 ].

Uzun zaman xanımı Münəvvərdən ayrı düşən N.Hikmətin məhşur skripkaçı David Oystraxa ünvanladığı şeirində yazır:

“İstanbula getmisiniz,
Konsertinizdəymiş,
Çox bəxtsiz bir qadını bəxtiyar etmisiniz
Yağmura uzanan iki yşılyarpaq kimi gözləri baxmış barmaqlarınıza
Məktubunda: “Unutdum hər şeyi ”- deyir
Dərdlərdən başqa unudacağı nəyi var?
“Ağladım deyir, fərəhləndim” deyir
“Dünya deyir gözəl, içim rahat”.
Siz qısqandığım yeganə insansınız, ustad” [2, s.313 ].

Əli Əmirlinin “Ağdamda nəyim qaldı” avtobioqrafik romanında musiqi zövqü, balaca Əlinin ətrafdakı insanlarla qarşılaşdırılmasında istifadə olunur, insanın mənəvi zənginliyi, istedadının, bədii zövqünün göstəricisi kimi çıxış edir. Ona yad olan “doğmalar” la münasibətlərini əyani şəkildə ifadə edir [3].

**Nəticə.**

Beləliklə, ədəbiyyatşünaslıqda intermediallıq probleminin tədbiqi bir çox əsərlərin fərqli müstəvidən təhlilinə imkan verir. Bədii-sənədli nəsr nümunələrində müəlliflərin bəzən dövrün ab-havasını, personajların əhval-ruhiyyəsini göstərmək, çox zaman isə mürəkkəb psixoloji məqamları canlandırmaq məqsədi ilə musiqiyə müraciət etdikləri aydın olur.

**Ədəbiyyat:**


1. Anar. Sizsiz // Anar. Əsərləri. III cild. Bakı, Nurlan, 2004, 689s.
2. Anar. "Kərəm kimi" (Nazim Hikmətin həyat və yaradıcılığı haqqında anılar, düşüncələr romanı) // Anar. Əsərləri. Bakı, Nurlan, 2015, VII cild, 416s.
3. Əmirli Ə. Ağdamda nəyim qaldı? // Əmirli Ə. Ağdamda nəyim qaldı? (Avtobioqrafik roman) // Azərbaycan, 2015, № 10, s. 13-89
4. Брузгене Р. Литература и музыка: о классификациях взаимодействия// Вестник Пермского Университета, 2009, Российская и Зарубежная филология, вып. 6., с. 93-99. https://cyberleninka.ru/article/n/literatura-i-muzyka-o-klassifikatsiyah-vzaimodeystviya
5. Паустовский К. Золотая роза. Москва, Советский писатель, 1983
6. Хаминова А.А. (Томск, Россия) Теория интермедиальности: проблемы и перспективы// s.373-379 file:///C:/Users/User-PC/Downloads/Mik_2012_15_7_63%20(2).pdf

**UOT 82**

## QORQUDġÜNAS ALĠM-BƏHLUL ABDULLA

**Ġlhamə Muxtar qızı AĞAZADƏ**

*AMEA N.Gəncəvi adına Ədəbiyyat institutu*
*iahmadova@inbox.ru*

### XÜLASƏ

Bəhlul Abdulla "Dədə Qorqud dastanı" haqqında yazdıqları ilə Azərbaycan filoloji fikir tarixində özünəməxsus yeri, dəst-xətti olan alim kimi tanınmışdır. Qorqudşünas alimin bir tədqiqatçı kimi böyük xidmətlərindən biri özündən əvvəlki araşdırmaları qətiyyən təkrar etmədən orijinal yanaşma üsulu ilə dastanın poetik strukturunu, dərin qatlarını açmağa çalışması olmuşdur. Bəhlul Abdullanın araşdırmaları sübut edir ki, dastanda qədim türklərin psixologiyası, xarakteri, doğma yurda, torpağa bağlılığı, dövlətçilik ənənələri, qonşu xalqlarla münasibətləri, dini görüşləri, ailə-məişət münasibətləri, adət-ənələri öz əksini tapmışdır. Alim "Kitabi Dədə Qorqud"un tədqiqinə həsr etdiyi bu monoqrafiyalarda əvvəlki tədqiqatlara tənqidi yanaşaraq, bir sıra məsələlərə aydınlıq gətirməyi, abidəni yeni mövqedən dəyərləndirməyi bacarmışdır.

**Açar sözlər:** Kitabi Dədə Qorqud, abidə, epos, mifologiya, qorqudşünas

## KORKUT CRITICS SCHOLAR - BAHLUL ABDULLA

### ABSTRACT

Bahlul Abdulla wrote about "Dede Korkut epos" and was known as an unique scientist in the historical place of philological thought. One of the great services of the korkutcritics scientist was his attempt as a researcher to uncover poetic structure, deep layers of originality, without re-writing previous studies. Research by Bahlul Abdulla proves that the epic reflects the psychology, nature of the ancient Turks, their loyalty to the land, statehood traditions, relations with neighboring peoples, religious views, family relationships, traditions and customs. The scientist criticized previous studies in these monographs devoted to the study of Kitabi Dada Gorgud, to clarify a number of issues, to evaluate the monument from a new position.

**Key words:** Kitabi Dede Korkut, monument, epos, mythology, gorgud-critics.

## УЧЁНЫЙ-КОРКУТОВЕД БАХЛУЛ АБДУЛЛА

## РЕЗЮМЕ

Бахлул Абдулла своими записями об «эпосе Деде Коркуд» прославился в истории филологической мысли как ученый с уникальной, новой творческой линией. Одной из великих заслуг ученого-коркутоведа, как исследователя была его попытка методом оригинального подхода раскрыть поэтическую структуру, глубокие слои эпоса, никоим образом не повторяя исследования, проведѐнные до него. Исследования Бахлула Абдуллы доказывают, что в эпосе нашли своѐ отражение психология и характер древних тюрков, их привязанность к родному краю, земле, традиции государственности, отношения с соседними народами, религиозные взгляды, семейно-бытовые отношения, традиции и обычаи. В своих монографиях, посвящѐнных «эпосу Деде Коркут» учѐный критически отнесся к предыдущим исследованиям и сумел прояснить ряд вопросов, оценить монумент с новой позиции.

**Ключевые слова:** Китаби Деде Коркут, монумент, эпос, мифология, коркутовед

Türk xalqlarının ortaq ədəbi sərvəti hesab olunan KDQ-nin tədqiqi XX əsrin əvvəllərində olduğu kimi bu gün də həm türk, həm də dünya tədqiqatçılarının diqqət mərkəzindədir. Qorqudşünas alimlər bu illər ərzində abidəni müxtəlif yönlərdən tədqiq etməyə çalışmış, KDQ-nin öyrənilməsinə minlərlə məqalə, yüzlərlə kitab həsr etmişlər. Azərbaycan ədəbiyyatında da KDQ-nin tədqiqinə böyük maraq olmuşdur. Abidənin dərinliyi ona olan marağı günü-gündən artırmışdır. Beləki, XX əsrin əvvəllərində KDQ-nin ilk elmi araşdırıcısı hesab olunan Əmin Abid abidənin bütün türk dünyası üçün böyük önəm daşıdığını göstərmiş, sonrakı illərdə bir çox tədqiqatçılar KDQ-dən bu və ya başqa dərəcədə bəhs etmişlər. B.Çobanzadə, H.Zeynallı, A.Musaxanlı, H.Araslı, M.Rəfili, Ə.Dəmirçizadə, M.Arif, Ə.Sultanlı, M.H.Təhmasib, Ş.Cəmşidov, P.Xəlilov, B.Abdulla, K.Abdulla, Anar, T.Hacıyev, Ə.Tanrıverdi və diğər nüfuzlu alimlər KDQ haqqında dəyərli araşdırmalar aparmış, monoqrafik tədqiqatlar çap etdirmişlər. Göründüyü kimi, abidənin dərinliyi tədqiq olunmağa başladığı zamandan bu günədək çoxlu qorqudşünas alimlər yetişdirmişdir. Belə alimlərdən biri də professor, Əməkdar elm xadimi Bəhlul Abdulla olmuşdur.

KDQ-ın tədqiqi ilə müntəzəm surətdə məşğul olan folklorşünas alim Bəhlul Abdulla (1940-2011) yazdığı 14 monoqrafiyadan 9-nu bu abidəyə həsr etmişdir. Bəhlul Abdulla "Dədə Qorqud" dastanı haqqında yazdıqları ilə Azərbaycan filoloji fikir tarixində özünəməxsus yeri, dəst-xətti olan alim kimi tanınmışdır. Bu işi həyatının mənası hesab edən alimi haqlı olaraq prof. M.Qasımlı milli-mənəvi varlığımızın şah damarı olan "Dədə Qorqud" eposunun hər sözü,

hər cümləsi üstündə günlər, həftələr, aylar boyu düşünüb-daşınan həqiqi qorqudşünas adlandırmışdır (11, s.46).

Bəhlul Abdullanın KDQ-in 1300 illik yubileyi münasibətilə çap etdirdiyi əsərlər qorqudşünaslıq elminə sanballı töhfədir. Alim "Kitabi-Dədə Qorqud" və islam dini" kitabında islami görüşlər, türk islam qarşılaşması, türklərin islamı qəbul etməsi və s. haqqındakı qənaətlərini ümumtürk kontekstindən çıxış edərək təqdim etmişdir. Müxtəlif məxəzlərə müraciət edən alim həm dastandakı hadisələrin islamdan çox əvvələ aid olduğunu, həm də islamdan sonra baş verdiyini sübut etməyə çalışan tədqiqatçıların mülahizələrinin hamısını diqqətlə nəzərdən keçirmişdir.

B.Abdullanın çox haqlı olaraq gəldiyi qənaətə görə türklər islamdan əvvəl də bir olan Allahın varlığına inanmışlar. Yəni dastanın yarandığı zamanda Oğuzlar islamı hələ qəbul etməmişdilər. Dastan sonrakı dövrlərdə yazıya alındığı zaman islamlaşdırılmışdır. Abidənin bütün boylarında islami görüş və ənənələr yer almışdır ki, bu da "KDQ"un boylarında xüsusi səciyyə daşıyır. Dastanı dərindən araşdıran professor T.Hacıyevin də bu mövzudakı fikirləri B.Abdullanın gəldiyi qənaətlərlə səsləşir: "Əslində dastanlarda islamdan qabaqkı motivlər-dünyagörüş izləri daha qabarıqdır. İslamın yasaq bildiyi çox şeylər əsərdə normativ sayılır. Şənlik məclisləri şərabsız keçmir. Qızın ova çıxması, at minib ox atmaqda yarışması, gürş tutub güləşməsi-ərə getmək istədiyi oğlanı yoxlaması, yaxud qılınc götürüb ərinin düşmənlərini qırması çox qədim ünsürdür" (1, s. 401). Göründüyü kimi, B.Abdullanın bir tədqiqatçı kimi böyük xidmətlərindən biri özündən əvvəlki araşdırmaları qətiyyən təkrar etmədən orijinal yanaşma üsulu ilə dastanın poetik strukturunu, dərin qatlarını açmağa çalışması olmuşdur.

"Kitabi-Dədə Qorqud"un poetikasına həsr olunmuş kitabda alim özünəməxsus yanaşması ilə dastana tamam yeni aspektdən baxa bilmişdir. B.Abdulla abidədə əksini tapmış təbiətdəki dəyişmə və əvəzlənmələr haqqında geniş məlumat vermişdir. Abidədə adı çəkilən dağlar bir torpaq və daş yığını kimi deyil, mərdlik, kişilik, vüqar, əzəmət bildirən bir varlıq kimi tədqiq olunmuşdur. "Oğuzlar dağları, daşları, qayaları deyiləni başa düşən, səs səsə verən, xoş niyyətlə keçənə keçid verən, istək yerinə yetirən, xəbər çatdıran, sığınaq verən, uğur arzulayan, bəddualardan qoruyan, hətta qeyzlənən zənn etmişlər. Odur ki, onlar dağlarla danışır, xəbərləşir, dağlara salam verir, dağlara and içir, dağların şəfaverici, qida, su qaynağı olmalarına inanırlar" (7, s. 8). (Çox güman ki, dağlara bu cür münasibət bəslədiyindəndir ki, müasirləri alimi "dağ adamı" adlandırırdılar.)

Məsələyə mifoloji görüşlər baxımından yanaşan müəllif dağın yerüstü – işıqlı dünyanın, dərənin yeraltı – qaranlıq dünyanın rəmzi səciyyəsi daşıdığını, qəbahətli işlər məkanı olduğunu, Oğuzlar üçün dağ-daş, dərə-təpənin məxsusi səciyyə daşıdığını aydınlaşdırmışdır.

Suyun həyat mənbəyi, canlı olması həm dastanda, həm də xalq inam və etiqadlarında öz əksini tapmışdır. Beləki dastanda: Qazan xan evinin talandığını öyrənmək üçün "Su haqq didarın görmüşdür. Mən bu suyla xəbərləşim"- deyir. Dəli Domrul, Dəli Qarcarla bağlı boylarda da suyla bağlı məsələlərdən söhbət açılır. B.Abdulla abidədən gətirdiyi nümunələr əsasında sübut etməyə çalışmışdır ki, oğuz zamanında tayfa, boy, soy, uruq-turuq birləşmələrinin, hətta ayrı-ayrı ocağın özünəməxsus suyu, bulağı olmuşdur. Burada müəllifin əsas məqsədi suyun bu xüsusiyyətinin dastan üçün təsadüfü hal olmadığını nəzərə çatdırmaqdır.

Folklorşünasın fikrincə, ağaclar Oğuzlar üçün yalnız dəyənək düzəltmək, çovkan oyununda istifadə vasitəsi, gəmi hazırlamaq, ev, körpü tikmək, od-ocaq vasitəsi olmamışdır. Ağacın canlı, deyilən sözü başa düşən olması haqqındakı qənaətləri sübut edir ki, ağacla bağlı görüşlərin kökləri çox dərindir. Burada Qayın və Qaba ağacları haqqında maraqlı mülahizələrlə çıxış edən alim türk xalqlarında ağaca "doğum ilahəsinin atributu" kimi baxılmasının Həyat Ağacı ilə bağlı olduğunu bildirir (7, s. 37). Bütün bunlar həm mifoloji cəhətdən, həm də məişət tariximizi hərtərəfli öyrənmək baxımdan faydalı və gərəklidir.

Kitabın birinci hissəsində oğuz təbiəti haqqında məlumat verən müəllif, zooloji mühit adlandırdığı ikinci hissədə "qaçarlar" və "uçarlar" adlı bölmələrdə abidədə adı keçən heyvan və quşlar haqqında ətraflı məlumat verir. Beləki, Oğuzlar arasında mühüm funksiya daşıyan at, insana ən sədaqətli heyvan olan it barəsində geniş araşdırma apardığının şahidi oluruq. "KDQ"da adı keçən çal qaraquşun (müəllif bu quşun qartal olduğunu güman etmişdir), "Tulu quş"un, "Toğan quş"un, sağsağanın, qarğa və quzgunun bir sıra məsələlərin həllində iştirak etməsi, rəmz, simvol səciyyəsi daşıması, daha sonra oğuzların əsas peşələrindən olan ovçuluq da araşdırmada yer almışdır.

Dastanda rastlaşdığımız ata-anaya hörmət, "Ana haqqı tanrı haqqı" deyimi, qonağa ehtiram və s. adətlərin yaşadılmasını mənəviyyatda iflasa uğramış ədəb-ərkanın qaytarılmasına, bərpa olunmasına gətirib çıxaracağını vurğulayan alim bildirir ki, bunların öyrənilməsi xalqımızın etnogenezisini müəyyən etməkdə çox dəyərlidir.

Göründüyü kimi, abidədəki istər mifoloji qatlı təbiət varlıqlarının - dağlar-dərələr, sular, ağacların, istərsə də zooloji mühitin Oğuz cəmiyyətindəki rolu və mövqeyi təhlil olunmuşdur. Abidənin poetikasına həsr olunmuş bu tədqiqat qorqudşünaslığın nailiyyətləri sırasındadır, xalqın milli varlığını, mənşəyini əks etdirir.

"Dəli Domrul "Kitabi-Dədə Qorqud"da və Qorqudşünaslıqda" kitabı B.Abdullanın folklorşünaslıq fəaliyyətində əhəmiyyətli yer tutur. Tədqiqatçı alim "Dəli Domrul" boyu ilə bağlı tədqiqatların hamısına nəzər yetirmiş, öz qənaətlərini, təkziblərini vermiş və boyun mahiyyəti və məzmunun açılmasına, yaranma tarixinin düzgün təyin olunmasına səy göstərmişdir. Müəllifin qənaətinə görə "Dəli Domrul" nə "din əleyhinə" çevrilmiş hər hansı bir örnək əsa-

sında formalaşıb, nə də “dini təbliğ” naminə yaradılıb. Bu sadəcə olaraq Oğuzlarda Tanrının vahidliyinə inamı, folklor poetikasının prinsiplərinə uyğun olaraq, çox sonralar özünə hopduran, təsirlərə düşməyən, türk adlarını içində yaşadan bir boydur. Bu boy ən əski boylardan biridir. “KDQ” boyları içərisində məxsusi yeri olan orijinal bir dastandır (10). Tutarlı arqumentlərdən çıxış edən müəllifin yürütdüyü mülahizələr konkret faktlara, dərin elmi təhlillərə söykənir. Olum və ölüm məsələsi hər zaman insanı düşündürmüşdür, bu səbəbdən də demək olar ki, bu boy arxaik olduğu qədər də müasirdir.

Dünyanı rəngsiz təsəvvür etmək mümkün deyildir. Mədəniyyət və adət-ənənələrdən asılı olaraq, hər kəs ətrafda olan rəgarəngliyi özünə məxsus qəbul edir. Rənglər insana ətrafındakı aləm haqqında məlumatı götür-qoy etmək üçün kömək edir, onun hisslərinə təsir edir. Dastanın boylarını geniş tədqiqat süzgəcindən keçirən B.Abdulla “Kitabi-Dədə Qorqud”da rəng simvolikası” araşdırmasında bütün rəngləri araşdırmaya cəlb edib və rənglərin semantik simvolikasını boylardan gətirilən örnəklər əsasında üzə çıxarmağa çalışıb. Təkcə yaşıl rəngdən başqa. Folklorşünas bildirir ki, “Yaşıl rəngin “Kitab”da olmaması abidənin qədimliyini söyləməyə bir daha haqq qazandırır. Ümumiyyətlə folklorumuzda yaşıl rəngə rast gəlmək çox nadir haldır. Güman ki, yaşıl rəng islam dininin simvolik atributlarından olduğundan ilkin orta və orta yüzilliklərdə, eləcə də sonrakı çağlarda folklor örnəklərində yayıla bilməmişdir” (5, s.119). Alim geosimvolikada çoxlu rəngin olduğunu sübut etməyə çalışmış, bunun da daha çox səmtlərlə-cəhətlərlə, etnosun, soyun, tayfa, qəbilə birləşməsinin, nəhayət dövlətin ərazi boyu yerləşməsi və hətta qurumun təşkilat sistemi ilə bağlı olduğunu diqqətə çatdırmişdir.

Bəhlul Abdulla “Salur Qazan” (tarix, yoxsa mif...) (8) monoqrafiyasında eposun əsas qəhrəmanı Salur Qazanla bağlı mifoloji məqamları araşdırmaya cəlb etmişdir. Qorqudşünaslıqda Qazan xan haqqında saysısız-hesabsız ziddiyyətli fikirlər vardır. Bir qrup alimlər Qazan xanın tarixi şəxsiyyət olmasını sübut etməyə çalışsalar da, diğərləri tarixdə əksini tapmış bu məlumatların dastandan qaynaqlandığı qənaətindədir. B.Abdulla bu tədqiqatda “KDQ”ilə məşğul olan M.H.Təhmasib, M.Seyidov, H.Araslı, Ş.Cəmşidov, İ.Morquart, N.Ybiçurin, Q.N.Potanin, V.V.Radlov, V.V.Bartold, türkiyəli araşdırıcılar Ziya Göyalp, Ə.B.Ərcilasun, B.Ögəl, F.Sümər və başqalarının təhlilərinə yaradıcı şəkildə yanaşmış, onların problemlə bağlı ən mühüm araşdırmalarını ümumiləşdirmiş, mükəmməl elmi şərhlər vermişdir. Müəllif “Kitabi Dədə Qorqud”un tarixi əsr deyil, folklor nümunəsi olduğunu sübuta yetirmiş və dastanın əsas mifoloji obrazlarından olan Qazan xanı tarixi əsər qəhrəmanı kimi qəbul edən fikirlərin yanlış, epik ənənəyə sığmayan bir hal olduğunu isbatlamışdır. İnanırıq ki, alimin fikirləri qorqudşünaslıqda hələ uzun illər dəyərini qoruyub saxlayacaq. Göründüyü kimi, abidəyə olan hər yeni baxış xalqın bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür. Folklorşünas alimin haqlı olaraq gəldiyi qənaətə görə, “Kitabi-Dədə Qorqud” hikmətlərini gənc nəslə nə qə-

dər çox aşılaya bilsək, onun millilik əhval-ruhiyyəsində, milli və dini dəyərlərə, ənənələrə sədaqət ruhunda tərbiyə edə və beləliklə də, Dədə Qorqud arxetiplərini daim yaşada bilərik.

B.Abdullanın "Kitabi-Dədə Qorqud"da nitq etiketlərinin etnomifik poetikası" (dua, and, alqış-qarğış) adlı kitabında xalq yaradıcılığı nümunələri, arxaik folklor növləri ətraflı şəkildə araşdırılıb. Alim dastanda yer almış nitq etiketlərinin mühüm mahiyyət daşıdığını sübut edir, bu örnəklərin söylənilməsi zamanı iştirak etmiş mifoloji obrazlardan, "örtülü qalmış" bəzi məqamlarından, onların ifadə etdiyi məna xüsusiyyətlərindən, mifik məzmunundan bəhs edib. B.Abdulla əski inam və etiqadların abidədə zəngin etiket qaynağı olmasını müxtəlif nümunələr əsasında şərh etmiş maraqlı nəticələrə gəlmişdir.

B.Abdullanın epos haqqında olan araşdırmaları içərisində xüsusi yeri və rolu olan "Kitabi-Dədə Qorqud"un etnik ənənə, mərasim sistemində mifoloji təsəvvürlərin yeri" kitabında müstəsna mahiyyət daşıyan etnik sistemin tərkib atributlarından olan adət-ənənələrin əksəriyyətinin necə varsa, eləcə də indinin özündə məişətimizdə yaşaması bildirilir. Adət-ənənələrin və onlarla bağlı mifoloji məqamların "Kitab"da sistem şəklində olmaqla Oğuz cəmiyyəti, onun məişət məsələləri barədə aydın təsəvvür yaratdığını diqqətə çatdırılır.

Hər bir mərasim aid olduğu xalqın həyatını, yaşayış tərzini, sosial-siyasi görüşlərini, təbiət və cəmiyyət hadisələrinə münasibətinin ayrı-ayrı məqamlarını konkret biçimdə ifadə edir. Folklorşünas burada xalqın dünyagörüşünü, məişət tarixini, milli-adət ənənəsini, əxlaqı-etik mədəniyyətini öyrənmək baxımından olduqca dəyərli hesab etdiyi "KDQ"dakı toy və yas mərasimlərinin əsas məqamlarını tədqiq süzgəcindən keçirmişdir.

"Kitabi-Dədə Qorqud"da xanımlar" kitabında eposdakı oğuz xanımlarının səciyyəvi cizgilərindən, onlarla bağlı bəzi mifoloji məqamlardan söz açılmışdır. O, bu qadınları ər namusunu qoruyan mətanətli xanım, qəlbində övlad sevgisi yaşadan ana, döyüş-vuruşda ər alplar qədər qorxmaz, şücaətli cəngavər, hünərli, qorxmaz qəhrəman kimi dəyərləndirmişdir. Abidədə sözü gedən xanımlar haqqında aparılmış araşdırma oğuz qadın tipləri haqqında aydın təsəvvür yaradır. Göründüyü kimi, B.Abdullanın folklorşünaslıq fəaliyyətində "KDQ"nin tədqiqi mühüm yer tutmuş, abidəni dərindən təhlil etmiş, özündən sonrakı yeni tədqiqatlar üçün geniş imkanlar açmışdır.

Alimin "Azərbaycan folklorunda mifoloji at" əsərində atlar barəsində irəli sürdüyü orijinal mülahizələr diqqəti çəkir. Öz səciyyəvi cizgiləri ilə bir-birindən seçilən, abidədə xüsusi adlarla tanınan Oğuz igidlərini atsız təsəvvür etmək mümkün deyil. Atların Oğuzlar arasında mühüm funksiya daşıdığını sübut edən müəllif qopuz və silah qədər atın da oğuzların həyatını tamamlayan, mənalandıran əsas amillərdən biri olduğunu diqqətə çatdırmışdır.

Qorqudaşünas alimin araşdırmaları sübut edir ki, dastanda qədim türklərin psixologiyası, xarakteri, doğma yurda, torpağa bağlılığı, dövlətçilik ənənələri, qonşu xalqlarla münasibətləri, dini görüşləri, ailə-məişət münasibətləri, adət-

ənələri və ritualları öz əksini tapmışdır. Göründüyü kimi, alimin elmi fəaliyyətində mühüm mərhələ təşkil etmiş bu monoqrafiyalar mənbəşünaslıq baxımından da zəngin və hərtərəflidir. Alim "Kitabi Dədə Qorqud"un tədqiqinə həsr etdiyi bu monoqrafiyalarda əvvəlki tədqiqatlara tənqidi yanaşaraq, bir sıra məsələlərə aydınlıq gətirməyi, abidənin boylarını yeni düşüncə baxımından dəyərləndirməyi bacarmışdır. Bizcə, deyilənlər qorqudşünaslıq elmində məsələlərə yeni yanaşma metodu, müstəqil fikir yürütmək bacarığı, dəsti-xətti ilə seçilən Bəhlul Abdullanın özünəməxsus yolu olduğunu söyləməyə əsas verir. Bütün bu xidmətlərinə baxmayaraq, təvazökar alim yenə də düşünmüşdür ki: "Dərin köklü, gövdəli, boylu-buxunlu, qamətli, qollu-budaqlı, barlı-bəhərli "Kitabi-Dədə Qorqud"un, kiçik bir yarapağına meh ola bildimmi? Bildimsə, nə bəxtiyarlıq...Yox? Olsun! Sirli-sehrli aləminə səfər asanmı?!"(4)

"Kitabi-Dədə Qorqud ensiklopediyası"nın hazırlanmasında, eləcə də "Kitabi-Dədə Qorqud" eposunun tədqiqi sahəsindəki mühüm xidmətlərinə görə B.Abdulla 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərancamı ilə Əməkdar elm xadimi fəxri adına layıq görülmüşdü. O, ensiklopediyanın II cildinin redaktorlarından biri olmuşdur. Bütün bu deyilənlərdən aydın olur ki, Əməkdar elm xadimi, folklorşünas alim Bəhlul Abdulla sözün həqiqi mənasında əsl qorqudşünas olmuşdur.

**Ədəbiyyat:**

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. I c. Bakı. Elm. 2004, səh.760
2. B.Abdulla "Kitabi Dədə Qorqud" və İslam dini" Bakı. Ozan.1997, səh. 40
3. B.Abdulla "Kitabi Dədə Qorqud"da xanımlar." Bakı. Elm.2009, səh. 96
4. B.Abdulla "Kitabi Dədə Qorqud"da nitq etiketlərinin etnomifik poetikası" Bakı. Elm. 2007, səh. 100
5. B.Abdulla "Kitabi Dədə Qorqud"da rəng sivolikası" Bakı. Çaşıoğlu. 2004, səh. 128
6. B.Abdulla "Kitabi Dədə Qorqud"un etnik ənənə, mərasim sistemində mifoloji təsəvvürlərin yeri" Bakı. Təknur. 2008. səh. 120
7. B.Abdulla "Kitabi Dədə Qorqud"un poetikası." Bakı. Elm.1999, səh. 224
8. B.Abdulla "Salur Qazan" (tarix, yoxsa mif...) Bakı. Ozan. 2005, səh. 225
9. B.Abdulla Azərbaycan folklorunda mifoloji at. Bakı. Ozan. 2000, səh. 105
10. B.Abdulla "Dəli Domrul Kitabi Dədə Qorqud"da və Qorqudşünaslıqda" Bakı, Təhsil. 2002, səh. 60
11. Sevgi dolu alim və pedaqoq. Bakı, 2010
12. M.Təhmasib Seçilmiş əsərləri. 2 cilddə. I cild Bakı, Mütərcim, 2010, səh. 488

**MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!**

1. Qərbi Kaspi Universitetinin Elmi xəbərlər jurnalında əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr ingilis, azərbaycan, rus dillərində qəbul edilir.
3. Yazılar Microsoft Word yazı proqramında, (science@wcu.edu.az) ünvanına göndərilməlidir.Göndərilən məqalələrdə aşağıdakılar nəzərə alınmalıdır:
   * Məqalənin başlığı, müəllifin adı, ata adı, soyadı,
   * İş yeri,
   * Elektron ünvanı,
   * Xülasə və açar sözlər.
4. Məqalə sturuktur etibarilə xülasə, giriş, alt başlıq və ya başlıqlardan, nəticə və isifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmalıdır.
5. Məqalədə başlıq hər xülasədən əvvəl ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
6. Xülasə 100-150 söz aralığında olmaqla, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
7. Bütün məqalələrin orijinal dilindən asılı olmayaraq mütləq azərbaycan, rus və ingilis dillərində xülasələri və açar sözləri dərc edilməlidir.
8. Məqalədə UOT kodu göstərilməlidir.
9. Məqalə aşağıdakılardan ibarət olmalıdır:
   * Giriş,
   * Tədqiqat işinin müzakirəsi
   * Nəticələri
   * İstinad ədəbiyyatı rus dilində olduğu halda orijinal dili mötərizə içərisində göstərməklə yalnız latın əlifbası ilə verilməlidir.
10. Şəkil, rəsm, qrafik və cədvəllər çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.

**TO THE ATTENTION OF AUTHORS!**

1. The Journal of Western Caspian University accepts previously unpublished, research papers, original works and review articles written by the author in the field of research.
2. Articles are accepted in English, Azerbaijani, Russian languages.
3. Entries should be sent in Microsoft Word writing program to the address (science@wcu.edu.az). The following should be considered in the articles sent:
   *The title of the article, the name, father's name and last name of the author.
   *The occupation.
   *E-mail address.
   *Abstract and key words.
4. The article must consist of introduction, sub-headings or headlines, conclusion and the list of used literature, by its structure.
5. The title of the article must be given above of every abstract in the middle of the paper**, in bold** and capitalizing in three languages.
6. The abstract must consist of 100-150 words and must be given in the original language and translated into two languages.
7. All three abstracts must be the same in three languages.
8. The UDC code must be provided in article.
9. The article must consist of these:
   Introduction
   Description of research
   Summary
   The reference literature being in Russian, the source language must be indicated in brackets in Latin alphabet.
10. Pictures, drawing, graphics and tables must be in the text that clearly published. Captions must be written below the pictures, drawing and tables.

Məqalələr aşağıdakı ünvana göndərilir:
E-mail: science@wcu.edu.az;
Məqalələrin online qəbulu: journal.wcu.edu.az

Статьи направляются по адресу:
E-mail: science@wcu.edu.az;
Онлайн прием статей: journal.wcu.edu.az

Articles should be sending to the following address:
E-mail: science@wcu.edu.az;
Submit online: journal.wcu.edu.az

| | |
|---|---|
| ***Formatı*** | 70×100 $^{1}/_{16}$ |
| ***Həcmi*** | F.ç.v. 8 |
| ***Sayı*** | 500 |

Qərbi Kaspi Universitetinin nəşriyyat-poliqrafiya mərkəzində yığılmış və çap olunmuşdur.